# VƏTƏNDAŞIN 2021-Cİ İL ÜÇÜN BÜDCƏ BƏLƏDÇİSİ

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

Bakı - 2020

# M ü n d ə r i c a t


| Sıra | Başlıq | Səhifə |
| --- | --- | --- |
| | Oxucuya müraciət | 2 |
| 1. | Büdcə nədir və özündə nəyi birləşdirir? | 3 |
| 2. | Azərbaycan Respublikasının büdcə sistemi | 5 |
| 3. | Büdcənin gəlirlərini formalaşdırmaq üçün pul vəsaiti haradan gəlir və hara gedir | 7 |
| 4. | Dövlət və icmal büdcələrin layihəsinin tərtibi özündə hansı mərhələləri birləşdirir və hansı normativ-hüquqi sənədlərlə tənzimlənir | 9 |
| 5. | 2021-ci il üçün dövlət büdcəsinin zərfi haqqında icmal məlumat | 11 |
| 6. | 2020-ci ilin sonuna gözləntilər və 2021-ci il üçün makroiqtisadi proqnozlar | 12 |
| 7. | Büdcə-vergi siyasətinin əsas istiqamətləri | 16 |
| 8. | İcmal büdcə | 22 |
| 9. | Dövlət büdcəsinin gəlirləri | 24 |
| 10. | 2021-ci il dövlət büdcəsinin xərcləri | 33 |
| 11. | Dövlət büdcəsi kəsirinin yuxarı həddi və onun maliyyələşdirilməsi | 61 |
| 12. | "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu | 62 |
| 13. | Nəticə | 70 |
| 14. | Anlayışlar və terminlər | 71 |
| 15. | Əks-əlaqə | 75 |

## Oxucuya müraciət

**Hörmətli oxucu!**

“Vətəndaşın büdcə bələdçisi” kitabında dövlət və icmal büdcələrin əsas parametrləri və istiqamətləri, büdcə layihəsinin hazırlanması zamanı müvafiq işlərin həyata keçirilməsi haqqında məlumat, büdcə gəlirinin formalaşması mənbələri və xərclərin istiqamətləri haqqında əsas məlumatlar toplusu əks olunmuşdur.

2020-ci il Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik tarixinə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Ermənistan üzərində qazanılan parlaq hərbi-siyasi Qələbə və 30 ilə yaxın işğal altında olan əzəli Azərbaycan torpaqlarının tam azad edilməsi ili kimi həkk olunmuşdur.

2021-ci ilin dövlət büdcəsinin əsas xüsusiyyətlərindən biri də məhz erməni işğalçılarına qarşı zəfər qazandığımız Vətən müharibəsi nəticəsində işğaldan azad olunan ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi kimi şərəfli və məsuliyyətli vəzifələrin icrası üçün maliyyə təminatının yaradılmasıdır. **Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “tezliklə bütün Qarabağda abadlıq, quruculuq, inkişaf başlayacaq”**.

Eyni zamanda, Azərbaycan Ordusunun hərbi qüdrətinin daha da möhkəmləndirilməsi üçün də məqsədli vəsaitlər nəzərdə tutulub. 2021-ci ildə dövlətin milli təhlükəsizliyinin, müdafiə qabiliyyətinin və ordumuzun hərbi qüdrətinin daha da artırılması, texniki təminatının gücləndirilməsi ən ümdə prioritet kimi qəbul edilib.

Büdcə ilə bağlı əhalinin məlumatlı olması çox mühüm məsələlərdən biridir. Lakin, büdcə - olduqca mürəkkəb və xüsusi bilik tələb edən bir maliyyə sənədidir. Büdcənin strukturuna daxil olan bütün məlumatlar ilkin baxışda oxucular üçün maraqlı olmaya bilər.

Belə ki, büdcə sisteminə daxil olan büdcələrin tərtibi, onların gəlir və xərclərinin, kəsirinin strukturu, gəlirlərin formalaşma mənbələri, xərclərin istifadə istiqamətləri və kəsirinin maliyyəşdirmə mənbələri üzrə məlumatların təhlili xeyli vaxt tələb edir.

Bütövlükdə dövlət və icmal büdcələrinin gəlir və xərcləri barədə qısa və anlayışlı məlumatın əldə edilməsi, büdcənin mahiyyəti, onun parametrlərinin tərtibi və icrası prosesi ilə bağlı əhalinin maarifləndirilməsi, dövlətin büdcə siyasətinin daha sadə dildə açıqlanması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən hazırlanmış “Vətəndaşın büdcə bələdçisi” kitabı Sizin ixtiyarınıza verilir.

Ümidvarıq ki, hazırlanmış bu məlumat toplusu Sizə büdcə sahəsində bələdçilik edəcək, büdcəni daha asan və aydın şəkildə başa düşülməsində yardımçı olacaqdır.

Bununla yanaşı qeyd olunmalıdır ki, dövlət və icmal büdcələrin layihələrinin əhali ilə geniş ictimai müzakirələrin təmin edilməsi, onların bu müzakirələrdə yaxından iştirakının təşkili üçün 2021-ci il dövlət və icmal büdcələrinin layihələri üzrə göstəricilər Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

## 1. Büdcə nədir və özündə nəyi birləşdirir?

Büdcə dedikdə biz ilk növbədə-Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsi ilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədini gözümüzün önünə gətirməliyik.

- Sadə dildə desək büdcə nədir və özündə nəyi birləşdirir?

Büdcə, dövlət idarəetmə sisteminin tərkib hissəsi olmaqla ölkə əhalisinin maraqlarına toxunur, bilavasitə onlara xidmət edir.

Dövlət və bələdiyyə işçilərinin, həkim və xəstələrin, valideyn, şagird və tələbələrin, təqaüdçülərin, aztəminatlı ailələrin və müavinət alanların, sahibkarların, uşaq bağçalarında və körpələr evlərində uşaqların  və tərbiyəçilərin, işsiz insanların – bir sözlə ölkə vətəndaşlarının demək olar ki, hamısının büdcə ilə əlaqəsi vardır. Büdcə, həmçinin ölkə iqtisadiyyatının tənzimlənməsində mühüm rol oynamaqla, iqtisadiyyatda sabitliyin yaranmasına, əhalinin sosial rifah halının yaxşılaşmasına xidmət edir.

Büdcə müxtəlif vergilərin, rüsumların və digər ödənişlərin bir mənbədə toplanması və xərclənməsi barədə ölkənin bir il üçün əsas maliyyə sənədidir.

Biz bilməliyik ki, növbəti il üçün gəlir vergisi, əlavə dəyər vergisi, aksizlər, mənfəət vergisi və digər vergilər və daxilolmalar üzrə dövlət və icmal büdcələrə nə qədər məbləğdə vəsait daxil olacaqdır?

Daxil olacaq gəlirlər hesabına hansı dövlət vəzifələri, tədbirləri maliyyələşdiriləcək? Əhalinin sosial ödənclərinə, pensiya və müavinətlərinə, elmə, təhsilə, müdafiəyə, təhlükəsizliyə, mədəniyyətə, ətraf mühitin mühafizəsinə, kənd təsərrüfatına, infrastruktur və sosial təyinatlı obyektlərin (yol, körpü, su, qaz, kanalizasiya xəttləri, metro, məktəb, xəstəxana, idman mərkəzləri və s.) tikintisinə, ərzaq təhlükəsizliyinin təmin edilməsinə, sahibkarlığın, ipotekanın inkişafına, şəhər, rayon, qəsəbə və kəndlərin abadlaşdırılmasına və digər zəruri məsələlərin həllinə nə qədər vəsait sərf ediləcəkdir?

- Büdcə dövlətin iqtisadi inkişaf siyasətinin maliyyə açıqlamasıdır.

Qabaqcıl beynəlxalq təcrübədə büdcə tərtib olunarkən 3 əsas prinsip gözlənilməlidir:

1. Ümumi makroiqtisadi sabitliyin qorunması;
2. Xərclərin ayrı-ayrı sahələr, funksiyalar, təşkilatlar, proqramlar, fəaliyyətlər və layihələr üzrə bölgüsünün strateji inkişaf prioritetlərinə və məqsədlərinə uyğun şəkildə aparılması;
3. Ayrılmış xərclərin maksimum qənaətlə və yüksək səmərəliliklə həyata keçirilməsi.

Bu prinsiplərin hər biri ölkənin iqtisadi siyasətinin formalaşmasında mühüm rola malikdir.

Belə ki, xərc və gəlirlərin ümumi daxili məhsulda payının məqbul səviyyədə saxlanılması, qeyri-neft gəlirlərinin payının artırılması, kəsirsiz büdcənin formalaşması və ya  kəsir olacaqsa, onun inflyasiya yaratmayan mənbələr hesabına örtülməsi makroiqtisadi sabitlik üçün vacibdir. Digər tərəfdən, xərclərin bölgüsünün inkişaf məqsədləri ilə uzlaşdırılması gələcək iqtisadi siyasətin istiqamətlərini müəyyənləşdirir.  Nəhayət, xərclənən hər bir manatının müqabilində qarşıya qoyulan nəticənin əldə olunması, əlavə dəyərin yaradılması, itki və israfçılığın qarşısının alınması, xərclərin qənaət rejimində həyata keçirilməsi büdcənin iqtisadi səmərəliliyini artıran amillərdəndir.

- Büdcə, həm də dövlətin borclanması barədə məlumatdır.

Gəlirlər xərcdən az olduqda kəsir (defisit) yaranır. Bu zaman büdcə xərclərinin sabit ödənilməsi üçün borclanmaya getmək, müvafiq qaydada borc almaq, dövlət əmlakını özəlləşdirməklə əlavə gəlir əldə etmək qaçılmaz olur.

- Büdcə iqtisadiyyata təsir alətidir.

İqtisadiyyatın müxtəlif sahələrinə yardım kimi yönəldilən xərclər gələcəkdə yeni məhsulların istehsalı hesabına yeni dəyərlərin yaranmasına və bu hesaba əlavə gəlirlərin əldə edilməsinə nail olunur.

Dövlətin sosial və iqtisadi siyasətinin uğurla həyata keçirilməsi üçün vacib olan infrastrukturların, o cümlədən avtomobil yollarının, körpülərin, yeraltı və yerüstü keçidlərin, metro və dəmiyolu yollarının, tunellərin, su və istilik elektrik stansiyalarının, alternativ enerji qurğularının,

sosial infrastrukturlardan olan məktəb, uçaq bağçası, xəstəxana, poliklinika, mədəniyyət müəssisələrinin tikintisi, sahibkarlara güzəştli kreditlərin verilməsi, ipotekaya, lizinqə dəstək verilməsi kimi işlər ərazilərdə yeni-yeni istehsal müəssisələrinin yaradılmasına, yeni iş yerlərinin açılmasına, məhsul istehsalının artımına şərait yaradır. Bu da iqtisadiyyatın inkişafına təsir edir.

Bundan başqa, büdcə vasitəsilə ölkədə gəlirlərin yenidənbölgüsü baş verir, yəni yüksək gəlirləri olan əhali, həmçinin sahibkarlar və kommersiya fəaliyyəti ilə məşğul olan müəssisə və təşkilatlardan daxil olan vergilər, rüsumlar hesabına aztəminatlı əhaliyə, o cümlədən pensiyaçılara, müvəqqəti işsiz qalmış insanlara, tələbələrə, fiziki qüsuru və əlilliyi olan vətəndaşlara, məcburi köçkünlərə və gəlirləri aşağı olan digər əhali qruplarına müavinətlər, təqaüdlər və digər sosial yardımlar edilir, bu yolla ölkədə sosial ədalətin bərpa edilməsi və gəlir səviyyələri arasındakı bərabərsizliyin azalması təmin edilir.

- Büdcədən həm də iqtisadi alət kimi istifadə etmək olur. Məsələn, vergi dərəcələrini azaltmaqla (artırmaqla) sahibkarların xərclərini azaltmaq (artırmaq) olar ki, bu da nəticə etibarilə iqtisadi fəallığın artmasına (səngiməsinə) səbəb olur. Eyni zamanda, büdcə özü də iqtisadiyyatın təsirinə məruz qalır.

İqtisadiyyatda artım müşahidə olunduqda, müəssisələrin, sahibkarların, son nəticədə əhalinin daha çox gəlir əldə etməsinə şərait yaranır. Nəticədə büdcəyə ödənişlərin də həcmi artır.

Əksinə, iqtisadiyyatda durğunluq və ya azalma müşahidə olunduqda, adekvat olaraq büdcənin də gəlirlərində azalma müşahidə olunur, büdcə xərclərinin maksimum qənaət rejimində həyata keçirilməsi və xərc istiqamətlərinin optimallaşdırılması zərurəti meydana çıxır.

- Nəhayət, büdcə dövlətin maliyyə hesabatıdır.

Büdcə dövlətin pulları necə və hara xərcləməsi barədə məlumat verir.

2021-ci il dövlət büdcəsinin gəlirləri 25427,0 milyon manat təşkil edir. Bu vəsaitin 11651,0 milyon manatını bilavasitə əhalinin, qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisə və təşkilatların (hüquqi şəxslər) büdcəyə ödədikləri vergilər və rüsumlar, 13776,0 milyon manatını neft gəlirləri təşkil edir.

Dövlət büdcəsinin gəlirləri dövlətin funksiya və vəzifələrinin yerinə yetirilməsinə, əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə, bir sözlə dövlətin əhali qarşısında götürdüyü bütün öhdəliklərin maliyyə təminatını ödəmir, onda dövlət özünün ehtiyatlarını, o cümlədən neft gəlirlərinin bir hissəsini büdcəyə cəlb edir və müvafiq iqtisadi alətlərin tətbiqi hesabına borclanmaya gedərək vəsait əldə edib büdcə kəsirinin örtülməsinə yönəldir (2021-ci il üçün büdcə kəsirinin örtülməsi özəlləşdirmədən, daxili və xarici borclanma və 2021-ci il 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı) hesabına həyata keçiriləcəkdir).

Yuxarıda qeyd olunan bütün gəlirlər və büdcə kəsirinin maliyyələşdirməsi mənbələri hesabına 2021-ci il dövlət büdcəsinin xərcləri 27843,0 milyon manat təşkil edir. Dövlət büdcəsinin xərcləri hesabına dövlət əhaliyə müxtəlif formada ödənişlər və xidmətlər həyata keçirir.

Bu ödəniş və xidmətlər əsasən bir neçə istiqamətdə əhaliyə çatdırılır və ölkə iqtisadiyyatına yönəldilir.

- Birbaşa formada, müxtəlif sosial ödənişlər, yəni pensiyalar, aztəminatlı ailələrə müavinətlər, məcburi köçkünlərin məskunlaşması və normal yaşamaları üçün yaşayış evlərinin tikintisi üçün ayrılan investisiya xərcləri və müavinətlər formasında;

- Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərə əməyin ödənişi üçün verilən ödənişlər formasında;

- İqtisadiyyatın müxtəlif sahələrinə dövlət büdcəsindən subsidiya və subvensiya (sadə dildə desək maliyyə yardımı) şəklində yönəldilən maliyyə vəsaitlərinin müxtəlif formada, o cümlədən ipotekanın tətbiqi, əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etmələri üçün sosial mənzillərin tikintisi formasında əhaliyə çatdırılması;

- Başqa büdcələrə (Naxçıvan Muxtar Respublikasının büdcəsinə və bələdiyyə büdcələrinə əvəzsiz verilən vəsait) verilən dotasiya və subvensiya formasında;

- Digər formada – ehtiyat fondları vasitəsi ilə əvvəlcədən büdcədə nəzərdə tutulmayan dövlət tədbirlərinin, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması ilə bağlı vəsaitin ayrılması formalarda.

## 2. Azərbaycan Respublikasının büdcə sistemi

Dövlətin büdcə ilə bağlı funksiya və vasitələrinin yerinə yetirilməsi, müvafiq işlərin dövlət qurumları arasında bölgüsünün tənzimlənməsi üçün ölkə qanunvericiliyi ilə büdcə sistemi təsbit olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasına və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ölkəmizdə müxtəlif büdcələrin təsnifləşməsi təmin edilmişdir ki, bu da özündə büdcə sistemini birləşdirir.

Azərbaycan Respublikasında büdcə sisteminə Azərbaycan Respublikasının dövlət büdcəsi (bundan sonra - dövlət büdcəsi), Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələr daxildir.

Büdcə sistemi bu sistemə daxil olan büdcələrin vahid prinsiplər əsasında fəaliyyətinə və onların müstəqilliyinə əsaslanır.

Büdcə sisteminin vahidliyi tənzimləyici mədaxil mənbələrindən istifadə etmək, məqsədli büdcə fondları yaratmaq, maliyyə ehtiyatlarını müxtəlif səviyyəli büdcələr arasında bölüşdürmək vasitəsi ilə büdcələrin qarşılıqlı əlaqəsinə əsaslanır.

Büdcə sisteminin vahidliyi eyni büdcə təsnifatı, büdcə sənədləri və formalarından istifadə olunması, büdcələrin icrasına dair müntəzəm hesabatın və icmal büdcə hesabatının hazırlanması və qanunvericiliklə müəyyən olunmuş qaydada aidiyyəti üzrə təqdim edilməsi müxtəlif mətbuat vasitələri ilə ictimaiyyətə çatdırılması yolu ilə təmin edilir.

Büdcələrin müstəqilliyi mövcud qanunvericiliyə uyğun olaraq mədaxil mənbələrini və vahid büdcə təsnifatı çərçivəsində xərclərin istiqamətlərini müəyyənləşdirmək hüququnun olması ilə təmin edilir.

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədinə icmal büdcə deyilir.




## 2.1 Dövlət büdcəsinin strukturu

“Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq dövlət büdcəsinin strukturu aşağıdakı kimidir.

| Dövlət büdcəsi | | | | | |
|---|---|---|---|---|---|
| Gəlirlər | | Xərclər | | Fərq (Gəlirlər-Xərclər) | |
| Mərkəzləşdirilmiş gəlirlər | Yerli gəlirlər | Mərkəzləşdirilmiş xərclər | Yerli xərclər | Kəsir (defisit) (-) | Artıqlıq (profisit) (+) |

## 3. Büdcənin gəlirlərini formalaşdırmaq üçün pul vəsaiti haradan gəlir və hara gedir?

Büdcə gəlir və xərc hissəsindən ibarətdir. Büdcə gəlirləri xərclərdən artıq olduqda büdcə artıqlığı (profisit), büdcə xərcləri gəlirlərdən artıq olduqda büdcə kəsiri (defisit) yaranır.

Dövlət büdcəsinin tərtibi zamanı dövlət ilk növbədə öz funksiyalarını həyata keçirmək və qarşıya qoyulan məqsədlərə çatmaq üçün xərclərini, sonra isə öz gəlirlərini hesablayır.

Dövlət öz gəlirlərini və xərclərini tarazlaşdırmaq yolu ilə büdcəsini formalaşdırır. Yəni, onun nəzərdə tutduğu gəlirlər qarşıya qoyulmuş məsələlərin maliyyə təminatına imkan verirsə, onu təsdiq edir. Yox, əgər xərcləri gəlirləri üstələyərsə, onda bir sıra xərcləri ixtisar etməyə, hətta xərclərin müəyyən hissəsini növbəti illərə keçirməyə, bu da bəs etmədikdə xərclərinin gəlirlə örtülməyən hissəsinin, yəni kəsirinin bağlanması üçün maliyyəşdirmə mənbələri axtarmağa məcbur olur.

Büdcə layihələrinin hazırlanması zamanı əsas məsələlərdən biri də gəlir və xərclərin qruplaşdırılması, onların müqayisəsinin təmin edilməsidir. Azərbaycan Respublikasının büdcə sisteminə daxil olan büdcələr, habelə büdcədənkənar dövlət fondları üzrə maliyyə əməliyyatlarının müqayisəsini təmin edən büdcə gəlirlərinin və xərclərinin funksional, iqtisadi və inzibati təsnifatlarını özündə birləşdirən Azərbaycan Respublikasının vahid büdcə təsnifatıdır.

Vahid büdcə təsnifatına əsasən büdcə gəlirləri ı) vergilərdən daxilolmalar, ıı) sosial ayırmalar, ııı) qrantlar, ıv) digər gəlirlər bölmələrindən ibarətdir:




Büdcə xərcləri büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsaitdir.

Həyata keçirilən funksiyalara müvafiq olaraq büdcə xərclərinin qruplaşdırılmasına xərclərin funksional təsnifatı deyilir.

**Xərclərin funksional təsnifatı**

- Ümumi dövlət xidmətləri
- Müdafiə və milli təhlükəsizlik
- Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq
- Təhsil
- Səhiyyə
- Sosial müdafiə və sosial təminat
- Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət
- Mənzil və kommunal təsərrüfatı
- Kənd təsərrüfatı
- Ətraf mühitin mühafizəsi
- İqtisadi fəaliyyət
- Əsas bölmələrə aid edilməyən xidmətlər

Büdcə xərclərinin iqtisadi təsnifatı əvəzsiz və ya qaytarılmamaq şərti ilə büdcələr tərəfindən aparılan ödənişlərdən ibarətdir. Başqa sözlə desək bu ödənişlərin iqtisadi mahiyyətinə görə qruplaşdırılmasıdır.

**Xərclərin iqtisadi təsnifatı**

- Əməyin ödənişi
- Malların (işlərin və xidmətin) satınalınması
- Köhnəlmə
- Faizlər üzrə ödənişlər
- Subsidiyalar
- Qrantlar və digər ödənişlər
- Sosial ödənişlər
- Qeyri-maliyyə aktivləri
- Maliyyə aktivləri üzrə əməliyyatlar
- Öhdəliklər üzrə əməliyyatlar

İnzibatı təsnifat isə büdcədən maliyyələşən və ya maliyyə yardımı alan təşkilatların adlı siyahısından ibarətdir.

## 4. Dövlət və icmal büdcələrin layihəsinin tərtibi özündə hansı mərhələləri birləşdirir və hansı normativ- hüquqi sənədlərlə tənzimlənir

Məlum olduğu kimi Azərbaycan Respublikasında büdcə prosesi Azərbaycan Respublikasının Konstitusiyasi, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunu, Vergi Məcəlləsi, “Dövlət büdcəsinin tərtibi və icrası qaydaları”, “Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası” və digər normativ-hüquqi aktlar vasitəsi ilə tənzimlənir və onlara uyğun olaraq həyata keçirilir.

## Büdcə prosesini tənzimləyən əsas normativ-hüquqi sənədlər

Bu normativ-hüquqi aktlar toplusu büdcə prosesinin əsas prinsiplərini, dövlət və icmal büdcələrin tərtibi və icrası prosesində müvafiq icra hakimiyyəti orqanları, büdcənin tərtibi prosesində iştirak edən orqanlar, büdcədənkənar dövlət fondları, digər təşkilatlar arasında qarşılıqlı münasibətlərin əsas istiqamətlərini özündə birləşdirir.



Ümumiyyətlə götürdükdə, büdcə prosesi beş mərhələni özündə birləşdirir:




Dövlət büdcəsinin layihəsinin tərtibi prosesi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun 11-ci maddəsinə uyğun olaraq həyata keçirilir.

Hər il yanvar ayının 3-cü ongünlüyündə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı və ya sərəncamı ilə növbəti il və sonrakı üç il üçün dövlət büdcəsinin layihəsinin tərtibi prosesinə başlanılır. Bu sənəddə dövlət büdcəsinin layihəsinin tərtibi prosesində iştirak edən aidiyyəti orqanlara, o cümlədən Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə, rayon (şəhər) icra hakimiyyəti orqanlarına və digər dövlət orqanlarına müvafiq tapşırıqlar verilir.

Bundan sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozlarını dəqiqləşdirir. Bu proqnozların əsasında Azərbaycan Respublikasının Maliyyə Nazirliyi növbəti il və sonrakı üç il üçün dövlət və icmal büdcələrin ilkin ortamüddətli proqnozunu tərtib edir.

Hazırlanmış sənədlər öz səlahiyyətlərinə uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən növbəti il üzrə dövlət büdcəsinin layihəsi və sonrakı üç il üçün icmal büdcə göstəricilərinin tərtibinə dair təlimat məktubu hazırlanır və may ayının 1-nə kimi büdcənin tərtibi prosesində iştirak edən təşkilatlara göndərilir. Bu təlimat məktubunda aidiyyəti məlumatlarla yanaşı, təşkilatlar və hər bölmə üzrə xərclərin yuxarı həddinə, cari xərclərə dair təsdiq olunmuş normalara, formalara, ətraflı büdcə təklifinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edilməsi üçün yardımçı sənədlər daxil olmaqla gəlirlərin və xərclərin təhlilinə (qiymətləndirilməsinə) dair məlumatlar da yer tapır.

Dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən orqanlar və Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlar təlimat məktubuna uyğun olaraq hazırlanmış büdcə layihəsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edirlər.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən cari ilin altı ayının faktiki nəticələri nəzərə alınmaqla növbəti il üzrə və ortamüddətli makroiqtisadi göstəricilər, habelə sosial, iqtisadi və investisiya proqramları dəqiqləşdirilir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi makroiqtisadi göstəricilərin dəqiqləşdirilmiş proqnozuna və hazırlanmış proqramlara əsasən dövlət büdcəsinin layihəsində gəlirləri və xərcləri

yenidən hesablayır. Dəqiqləşdirilmiş göstəricilər dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarla razılaşdırılır və müvafiq qaydada rəsmləşdirilir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Hesablama Palatasına təqdim edilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti öz növbəsində növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən digər sənədləri Azərbaycan Respublikasının Prezidentinə təqdim edir.

Növbəti büdcə ili üzrə dövlət büdcəsi haqqında qanun layihəsi əlavə edilmiş digər sənədlərlə birlikdə (büdcə zərfi) cari il oktyabr ayının 15-dən gec olmayaraq Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinin müzakirəsinə təqdim edilir. Lakin məlum olduğu kimi, cari ilin 27 sentyabr tarixindən başlayan Vətən müharibəsi və ölkəmizdə elan olunmuş hərbi vəziyyətlə əlaqədar Azərbaycan Respublikasının 2021-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinin müzakirəsində gecikmə yaranmışdır. İşğaldan azad olunmuş bütün ərazilərimizdə infrastrukturların əsaslı şəkildə yenidən qurulması, sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat və digər sahələrdə tədbirlərin davam etdirilməsi, öz doğma torpaqlarına geri dönəcək vətəndaşlarımızın yaşayış və sosial-iqtisadi, işgüzar fəaliyyətləri üçün dayanıqlı imkanların yaradılması sözsüz ki, yeni maliyyə təminatları deməkdir. Bu səbəbdən hazırlanmış 2021-ci ilin dövlət büdcəsi layihəsində müvafiq düzəlişlərin edilməsi zərurəti yaranmışdır. Aidiyəti dövlət qurumlarının koordinasiyalı və operativ fəaliyyəti sayəsində büdcə qarşısında yaranmş yeni çağrışların qarşılanması ilə bağlı xərclər dövlətimizin ənənəvi vəzifələrinin icrası ilə bağlı xərclərlə uzlaşdırılmaqla 2021-ci il dövlət büdcəsi layihəsində əks olunmuşdur. Azərbaycan Respublikası Milli Məclisinin sıx iş qrafiki şəraitində 2021-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri parlamentin komitələrində və plenar iclaslarda müzakirə edilərək qəbul olunmuş, daha sonra isə Azərbaycan Respublikası Prezidenti tərəfindən imzalanaraq qüvvəyə minmişdir.

Təsdiq olunmuş dövlət büdcəsinin göstəriciləri, gəlir və xərclərin bölgüsü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən bir ay müddətinə büdcə və büdcədən maliyyə yardımı alan təşkilatlara çatdırılır.

## 5. 2021-ci il üçün dövlət büdcəsinin zərfi haqqında icmal məlumat

2021-ci il üçün büdcə zərfi, Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycan Respublikası Milli Məclisinə təqdim olunan sənədlər toplusudur. Bu zərf aşağıdakı sənədləri özündə birləşdirmişdir:

- "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi və Qanun layihəsinə dair izahat;
- Azərbaycan Respublikasının 2021-ci il və növbəti üç il üçün iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri;
- Azərbaycan Respublikasının 2021-ci il üçün büdcə-vergi siyasətinin əsas istiqamətləri;
- Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin gəlir və xərclərinin funksional, iqtisadi və inzibati təsnifatların paraqrafları səviyyəsində layihəsi;
- 2020-ci ilin 1 iyul tarixinə Azərbaycan Respublikasının dövlət borcları və dövlət zəmanəti ilə digər öhdəliklərinə dair məlumat;
- Azərbaycan Respublikasının 2021-ci il icmal büdcəsinin funksional və iqtisadi təsnifatlara uyğun olaraq paraqraflar səviyyəsində layihəsi;
- 2021–2024-cü illər üçün dövlət investisiya proqramının əsas istiqamətləri;
- 2021–2024-cü illər üçün Azərbaycan Respublikasının ərazisi üzrə toplu maliyyə balansı;
- Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi gəlirlərinin və xərclərinin 2019-cu il dövlət büdcəsinin faktiki icrası və 2020-ci il dövlət büdcəsinin gözlənilən nəticələri ilə (gəlirlərin

təsnifatı üzrə, xərclərin funksional, iqtisadi və inzibati təsnifatlarının paraqrafları səviyyəsində) müqayisəsi;

- Azərbaycan Respublikasının 2020-ci il icmal büdcəsinin gözlənilən icrasına dair məlumat;
- Azərbaycan Respublikasının 2019-2020-ci illər üzrə dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar əməliyyatlarına dair icmal hesabat;
- Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi kəsirinin faktiki və 2020-ci ildə gözlənilən maliyyələşdirilmə mənbələri barədə hesabat;
- 2020-ci ilin ilk doqquz ayında Azərbaycan Respublikasının dövlət büdcəsinin icrasına dair arayış;
- Azərbaycan Respublikasının 2021-ci il və növbəti üç il üçün dövlət büdcəsinin layihəsi üzrə gəlir və xərclərin funksional təsnifat səviyyəsində göstəriciləri və kəsiri;
- Azərbaycan Respublikasının 2021-ci il və növbəti üç il üçün icmal büdcəsinin layihəsi;
- “Dövlət sosial müdafiə fondunun 2021-ci il büdcəsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi və qanun layihəsinə dair izahat;
- “İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi və qanun layihəsinə dair izahat;
- “Azərbaycan Respublikasında 2021-ci il üçün yaşayış minimumu haqqında” Azərbaycan Respublikası qanununun layihəsi;
- “Azərbaycan Respublikasında 2021-ci il üçün ehtiyac meyarının həddi haqqında” Azərbaycan Respublikası qanununun layihəsi;
- “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi;
- “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi;
- “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi;
- “Sosial müavinətlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası qanununun layihəsi.

## 6. 2020-ci ilin sonuna gözləntilər və 2021-ci il üçün makroiqtisadi proqnozlar

Azərbaycan iqtisadiyyatı 2017-ci ilin sonlarından etibarən post-neft dövrünün çağırışlarına uyğun olaraq əhəmiyyətli transformasiya mərhələsinə qədəm qoymuşdur. 2016-cı ildə təsdiq edilmiş Strateji Yol xəritələrinin icrası istiqamətində görülmüş tədbirlərin nəticəsində ÜDM-in illik artım tempində 2015-2016-cı illərdə müşahidə olunan azalma dinamikası 2017-ci ildən başlayaraq artımla əvəz olunmuş və bu artım tendensiyası 2020-ci ilin birinci rübünədək davam etmişdir.



Belə ki, 2019-cu ildə ölkədə 81,7 milyard manat həcmində və ya 2018-ci illə müqayisədə 2,2 faiz çox ÜDM istehsal edilmişdir. İqtisadiyyatın qeyri-neft sektorunda istehsal olunmuş əlavə dəyər 3,5 faiz, neft-qaz sektorunda isə 0,4 faiz artmışdır.

2019-cu ildə ölkəmizin sosial-iqtisadi inkişafında əldə edilən nəticələr, makroiqtisadi sabitlik, aşağı səviyyəli inflyasiya və sabit milli valyuta şəraitində iqtisadi artımın sürətlənməsi və büdcə gəlirlərinin artması 2020-ci ilin ilk iki ayında müsbət meyillərin davam etməsini şərtləndirmişdir. Qeyd olunan aylarda əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ÜDM 2,8 faiz, qeyri-neft ÜDM isə 6,7 faiz artmışdır.

2020-ci ilin əvvəlindən başlayaraq dünyada yeni növ koronavirus (COVID-19) pandemiyasının sürətlə yayılması qlobal logistika və təchizat zəncirində qırılmaların artmasına, iqtisadi fəallığın zəifləməsinə və qlobal məcmu tələbin daralmasına səbəb olmuşdur ki, bu da öz növbəsində mart ayından başlayaraq neftin qiymətinin kəskin aşağı düşməsini şərtləndirmişdir.

Qlobal enerji qiymətlərində müşahidə edilən dalğalanmalar nəticəsində "Brent" markalı xam neftin bir barelinin dünya bazarlarında satış qiyməti 2020-ci ilin yanvar-noyabr ayında orta hesabla 41,0 ABŞ dolları səviyyəsində qərarlaşmışdır ki, bu da ilin əvvəli ilə müqayisədə 35,6 faiz azdır. İl ərzində neftin ən aşağı qiymət səviyyəsi isə cari ilin aprel ayında qeydə alınmışdır. Lakin OPEC və qeyri-OPEC ölkələri arasında neft hasilatının mərhələlərlə azaldılması barədə razılığın əldə olunması və dünya iqtsadiyyatında iqtisadi aktivliyin nisbətən bərpa edilməsi sayəsində cari ilin may ayından etibarən enerji bazarında qiymətlər stabilləşməyə başlamışdır (Qrafik 1).

**Qrafik 1. 2019-2020-ci illərdə "Brent" markalı neftin 1 barelinin orta aylıq satış qiyməti (ABŞ dolları)**




*Mənbə: ABŞ Enerji İnformasiya Administrasiyası*

Dünyanın aparıcı maliyyə təşkilatları və neft qiymətlərinin proqnozlaşdırılması üzrə ixtisaslaşmış agentliklər cari il üçün "Brent" markalı neftin 1 barelinin orta qiymətinin 40 ABŞ dolları civarında olacağını və ən azı növbəti bir ildə də neftin qiymətlərində kəskin artımın olmayacağını proqnozlaşdırırlar. Bütövlükdə, dünya iqtisadiyyatının inkişaf istiqamətləri, xüsusən də alternativ enerji resurslarından istifadənin genişlənməsi və karbohidrogen resurslarına tələbatın getdikcə azalması orta və uzun müddətli dövrdə neft və qaz qiymətlərində əhəmiyyətli artımların olmayacağına dair gözləntilər formalaşdırır.

Bundan əlavə, COVID-19 pandemiyası əksər ölkələrdə səhiyyə və sosial xərclərin artması ilə büdcə kəsirinin təsiredici həcmlərdə artmasına

səbəb olmuşdur. Beynəlxalq Valyuta Fondu (BVF) və digər beynəlxalq maliyyə institutlarının məlumatlarına əsasən cari ildən etibarən dünya ölkələrinin bir çoxu artan büdcə kəsirlərini dövlət borcu hesabına maliyyələşdirir ki, sözügedən tendensiyanın 2021-ci ildə də davam edəcəyi istisna edilmir.

BVF dünya iqtisadiyyatı ilə bağlı proqnozlarını oktyabr ayında yeniləyərək 2020-ci ildə qlobal iqtisadiyyatın 4,4 faiz azalacağını proqnozlaşdırmışdır.

COVID-19 böhranı və aşağı neft qiymətləri fonunda dünya iqtisadiyyatında gedən neqativ proseslər bütövlükdə Azərbaycan iqtisadiyyatı üçün də mənfi təsirlərə malik çağırışlarla səciyyələnən xarici mühit formalaşdırmışdır.

Pandemiyanın iqtisadiyyata mümkün mənfi təsirlərinin azaldılması, əhalinin sosial rifahının qorunması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi üçün dövlət tərəfindən həyata keçirilən tədbirlərlə ölkə iqtisadiyyatının tənəzzül fazasına daxil olmasının qarşısının alınması mümkün olmasa da, onun daha kəskin enişinin qarşısı alınmışdır.




Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin proqnozuna əsasən 2020-ci ildə ÜDM-in real ifadədə 4,0 faiz azalaraq 71,8 milyard manat, qeyri-neft ÜDM-in isə 2,9 faiz azalaraq 50,5 milyard manat olacağı gözlənilir. İqtisadiyyat Nazirliyi tərəfindən 2021-ci ildə iqtisadi artım tempinin bərpa ediləcəyi və ÜDM-in real ifadədə 3,4 faiz artaraq 75,8 milyard manata çatacağı proqnozlaşdırılır (Qrafik 2).

İqtisadi artımın əsas hərəkətverici qüvvəsinin neft sektorundan qeyri-neft sektoruna transformasiyası sayəsində 2021-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payının 70,5 faizə, neft sektorunun payının isə 29,5 faizə bərabər olacağı proqnozlaşdırılır (Qrafik 2).

**Qrafik 2. 2017-2021-ci illər üzrə ÜDM-in strukturu (milyard manatla) və sektorlar üzrə illik real artım tempi (əvvəlki ilə nisbətən faizlə)**




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi*

2020-ci ilin yanvar-noyabr aylarında kənd təsərrüfatında 2,0 faiz, nəqliyyat və anbar təsərrüfatında 3,7 faiz və informasiya-rabitə sektorunda isə 1,6 faiz artımın qeydə alınmasına baxmayaraq, iqtisadiyyatın digər sektorlarında azalma qeydə alınmışdır. Belə ki, cari ilin mart ayından başlayaraq ölkəmizdə COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə tətbiq edilən xüsusi karantin rejimi və sosial təcrid tədbirləri ölkədə işgüzar fəallığın zəifləməsinə səbəb olmuş və iqtisadiyyatın bir çox sahələrində gerilələmələrə gətirib çıxarmışdır.

Ötən ildə olduğu kimi, məzənnə dayanıqlığının təmin olunmasına və inflyasiyanın təkrəqəmli səviyyədə saxlanılmasına nail olunmuşdur. Belə ki, 2020-ci ilin yanvar-noyabr ayları ərzində manatın ABŞ dollarına nisbətdə məzənnəsi 1,7 manat təşkil etmişdir. Eyni zamanda, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən orta illik inflyasiyanın cari ilin sonunda 2,8 faiz, 2021-ci ildə isə 3,0 faiz səviyyəsində olacağı proqnozlaşdırılır (Qrafik 3).

**Qrafik 3. 2014-2021-ci illər üzrə orta illik inflyasiya səviyyəsi (faizlə)**




*Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi*




2020-ci ilin yanvar-noyabr aylarında əsas kapitala 12716,6 milyon manat məbləğində (2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 4,0 faiz az) vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 8,4 faiz artmış, qeyri-neft-qaz sektoruna yönəldilmiş vəsaitin həcmi isə 11,0 faiz azalmışdır. Maliyyə mənbələrinin strukturunda daxili mənbələrin həcmi 8130,5 milyon manat olmaqla 63,9 faizə bərabər olmuşdur.

Mövcud iqtisadi şərait daxilində cari ilin 30 noyabr tarixinə olan məlumata əsasən Mərkəzi Bankın valyuta ehtiyatları ilin əvvəli ilə müqayisədə təxminən 2,46 faiz artaraq 6,4 milyard ABŞ dollarına, Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) aktivləri isə ilin əvvəli ilə müqayisədə 0,7 faiz azalaraq 43,0 milyard ABŞ dollarına bərabər olmuşdur. 2021-ci il üzrə cari əməliyyatlar balansında ÜDM-in 0,2 faizi səviyyəsində və ya təqribən 104,8 milyon ABŞ dolları

həcmində profisit proqnozlaşdırılır. Növbəti illərdə cari əməliyyatlar balansının profisitinin getdikcə artması gözlənilir ki, bu da öz növbəsində valyuta bazarında sabitliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

# 7. Büdcə-vergi siyasətinin əsas istiqamətləri

## 7.1. Mövcud makro-fiskal çağırışlar

Neft və neft məhsullarının qiymətlərinin əhəmiyyətli dərəcədə enməsi, ticarət dövriyyəsinin azalması ölkənin gəlirlərinə olduqca mənfi təsir göstərmiş və tədiyyə balansını pisləşdirmişdir.

Cari ilin aprel ayında OPEC+ sazişi üzrə götürülmüş öhdəliyə əsasən neft hasilatının azaldılması, habelə ölkədaxili neft məhsullarına olan tələbin azalması, ümumilikdə, cari ildə **neft gəlirlərinin azalması**nı şərtləndirmişdir.

Eyni zamanda, pandemiyanın təsirlərinin aradan qaldırılması məqsədilə həyata keçirilən sosial təcrid və karantin tədbirləri nəticəsində turizm və ticarət kimi bir sıra sektorlarda müşahidə olunan geriləmə və investisiya fəaliyyətinin daralması qeyri-neft gəlirlərinin də azalmasına gətirib çıxarmışdır.



Beləliklə, neft və qeyri-neft gəlirlərinin azalması və digər maliyyələşmə mənbələrinin daralması dövlət büdcəsinin icrasında ahəngdarlığın, habelə onun **gəlirləri və xərcləri arasında tarazlığın pozulması** təhlükəsini yaratmışdır.

Pandemiyanın diktə etdiyi keyfiyyətcə yeni sosial və iqtisadi davranış mühitinin xüsusiyyətləri, səhiyyə sahəsinin artan ehtiyacları, əhalinin həssas sosial qruplarına, dövlət şirkətlərinə, sahibkarlıq subyektlərinə, kiçik və orta biznesə dövlət dəstəyinin göstərilməsinin davam etdirilməsi, ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması və digər dövlət ehtiyaclarının təmin edilməsi **dövlət büdcəsinin xərclərinin artırılması** ilə bağlı yeni çağırışlar formalaşdırmışdır.

Makroiqtisadi sabitliyin və fiskal dayanıqlılığın qorunub saxlanılması, habelə ölkə iqtisadiyyatının fövqəladə hallara hazırlığının təmin edilməsi cari ilin ötən dövrü ərzində də dövlətin əsas prioritet istiqamətlərindən olmuş və pandemiyanın iqtisadiyyata mümkün mənfi təsirlərinin azaldılması, əhalinin sosial rifahının qorunması və iqtisadi inkişafın davamlılığının təmin edilməsi üçün dövlət tərəfindən **dəstək tədbirlərinin həyata keçirilməsi** qərara alınmışdır.

"Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamına əsasən, 2020-ci il ərzində yaranmış problemlərin həll olunması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə 1,0 milyard manat məbləğində vəsait ayrılmışdır. Dövlət büdcəsi, dövlət fondları və digər mənbələrdən maliyyə resursları səfərbər edilərək **ümumi dəstək paketi 3,5 milyard manat** məbləğində nəzərdə tutulmuş və ümumilikdə 3,0 milyon nəfərə yaxın vətəndaşı əhatə etməsinə hesablanmışdır.

Görülən tədbirlərlə ölkə iqtisadiyyatının tənəzzül fazasına daxil olmasının qarşısının alınması mümkün olmasa da, onun daha kəskin enişinin qarşısı alınmışdır.

2020-ci ildə dövlət büdcəsinin azalan gəlirləri və artan xərclərinin tarazlaşdırılması üçün 2,3 milyard manat məbləğində maliyyə təminatının formalaşdırılmasına ehtiyac yaranmışdır. Dövlət büdcəsi qarşısında yeni çağırışların qarşılanması, büdcənin gəlir və xərcləri arasında tarazlığın bərqərar olunması üçün büdcə qaydasının tətbiqini müvəqqəti dayandırmaqla, artan xərclərin maliyyələşdirilməsini təmin edən gəlir mənbələrini müəyyən edərək cari ildə kontr-tsiklik büdcə siyasətinin həyata keçirilməsi və bununla əlaqədar "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə müvafiq olaraq dövlət büdcəsinə və icmal büdcəyə yenidən baxılmaqla dəyişikliklərin edilməsi qərara alınmışdır.



Müvafiq olaraq "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 7 avqust tarixli 159-VIQD nömrəli Qanununa əsasən **büdcə qaydasının tətbiqi 2022-ci il 1 yanvar tarixinə qədər dayandırılmış** və **cari ilin dövlət büdcəsində dəyişikliklər edilmişdir**. Dəyişikliklər (dürüstləşmə) Dövlət Neft Fondundan dövlət büdcəsinə edilən transfertin həcmini 850 milyon manat məbləğində artırır, bir sıra büdcə göstəricilərini dəyişir, bununla yanaşı **2020-ci il üçün proqnozlaşdırılan büdcə xərclərinin bir qismini optimallaşdırır.**

2020-ci ilin 27 sentyabr tarixində düşmən təxribatlarına cavab olaraq işğalçı Ermənistana qarşı başlanılan və 44 gün davam edən **Vətən müharibəsi** nəticəsində düşmən işğalındakı torpaqlar azad edilmiş və ölkəmizin ərazi bütövlüyü təmin edilmişdir. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması, vətəndaşlarımızın doğma torpağa qayıdışına, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələrinin hazırlanması, sənaye və kənd təsərrüfatı müəssisələrinin, sosial təyinatlı obyektlərin inşası, habelə əhalinin mənzil-məişət məsələlərinin həlli ilə bağlı müvafiq təkliflər hazırlanır. Artıq bir sıra yaşayış məntəqələrində bu sahələrdə zəruri işlərin həyata keçirilməsinə başlanılmış və ilk vəsait 2020-ci ilin dövlət büdcəsindən ayrılmışdır. Bərpa və yenidənqurma işləri növbəti illərdə daha geniş vüsət alacaqdır.



## 7.2. Büdcə-vergi siyasətinin əsas istiqamətləri və ortamüddətli dövr üçün fiskal hədəflər

Pandemiya fonunda dünya iqtisadiyyatında davam edən qeyri-müəyyənliklər, eləcə də dəyişkən neft qiymətləri nəzərə alınaraq ortamüddətli dövr ərzində büdcə siyasəti və fiskal çərçivə məhz yeni qlobal çağırışlara və iqtisadi reallıqlara uyğun formalaşdırılmış, bu əsasda, ortamüddətli dövr üçün icmal və dövlət büdcəsinin gəlirləri hesablanarkən **neftin bir barelinin qiyməti 40 ABŞ dollarına** bərabər götürülmüşdür.

2021-ci ildə **büdcə-vergi siyasətinin aşağıdakı əsas istiqamətlərdə həyata keçirilməsi** nəzərdə tutulur:

1. **Büdcənin gəlir və xərcləri arasında tarazlığın bərqərar edilməsi** və zəruri xərclərin örtülməsi üçün Dövlət Neft Fondundan götürülən transfertin illik həcmi həmin dövrdə büdcə və

makroiqtisadi dayanıqlılığı təmin etməlidir. Bu əsasda, ölkə iqtisadiyyatının bərpası və gələcək inkişafının təmin edilməsi üçün 2021-ci ildə Dövlət Neft Fondundan transfertin məbləği 2020-ci ilin dürüstləşmiş büdcəsində olan səviyyədə olmaqla 12,2 milyard manat səviyyəsində qərarlaşacaqdır. Eyni zamanda, büdcə gəlirlərinin və xərclərinin ahəngdarlığının təmin edilməsi məqsədilə büdcə qaydası təkmilləşdiriləcək və onun növbəti illərdə tətbiq edilməsi məsələsinə baxılacaqdır.

2. Ölkənin neft ehtiyatlarının təbii tükənməsi, habelə dünya iqtisadiyyatının ənənəvi karbohidrogen resurslardan asılılığının azalması, eləcə də “yaşıl” iqtisadiyyat təşəbbüslərinin geniş vüsət alması səbəbindən neft gəlirlərinin və valyuta daxilolmalarının tədricən azalması gözləniləndir. Belə olan şəraitdə, Dövlət Neft Fondunun aktivlərinin ölkənin iqtisadi təhlükəsizliyini təmin edən səviyyədə qorunması məqsədilə 2022-ci ildən başlayaraq **dövlət büdcəsinə transfertlərin həcminin mərhələlərlə qeyri-neft sektorundan əldə ediləcək gəlirlər hesabına əvəzlənməsi həyata keçiriləcək**. Həmçinin, qeyri-neft ÜDM-in artımına dair proqnozlar nəzərə alınmaqla **icmal büdcənin qeyri-neft baza kəsirinin ortamüddətli dövr ərzində tədricən azaldılması hədəflənir**.

3. COVID-19 böhranı və azalan neft gəlirləri dövründə dünyanın əksər ölkələrində olduğu kimi, artan büdcə xərclərinin maliyyələşdirilməsinin təmin edilməsi üçün borclanmadan daha aktiv istifadə edilməsi nəzərdə tutulur. Bunun üçün, ortamüddətli dövr ərzində xarici borc üzrə əsas (ana) borc ödənişlərinin bir qisminin yenidən maliyyələşdirilməsi və bunun nəticəsində sərbəstləşən vəsaitin prioritet hesab olunan xərclərin maliyyələşdirilməsinə yönəldilməsi planlaşdırılır. Ortamüddətli dövrdə borclanma siyasətinə həssaslıqla yanaşılması, **dövlət borcunun idarə olunan səviyyədə saxlanılması**, eləcə də xarici dövlət borcunun məzənnə və faiz dərəcəsi risklərinin mümkün qədər minimum səviyyələrə endirilməsi **borclanma siyasətinin əsas hədəfləri** olaraq müəyyənləşdirilmişdir.



4. **İşğaldan azad edilmiş yaşayış məntəqələrinin bərpası və vətəndaşlarımızın doğma torpağa qayıdışı ilə bağlı proqram və layihələrin həyata keçirilməsi** üçün məqsədli maliyyə təminatının yaradılması və müvafiq maliyyələşmə mexanizminin tətbiqi, həmin ərazilərdə iqtisadi fəallığın artırılması üçün stimullaşdırma tədbirlərinin (vergi və digər güzəştlər, dövlət-özəl sektor tərəfdaşlığı və s.) həyata keçirilməsi, həmçinin də şəhid ailələrinin və müharibə əlillərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilmiş güzəşt və imtiyazların verilməsi nəzərdə tutulur.

5. Dövlət maliyyəsinin idarə olunmasının təkmilləşdirilməsi sahəsində islahatların davamı olaraq dövlət xərclərinin səmərəliliyinin və ünvanlılığının artırılması məqsədilə **nəticəəsaslı büdcə tərtibi mexanizminə keçid** prosesi davam etdiriləcək. 2021-2024-cü illər üçün büdcə xərclərinin funksional təsnifatının “Təhsil”, “Kənd təsərrüfatı” və “Ətraf mühitin mühafizəsi” pilot bölmələrinin sektor strateji planları və həmin planlara uyğun olaraq Xərclər Çərçivəsi hazırlanmışdır. Pilot bölmələrin büdcələri ilk dəfə olaraq proqram/tədbir əsasında formalaşdırılmış və sektor strateji planlarda müəyyən edilmiş hədəflərə nail olmaq, habelə dövlət vəsaitlərinin istifadəsinin səmərəliliyinin ölçülməsini təmin etmək məqsədilə monitorinq və icra indikatorları tətbiq edilmişdir.

Azərbaycanın da digər ölkələr kimi, iqlim dəyişikliyinin neqativ təsirlərinə məruz qaldığını nəzərə alaraq “Yaşıl iqtisadiyyat” təşəbbüslərinin dəstəklənməsi çərçivəsində iqlim dəyişikliyinin neqativ təsirlərinin yumşaldılması (mitiqasiya) və adaptasiya tədbirlərinə maliyyə resurslarının

mobilizasiyası üçün iqlim dəyişikliyi ilə əlaqəli maliyyələşdirmənin büdcə prosesinə və OMXÇ-yə inteqrasiyası, eyni zamanda, İqlim Dəyişiklikləri ilə bağlı Büdcə Xərclərinin Müəyyən Edilməsi (Climate Budget Tagging) mexanizminin tətbiqi istiqamətində işlər davam etdirilir. Bu, iqlim dəyişikliyinə ayrılan xərclərin büdcədə əks etdirilməsinə, təhlilinə, monitorinq və qiymətləndirilməsinə imkan yaradacaqdır. Həmçinin iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin maliyyələşdirilməsinə dövlət büdcəsi ilə yanaşı, "Yaşıl İqlim Fondu" (Green Climate Fund), "Qlobal Ekoloji Fond" (Global Environment Facility) kimi çoxtərəfli fondlardan da maliyyə resurslarının cəlb olunması təşviq ediləcəkdir.



Eyni zamanda, ortamüddətli dövr ərzində dövlət maliyyə resurslarının planlaşdırılması və bölüşdürülməsi prosesi vasitəsilə gender bərabərliyi ilə bağlı hədəflərə nail olunmasına daha çox töhfə vermək məqsədilə genderə həssas büdcənin tətbiqi və gender ölçülərinin büdcə prosesinin bütün mərhələlərinə (büdcə təlimatlarının büdcə təşkilatlarına göndərilməsi, büdcə layihəsinin tərtibi, büdcənin icrası və hesabatların hazırlanması) inteqrasiya edilməsi nəzərdə tutulur.

6. Ölkə iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin gücləndirilməsi, daha dayanıqlı və inklüziv iqtisadi artım mənbələrinin yaradılması, qeyri-neft ixracının stimullaşdırılması, iqtisadiyyatın liberallaşdırmasının genişləndirilməsi, investisiya mühitinin yaxşılaşdırılması üçün daha təsiredici addımların atılması, dövlət əmlakının özəlləşdirilməsinin və aktivlərinin satışının sürətləndirilməsi, dövlət müəssisələrində mütərəqqi korporativ idarəetmə üsullarının tətbiq edilməsi yolu ilə fəaliyyətlərinin səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlər büdcə siyasəti çərçivəsində dəstəklənəcəkdir. Bu istiqamətdə aparılan struktur islahatları çərçivəsində Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli Fərmanı ilə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin vahid prinsiplər əsasında idarə olunması, onların fəaliyyətinin təkmilləşdirilməsi, o cümlədən həyata keçirdikləri investisiya proqramlarının şəffaflığının və iqtisadi səmərəsinin yüksəldilməsi, rəqabət qabiliyyətinin artırılması, maliyyə sağlamlığının və dayanıqlılığının yaxşılaşdırılması məqsədilə "Azərbaycan İnvestisiya Holdinqi" publik hüquqi şəxs yaradılmışdır.

## 7.2.1. Gəlirlər

Cari ildə pandemiya səbəbindən iqtisadi fəallığın zəifləməsi, ticarət dövriyyəsinin azalması, məcmu tələbin daralması ölkə iqtisadiyyatının inkişafına mənfi təsir göstərmişdir. Eyni zamanda, dünyanın digər ölkələrində olduğu kimi, turizm, nəqliyyat və xidmət sferası ilə əlaqəli olan digər sektorlarda iqtisadi durğunluq və geriləmə müşahidə olunmuşdur.

Bu əsasda cari ildə dəstək tədbirləri çərçivəsində pandemiyadan zərər çəkən sahibkarlıq subyektlərinin iqtisadi fəallığının bərpa olunmasının təşviqi məqsədilə vergi stimullaşdırma tədbirlərinin (o cümlədən mikro sahibkarlıq subyektlərinə sadələşdirilmiş vergi üzrə müddətli güzəştin verilməsi, əmlak və torpaq vergisindən müddətli azadolmaların verilməsi, mənfəət (gəlir) vergisi və sadələşdirilmiş vergi üzrə müddətli güzəştlərin verilməsi, sosial sığorta yükünün azaldılması, əhalinin ərzaq və tibbi ehtiyacları üçün zəruri olan bəzi məhsul növlərinin idxalının ƏDV-dən müddətli azad edilməsi, icarə haqqından tutulan vergilər üzrə güzəştin verilməsi) həyata keçirilməsi barədə qərarlar qəbul edilmişdir.

Gəlir siyasətinin əsas istiqaməti dövlət büdcəsinin qeyri-neft gəlirlərinin artırılmasının təmin edilməsi olacaqdır. Ölkədə həyata keçirilən islahatlar, o cümlədən kölgə iqtisadiyyatının, qeyri-rəsmi məşğulluğun səviyyəsinin azaldılması və şəffaflığın artırılması istiqamətində görülən tədbirlər, idxal əməliyyatlarına nəzarət tədirlərinin gücləndirilməsi kimi amillər qeyri-neft sektorunun dinamik inkişafına müsbət təsir göstərməklə ortamüddətli dövr ərzində büdcə gəlirlərinin formalaşmasının əsas hərəkətverici qüvvəsini təşkil edəcəkdir.



Bu əsasda qeyri-neft sektorunda fəaliyyət göstərən ödəyicilərin neft sektorunda baş verən şoklardan asılılığının minimuma endirilməsi, qeyri-neft ixracının coğrafiyasının və nomenklaturasının genişlənməsi, büdcənin qeyri-neft gəlirlərinin artırılması ortamüddətli dövr ərzində gəlir siyasətinin təmin edilməsi üçün mühüm hədəf göstəriciləri kimi qəbul olunacaqdır.

Təsərrüfat subyektlərinin fəaliyyətində şəffaflıq və hesabatlılıq tələblərinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdiriləcək, vergitutma bazası genişləndiriləcək və vergi inzibatçılığı təkmilləşdiriləcəkdir. Bununla yanaşı, dövlət müəssisələrində daha səmərəli və mütərəqqi korporativ idarəetmə üsullarının tətbiq edilməsi yolu ilə həmin müəssisələri daha rentabelli işləməyə sövq edərək kreditorlar və dövlət qarşısında maliyyə öhdəliklərinin vaxtında ödənilməsi, eləcə də vergi və dividendlərin ödənilməsində artımın təmin edilməsi istiqamətində işlər davam etdiriləcəkdir.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin inkişaf etdirilməsinin, maliyyə öhdəliklərinin vaxtında və tam həcmdə ödənilməsinin təmin edilməsinin, habelə vergi borclarının ödənilməsi istiqamətində əlverişli şəraitin yaradılmasının ortamüddətli dövr ərzində yığımların əhəmiyyətli artımına səbəb olacağı proqnozlaşdırılır.

"Vergi və gömrük sahəsində verilmiş güzəşt və azadolmaların Mərkəzləşdirilmiş Elekton Reyestr Sistemi" vasitəsilə vergi və gömrük sahəsində qüvvədə olan və ya təklif olunan güzəştlərin dövlət büdcəsinin gəlirlərinə təsirinin, habelə büdcə, iqtisadi və sosial baxımından səmərəliliyinin qiymətləndirilməsi işlərinə başlanılması gəlir siyasətinin əsas istiqamətlərindən biri olacaqdır.

Dövlət əmlakının özəlləşdirilməsində stimullaşdırıcı tədbirlərin görülməsi və sərmayəçilərə daha əlverişli şəraitin yaradılmasına xüsusi önəm veriləcəkdir.

Malların idxalı, ölkədaxili istehsalı, dövriyyəsi, topdan və pərakəndə satışına nəzarətin həyata keçirilməsi məqsədilə izlənilməsi sisteminin yaradılması əlavə büdcə gəlirlərinin formalaşmasına təkan verəcəkdir.

İşğaldan azad olunmuş ərazilərdə geniş miqyaslı quruculuq və bərpa işlərinin həyata keçirilməsi xərcləri artırmaqla yanaşı, eyni zamanda rəqabətqabiliyyətli iqtisadi sahələrin, o cümlədən turizmin, kənd təsərrüfatının, sənəyenin inkişaf etdirilməsi, faydalı qazıntı yataqları və xammal potensialından səmərəli istifadə edilməsi, dövlət investisiyaları, eləcə də xarici və yerli investisiyaların cəlb edilməsi, sahibkarlığın, xüsusilə də mikro, kiçik və orta biznesin inkişafının dəstəklənməsi növbəti illərdə həmin ərazilərin sosial iqtisadi inkişafının təmin edilməsinə,



məşğulluğun, ÜDM-in, eləcə də vergitutma bazasını genişləndirməklə dövlət gəlirlərinin artmasına səbəb olacaqdır.

## 7.2.2. Xərclər

Xərclərin əsas istiqamətləri müəyyən edilərkən ən ümdə prioritet kimi qəbul edilən və 2020-ci ildə Azərbaycan xalqının apardığı Vətən müharibəsi nəticəsində 30 ilə yaxın bir müddətdən sonra düşmən işğalından azad olunan ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinin görülməsi, pandemiyanın bütün dünyada olduğu kimi ölkəmizdə də yaratdığı çağırışlar, eləcə də qlobal iqtisadi vəziyyət və tendensiyalar nəzərə alınmışdır.

Əsas xərc istiqamətləri ölkəmizin strateji sənədlərinə, o cümlədən Azərbaycan Respublikası Prezidentinin son dövrlərdə imzaladığı fərman və sərəncamlarında, həmçinin müşavirə və rəsmi görüşlərdəki çıxışlarında müəyyən etdiyi istiqamətlərə və qarşıya qoyulmuş hədəflərə əsaslanaraq, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə qəbul edilmiş strateji yol xəritələri, müxtəlif sahələri əhatə edən dövlət proqramları, beynəlxalq qurumların dəstəyi ilə həyata keçirilən layihələr və digər strateji sənədlər diqqətə alınaraq müəyyən edilmişdir.

Dövlətin əsas funksiyalarının, o cümlədən sosial təminat, səhiyyə, təhsil, müdafiə və təhlükəsizlik, dövlət borcuna xidmətlə bağlı xərclərin, eləcə də prioritet dövlət proqram və layihələrinin maliyyələşdirilməsinin davam etdirilməsi ilə yanaşı, dövlət vəsaitinin aşağıdakı əsas istiqamətlər üzrə ayrılması nəzərdə tutulur:



**Müharibənin nəticələrinin aradan qaldırılması və işğaldan azad olunmuş ərazilərin bərpa və yenidənqurması.** Ermənistanın Azərbaycan dövlətinə və xalqına qarşı təcavüzü, 30 ildən bəri davam edən işğal



nəticəsində rayon və şəhərlərimiz, o cümlədən yüzlərlə yaşayış məntəqəsi, yaşayış evləri, dövlət əmlakı və xüsusi əmlak, çoxsaylı infrastruktur obyektləri məhv edilərək tam yararsız hala salınmışdır. Döyüş əməliyyatları başa çatdıqdan dərhal sonra işğaldan azad edilmiş bütün ərazilərimizdə Azərbaycan Ordusunun, Sərhəd Qoşunlarının, daxili işlər, təhlükəsizlik orqanlarının fəaliyyətinin təmin edilməsinə, minatəmizləmə tədbirlərinin təşkil olunmasına, habelə su, elektrik enerjisi, qaz təchizatı, rabitənin bərpası, həmçinin yol infrastrukturunun qurulması ilə əlaqədar işlərin icrasına başlanılmışdır. Növbəti illər ərzində isə bu tədbirlərin daha geniş miqyasda davam etdirilməsi, öz doğma yurdlarına qayıdan vətəndaşlarımızın yaşayışı və işgüzar fəaliyyəti üçün şəraitin təşkil edilməsi, sözügedən ərazilərdə iqtisadi fəaliyyətin bərpa olunması istiqamətində tədbirlərin maliyyələşdirilməsinə ehtiyac vardır.

Bununla yanaşı, döyüş bölgəsindən kənarda yerləşən və düşmən silahlı qüvvələrinin davamlı atəşi altında dağıntılara məruz qalan yaşayış məntəqələrində mülki əhaliyə, dövlət əmlakına, infrastruktur obyektlərinə, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş zərərin dövlət vəsaiti hesabına qarşılanması nəzərdə tutulmuşdur.

Eyni zamanda, hərbi qulluqçuların və şəhid ailələrinin maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində dəstəyin göstərilməsi, onların zəruri ehtiyaclarının təmin edilməsi, maddi, tibbi və digər sosial xərclərinin ödənilməsi dövlətin diqqət mərkəzində saxlanılacaqdır.

**COVID-19 pandemiyası ilə mübarizə tədbirləri.** Növbəti ildə də pandemiyanın nəzarətdə saxlanılması, onun qarşısının alınması üçün preventiv və profilaktik tədbirlərin gücləndirilməsi davam etdiriləcəkdir. İqtisadiyyatın pandemiyadan əvvəlki inkişaf tempinə qayıtmasını sürətləndirmək məqsədilə COVID-19 pandemiyasının neqativ təsirlərinə məruz qalmış sahələrə dövlət dəstək mexanizmlərinin tətbiq edilməsi, o cümlədən 2021-ci il dekabrın 31-dək sahibkarlıq subyektləri tərəfindən alınmış kreditlərə dövlət zəmanətinin verilməsi və faiz dərəcəsinin subsidiyalaşdırılması tədbirlərinin maliyyə təminatı növbəti ilin dövlət büdcəsində nəzərdə tutulmuşdur.

Qeyd olunan əsas istiqamətlərlə yanaşı, qeyri-neft sektorunun inkişafı, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatının inkişafı üçün dayanıqlı su təchizatının formalaşdırılması, habelə suyun paylanması və qənaətli sərfiyyatını təmin edən məqsədli layihələrin maliyyələşdirilməsi həyata keçiriləcəkdir. Həmçinin, əhalinin mənzilə olan tələbatının ödənilməsi və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə güzəştli ipoteka kreditlərinin verilməsi, sosial mənzillərin, habelə həssas qruplar, o cümlədən əlil və şəhid ailələri üçün evlərin tikintisi istiqamətində dövlət əsaslı vəsait qoyuluşu davam etdiriləcəkdir.



## 8. İcmal büdcə

### 8.1. İcmal büdcənin gəlir və xərcləri

Azərbaycan Respublikasının 2021-ci il icmal büdcəsinin gəlirləri 23828,1 milyon manat proqnozlaşdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 1465,1 milyon manat və ya 6,6 faiz çoxdur.

İcmal büdcənin xərcləri 31163,4 milyon manat olacaqdır ki, bu da 2020-ci illə müqayisədə 855,1 milyon manat və ya 2,8 faiz çoxdur.




Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2021-ci il üçün büdcəsinin gəlirləri 8001,2 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci illə müqayisədə 168,4 milyon manat və ya 2,1 faiz çoxdur.

Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2021-ci il üçün büdcəsinin xərcləri 12220,5 milyon manat təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 189,5 milyon manat və ya 1,5 faiz azdır.

Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddi 12200,0 milyon manat nəzərdə tutulur.




Dövlət Sosial Müdafiəsi Fondunun gəlir və xərcləri bərabər olaraq 5146,0 milyon manat məbləğində proqnozlaşdırılır.

Dövlət Sosial Müdafiəsi Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait 1631,5 milyon manat təşkil edəcəkdir ki, bu da cari ilin proqnozu ilə müqayisədə 442,6 milyon manat və ya 37,2 faiz çoxdur.




İşsizlikdən Sığorta Fondunun gəlir və xərcləri bərabər olaraq 157,8 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin proqnozu ilə müqayisədə 6,6 milyon manat və ya 4,3 faiz çoxdur.

İcmal büdcənin tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər olaraq 506,5 milyon manat proqnozlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə 22,7 milyon manat və ya 4,7 faiz çoxdur.

## İcmal büdcənin gəlirləri : 23 828,1 mln. manat

| | |
|---|---|
| **Dövlət büdcəsinin gəlirləri** | **25 427,0 mln. manat** *o cümlədən 12 200,0 mln. manatını Dövlət Neft Fondundan transfertlər təşkil edəcək* |
| **Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri** | **506,5 mln. manat** *o cümlədən 378,1 mln. manatını dövlət büdcəsindən verilən dotasiya təşkil edəcək.* |
| **Dövlət Sosial Müdafiə Fondunun gəlirləri** | **5 146,0 mln. manat** |
| **İşsizlikdən sığorta fondu** | **157,8 mln. manat** |
| **Dövlət Neft Fondunun gəlirləri** | **8 001,2 mln. manat** |

## İcmal büdcənin xərcləri : 31 163,4 mln. manat

| | |
|---|---|
| **Dövlət büdcəsinin xərcləri** | **28 543,0 mln. manat** |
| **Naxçıvan Muxtar Respublikasının büdcəsinin xərcləri** | **506,5 mln. manat** |
| **Dövlət Sosial Müdafiə Fondunun xərcləri** | **5 146,0 mln.manat** |
| **İşsizlikdən sığorta fondu** | **157,8 mln. manat** |

| Dövlət Neft Fondunun xərcləri | 12 220,5 mln. manat |
|---|---|

Qeyd: 2021-ci ilin icmal büdcəsinin gəlir və xərclərindən aşağıda qeyd olunan məbləğlər çıxarılır:

- *12 200,0 mln. manat (Dövlət Neft Fondundan ediləcək transfert);*
- *378,1 mln. manat (dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasına verilən dotasiya);*
- *1 631,5 mln. manat (dövlət büdcəsindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Sosial Müdafiə Fonduna transfert)*
- *1 184,0 mln. manat (Dövlət büdcəsindən maliyyələşən təşkilatların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Dövlət Sosial Müdafiə Fonduna ayırmaları)*
- *16,8 mln. manat (Dövlət büdcəsindən maliyyələşən təşkilatların İşsizlikdən sığorta fonduna ayrılan vəsait)*

## 8.2. İcmal büdcənin kəsiri

2021-ci ilin icmal büdcəsinin kəsiri 7335,3 milyon manat təşkil etməklə 2020-ci illə müqayisədə 610,1 milyon manat və ya 7,7 faiz azdır. Kəsir proqnozlaşdırılan ÜDM-in 9,7 faizinə bərabər olacaqdır ki, bu da 2020-ci illə müqayisədə 1,4 faiz-bənd azdır.

# 9. Dövlət büdcəsinin gəlirləri

Cari ilin mart ayından başlayaraq koronavirus (COVID-19) pandemiyasının mənfi təsirləri və neftin qiymətinin qeyri-sabitliyi iqtisadi fəallığın azalmasına, iqtisadi tarazlığın pozulmasına, iqtisadiyyatın əksər sahələrinin inkişafının zəifləməsinə, daxili tələbin daralmasına, ölkənin xarici valyutada daxilolmalarının azalmasına, tədiyyə balansının pisləşməsinə səbəb olmuşdur.

Beynəlxalq maliyyə qurumlarının proqnozlarında 2020-ci ilə nisbətən 2021-ci ildə dünya üzrə iqtisadi artım gözlənilməsinə baxmayaraq, koronavirus (COVID-19) pandemiyasının təsirinin 2021-ci ildə də hiss ediləcəyi proqnozlaşdırılır.

Qeyd olunan amillər, habelə koronavirus (COVID-19) pandemiyası və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən dalğalanmalar, OPEC+ sazişi çərçivəsində satış üzrə neft həcmlərinin azalması, beynəlxalq maliyyə qurumlarının proqnozları və ölkənin makroiqtisadi göstəriciləri nəzərə alınmaqla 2021-ci il üzrə dövlət büdcəsi gəlirlərinin proqnozları tərtib edilmişdir.

**2021-ci il dövlət büdcəsinin gəlirləri 25427,0 milyon manat nəzərdə tutulur ki, bu da ÜDM-in 33,6 faizi həcmində olmaqla, 2020-ci ilin proqnozu ilə müqayisədə 1303,0 milyon manat və yaxud 5,4 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 1208,9 milyon manat və yaxud 5,0 faiz çoxdur.**

Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfertlər çıxılmaqla dövlət büdcəsinin gəlirləri 13227,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin təsdiq olunmuş proqnozu ilə müqayisədə 1303,0 milyon manat və ya 10,9 faiz çoxdur.

| Göstəricilər | | 2020-ci il proqnoz | 2021-ci il proqnoz | 2021-ci il proqnozun 2020-ci ilin proqnozu ilə müqayisəsi | |
|---|---|---|---|---|---|
| | | məbləğ | məbləğ | Fərq | Faiz |
| **1** | **G Ə L İ R L Ə R** | **24 124,0** | **25 427,0** | **1 303,0** | **5,4** |
| **1.1** | **Vergilər Nazirliyi üzrə** | **7 190,0** | **7 250,0** | **60,0** | **0,8** |
| **1.1.1** | Fiziki şəxslərin gəlir vergisi | 1 130,0 | 1 150,0 | 20,0 | 1,8 |
| **1.1.2** | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 267,7 | 2 144,0 | -123,7 | -5,5 |

| Göstəricilər | | 2020-ci il proqnoz | 2021-ci il proqnoz | 2021-ci il proqnozun 2020-ci ilin proqnozu ilə müqayisəsi | |
|---|---|---|---|---|---|
| | | məbləğ | məbləğ | Fərq | Faiz |
| **1.1.3** | Əlavə dəyər vergisi | 1 923,4 | 1 970,0 | 46,6 | 2,4 |
| **1.1.4** | Aksizlər | 736,4 | 889,0 | 152,6 | 20,7 |
| **1.1.5** | Hüquqi şəxslərin torpaq vergisi | 40,0 | 45,0 | 5,0 | 12,5 |
| **1.1.6** | Hüquqi şəxslərin əmlak vergisi | 186,0 | 211,0 | 25,0 | 13,4 |
| **1.1.7** | Yol vergisi | 76,0 | 74,0 | -2,0 | -2,6 |
| **1.1.8** | Mədən vergisi | 129,5 | 138,0 | 8,5 | 6,6 |
| **1.1.9** | Sadələşdirilmiş vergi | 341,0 | 295,0 | -46,0 | -13,5 |
| **1.1.10** | Dövlət rüsumu | 180,0 | 170,0 | -10,0 | -5,6 |
| **1.1.11** | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən icarə haqqı | 5,0 | 8,0 | 3,0 | 60,0 |
| **1.1.12** | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti araslndakı fərqdən daxilolmalar | 168,0 | 141,0 | -27,0 | -16,1 |
| **1.1.13** | Vergi olmayan sair gəlirlər | 7,0 | 15,0 | 8,0 | 114,3 |
| **1.2** | **Dövlət Gömrük Komitəsi üzrə** | **3 830,0** | **3 900,0** | **70,0** | **1,8** |
| **1.2.1** | Əlavə dəyər vergisi | 2 675,0 | 2 740,0 | 65,0 | 2,4 |
| **1.2.2** | Aksizlər | 200,0 | 170,0 | -30,0 | -15,0 |
| **1.2.3** | Gömrük rüsumları | 910,0 | 950,0 | 40,0 | 4,4 |
| **1.2.4** | Yol vergisi | 45,0 | 40,0 | -5,0 | -11,1 |
| **1.3** | **Dövlət Neft Fondundan daxilolmalar** | **12 200,0** | **12 200,0** | | |
| **1.4** | **Büdcə təşkilatlarının büdcədənkənar daxilolmaları** | **804,0** | **700,0** | **-104,0** | **-12,9** |
| **1.5** | **Sair gəlirlər üzrə** | **100,0** | **497,0** | **397,0** | **397,0** |
| **1.5.1** | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 8,0 | 11,0 | 3,0 | 37,5 |
| **1.5.2** | Mərkəzi Bankın mənfəətindən ayırmalar | | 250,0 | | |
| **1.5.2** | **Sair daxilolmalar** | **92,0** | **236,0** | **144,0** | **156,5** |
| **1.5.2.1** | - Xarici dövlətlərin hökumətlərinə verilmiş kreditlər üzrə daxilolmalar | 2,4 | 2,5 | 0,1 | 4,2 |
| **1.5.2.2** | - Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 2,8 | 168,1 | 165,3 | 5 945,0 |
| **1.5.2.3** | - Digər daxilolmalar | 86,8 | 65,5 | -21,4 | -24,6 |
| **1.6** | **Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert** | | **880,0** | **880,0** | |

2021-ci il üzrə proqnozlaşdırılan dövlət büdcəsinin gəlirlərinin 54,2 faizi və ya 13776,0 milyon manatı **neft sektorunun**, 45,8 faizi və ya 11651,0 milyon manatı **qeyri-neft sektorunun** payına düşür. 2020-ci ilin proqnozu ilə müqayisədə neft sektorunun gəlirləri 214,0 milyon manat və ya 1,5 faiz az, qeyri-neft sektorunun gəlirləri isə 1517,0 milyon manat və ya 15,0 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə neft sektorunun gəlirləri 171,4 milyon manat və ya 1,3 faiz, qeyri-neft sektorunun gəlirləri isə 1037,5 milyon manat və ya 9,8 faiz çoxdur.




**Neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin** 88,6 faizini və ya 12200,0 milyon manatını Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfert, 11,4 faizini və ya 1576,0 milyon manatını vergi orqanlarının xətti ilə neft sektorundan daxilolmalar təşkil edir. Vergi orqanlarının xətti ilə neft sektoru üzrə daxilolmalarda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) üzrə büdcə ödənişləri 1136,0 milyon manat və neft-qaz sahəsində fəaliyyət göstərən Hasilatın Pay Bölgüsü sazişlərindən mənfəət vergisi 440,0 milyon manat nəzərdə tutulur ki, bu da vergi orqanları tərəfindən neft sektoru üzrə daxilolmaların müvafiq olaraq 72,1 və 27,9 faizini təşkil edir.



Azərbaycan Respublikası Dövlət Neft Şirkəti və onun törəmə müəssisələri tərəfindən 1136,0 milyon manat məbləğində dövlət büdcəsinə vergi öhdəlikləri 2020-ci ilin təsdiq edilmiş proqnozundan 104,0 milyon manat və ya 8,4 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 273,3 milyon manat və ya 19,4 faiz azdır. Azalmanın əsas səbəbi növbəti il üzrə xam neft ixracının azalması, təbii qazın ixrac qiymətinin aşağı düşməsi, Azərbaycan Respublikasının 29 noyabr 2019-cu il tarixli 1704 nömrəli Qanunu ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 1 yanvar 2020-ci il tarixindən ƏDV üzrə vergi tutulan əməliyyatın vaxtının təqdim edilən mallar (işlər və xidmətlər) üçün faktiki ödənişin aparıldığı vaxt sayılmasının Şirkətin vergi öhdəliklərinə təsirinin nəzərə alınması olmuşdur.

Hasilatın Pay Bölgüsü sazişlərindən mənfəət vergisi 440,0 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin təsdiq edilmiş proqnozundan 110,0 milyon manat və ya 20,0 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 391,0 milyon manat və ya 47,1 faiz azdır. Azalmanın səbəbi OPEC+ sazişi çərçivəsində satış üzrə neft həcmlərinin azalması ilə bağlı olmuşdur.

**Qeyri-neft sektoru üzrə dövlət büdcəsinin gəlirlərinin** 48,7 faizini və ya 5674,0 milyon manatını vergi orqanlarının xətti ilə daxilolmalar, 33,5 faizini və ya 3900,0 milyon manatını gömrük

orqanlarının xətti ilə daxilolmalar, 7,6 faizini və ya 880,0 milyon manatını Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert, 2,1 faizini və ya 250,0 milyon manatını Mərkəzi Bankın mənfəətindən ayırmalar, 8,1 faizini və ya 947,0 milyon manatını digər gəlirlər təşkil edir.




2021-ci ildə dövlət büdcəsi gəlirlərinin 12200,0 milyon manatı və ya 48,0 faizi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfertin, 7250,0 milyon manatı və ya 28,5 faizi Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların, 3900,0 milyon manatı və ya 15,3 faizi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 880,0 milyon manatı və ya 3,5 faizi Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfertin, 250,0 milyon manatı və ya 1,0 faizi Mərkəzi Bankın mənfəətindən ayırmaların, 700,0 milyon manatı və ya 2,7 faizi büdcə təşkilatlarının büdcədənkənar daxilolmalarının, 247,0 milyon manatı və ya 1,0 faizi isə sair gəlirlərin payına düşür



Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında **Dövlət Vergi Xidmətinin** xətti ilə proqnozlaşdırılan daxilolmaların məbləği ÜDM-in 9,6 faizi həcmində olmaqla 7250,0 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin proqnozundan 60,0 milyon manat və ya 1,0 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 422,3 milyon manat və ya 5,5 faiz azdır.



**Dövlət Vergi Xidmətinin** xətti ilə 2021-ci il üzrə dövlət büdcəsinə proqnozlaşdırılan daxilolmaların 78,3 faizi və ya 5674,0 milyon manatı qeyri-neft sektorunun, 21,7 faizi və ya 1576,0 milyon manatı neft sektorunun payına düşür.

2021-ci ildə dövlət büdcəsinə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi proqnozlaşdırılır:

**Fiziki şəxslərin gəlir vergisi üzrə daxilolmalar** 1150,0 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin proqnozu ilə müqayisədə 20,0 milyon manat və ya 1,8 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 197,9 milyon manat və ya 20,8 faiz çoxdur. Gəlirlərin hesablanması zamanı növbəti ilin makroiqtisadi proqnozlarına müvafiq olaraq ölkədə orta aylıq əmək haqqının 0,5 faizlik, nominal ifadədə isə 3,5 faizlik artımı nəzərə alınmışdır.

**Hüquqi şəxslərin mənfəət vergisi üzrə daxilolmalar** 2144,0 milyon manat nəzərdə tutulur. Həmin məbləğin 70,8 faizi və ya 1517,0 milyon manatı qeyri-neft sektorunun, 29,2 faizi və ya 627,0 milyon manatı neft sektorunun payına düşür.

2021-ci ilə proqnozlaşdırılan qeyri-neft sektoru üzrə mənfəət vergisi cari ilin proqnozu ilə müqayisədə 23,0 milyon manat və ya 1,5 faiz az, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 67,7 milyon manat və ya 4,7 faiz çox nəzərdə tutulur.

Qeyri-neft sektoru üzrə mənfəət vergisinin azalmasının əsas səbəbi cari ildə qeyri-neft ÜDM-in gözlənilən real artım tempinin və koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar zərər çəkən sahibkarlıq subyektlərinin gəlirlərinin azalmasının növbəti ildə nəzərə alınması ilə əlaqədardır.




**Əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar** 1970,0 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin proqnozu ilə müqayisədə 46,6 milyon manat və ya 2,4 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 211,0 milyon manat və ya 9,7 faiz azdır. Əlavə dəyər vergisi üzrə daxilolmaların 92,1 faizi və ya 1815,0 milyon manatı qeyri-neft sektorunun, 7,9 faizi və ya 155,0 milyon manatı neft sektorunun payına düşür. 2020-ci ilin proqnozu ilə müqayisədə neft sektoru üzrə ƏDV 131,9 milyon manat və ya 46,0 faiz az, qeyri-neft sektoru üzrə ƏDV 178,5 milyon manat və ya 10,9 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə neft sektoru üzrə ƏDV 139,6 milyon manat və ya 47,4 faiz, qeyri-neft sektoru üzrə ƏDV 71,4 milyon manat və ya 3,8 faiz az nəzərdə tutulur.

Neft sektoru üzrə ƏDV-nin azalmasının əsas səbəbi Azərbaycan Respublikasının 29 noyabr 2019-cu il tarixli 1704 nömrəli Qanunu ilə Vergi Məcəlləsinə edilmiş dəyişikliyə (166-cı maddə) əsasən 1 yanvar 2020-ci il tarixindən ƏDV üzrə vergi tutulan əməliyyatın vaxtının təqdim edilən mallar (işlər və xidmətlər) üçün ödənişin aparıldığı vaxt sayılmasının Dövlət Neft Şirkətinin əlavə dəyər vergisi üzrə öhdəliklərinə təsirinin nəzərə alınması olmuşdur.

Belə ki, Dövlət Neft Şirkəti və onun strukturuna daxil olan müəssisələr arasında uzun dövrdən bəri ödənilməmiş debitor borclarının mövcud olması, cari ildə ödənilmiş vəsaitlərin əsasən əvvəlki illərin debitor borclarının bağlanmasına aid edilməsi nəticə olaraq cari il üzrə əməliyyatlara görə yeni debitor borcların yaranmasına və dövlət büdcəsinə ödənilmiş ƏDV-nin azalmasına gətirib çıxarır.

Qeyri-neft sektoru üzrə ƏDV-nin artımla proqnozlaşdırılmasının səbəbi bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnun tədricən başa çatması, eyni zamanda qeyri-neft sektoru üzrə ÜDM-in artımla proqnozlaşdırlması olmuşdur.

**Sadələşdirilmiş vergi üzrə daxilolmalar** 295,0 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin proqnozu ilə müqayisədə 46,0 milyon manat və ya 13,5 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 63,6 milyon manat və ya 17,7 faiz azdır.

Azalmaya səbəb Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən sadələşdirilmiş vergi ödəyicilərinin əhatə dairəsinin məhdudlaşdırılması, o cümlədən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərin və vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) göstərilən xidmətlərdən başqa, xidmətlərin göstərilməsini (rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatların həcmi xidmətlərin göstərilməsi üzrə ümumi əməliyyatların həcminin 30 faizindən çox olmadıqda) həyata keçirən şəxslərin sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququnun ləğv edilməsi, eyni zamanda sadələşdirilmiş vergi ödəyiciləri olan mikrosahibkarlıq subyektlərinin könüllü olaraq mənfəət (gəlir) vergisi ödəyicisinə keçməsinin nəzərə alınmasıdır.




**Aksizlər üzrə daxilolmalar** 889,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 152,6 milyon manat və ya 20,7 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 283,9 milyon manat və ya 46,9 faiz çoxdur. Həmin məbləğin 52,3 faizi və ya 465,0 milyon manatı neft sektorunun, 47,7 faizi və ya 424,0 milyon manatı qeyri-neft sektorunun payına düşür. Qeyri-neft sektoru üzrə aksiz vergisi cari ilin proqnozu ilə müqayisədə 109,0 milyon manat və ya 34,6 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 242,9 milyon manat və ya 2,3 dəfə çox nəzərdə tutulur.

Qeyri-neft sektoru üzrə aksizlər üzrə artım makroiqtisadi proqnozlara əsasən 2021-ci il üzrə ölkə daxilində aksizli malların istehsal həcmlərinin, o cümlədən ölkədaxili siqaret istehsalının artmasının proqnozlarda nəzərə alınması hesabına olmuşdur.

Neft sektoru üzrə aksiz vergisinin proqnozu növbəti il üzrə Yanacaq Enerji Balansının göstəricilərinə əsasən neft sektoru üzrə aksizli malların ölkədaxili istehlak həcmləri nəzərə alınmaqla tərtib edilmişdir.

**Hüquqi şəxslərin əmlak vergisi üzrə daxilolmalar** 211,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 25,0 milyon manat və ya 13,4 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 1,6 milyon manat və ya 0,8 faiz azdır. Həmin məbləğin 68,7 faizi və ya 145,0 milyon manatı qeyri-neft sektorunun, 31,3 faizi və ya 66,0 milyon manatı neft sektorunun payına düşür.

Artıma əsas səbəb cari ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar bilavasitə pandemiyanın təsir etdiyi sahələrə verilən güzəştlərin növbəti ildən ləğv edilməsidir.



**Mədən vergisi üzrə daxilolmalar** 138,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 8,5 milyon manat və ya 6,6 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 4,2 milyon manat və ya 3,1 faiz çoxdur. Həmin məbləğin 96,4 faizi və ya 133,0 milyon manatı neft sektorunun, 3,6 faizi və ya 5,0 milyon manatı qeyri-neft sektorunun payına düşür.

Neft sektoru üzrə mədən vergisi növbəti il üzrə Yanacaq Enerji Balansının göstəricilərinə əsasən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti tərəfindən (ARDNŞ) istismar olunan yataqlardan əldə olunan neft və təbii qazın hasilat həcmləri nəzərə alınmaqla proqnozlaşdırılmışdır.

**Hüquqi şəxslərin torpaq vergisi üzrə daxilomalar** 45,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 5,0 milyon manat və ya 12,5 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 5,0 milyon manat və ya 10,0 faiz azdır. Həmin məbləğin 66,7 faizi və ya 30,0 milyon manatı qeyri-neft sektorunun, 33,3 faizi və ya 15,0 milyon manatı neft sektorunun payına düşür.

Artıma əsas səbəb cari ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar bilavasitə pandemiyanın təsir etdiyi sahələrə verilən güzəştlərin növbəti ildən ləğv edilməsidir.

**Dövlət rüsumu üzrə daxilolmalar** 170,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müayisədə 10,0 milyon manat və ya 5,6 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 21,3 milyon manat və ya 11,1 faiz azdır.

Azalmanın əsas səbəbi koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar dövlət rüsumu tutulan xidmətlərin və hüquqi hərəkətlərin sayının azalmasının növbəti ildə də nəzərə alınması olmuşdur.



**Yol vergisi üzrə daxilolmalar** 74,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 2,0 milyon manat və ya 2,6 faiz az, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 0,5 milyon manat və ya 0,7 faiz çoxdur.

Bu tədiyə növünün proqnozu növbəti il üzrə Yanacaq Enerji Balansının göstəricilərinə əsasən ölkə daxilində istehsal olunan və daxili istehlaka yönəldilən avtomobil benzininin, dizel yanacağının və maye qazın növbəti il üçün həcmləri nəzərə alınmaqla müəyyən edilmişdir.

Azərbaycan Respublikasında istehsal edilən və **qiymətləri tənzimlənən məhsulların** kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiymət arasındakı fərqdən yığımlar 141,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 27,0 milyon manat və ya 16,1 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 91,6 milyon manat və ya 39,4 faiz azdır. Bu tədiyə növü üzrə azalmanın əsas səbəbi Dövlət Neft Şirkəti tərəfindən növbəti il üzrə xam neftin ixracının kəskin aşağı düşməsi və təbii qazın ixrac qiymətinin azalmasnın nəzərə alınması olmuşdur.

**Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar** 8,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 3,0 milyon manat və ya 60,0 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 0,4 milyon manat və ya 5,1 faiz azdır.

Artıma əsas səbəb bir sıra sahələrə verilən güzəştlərin növbəti ildən ləğv edilməsidir.






Azərbaycan Respublikasının **Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar** ÜDM-in 5,2 faizi həcmində olmaqla 3900,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 70,0 milyon manat və ya 1,8 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 508,6 milyon manat və ya 11,5 faiz azdır.

2021-ci ildə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xətti ilə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi proqnozlaşdırılır:

**İdxal olunan mallarla bağlı əlavə dəyər vergisi üzrə daxilolmalar** 2740,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 65,0 milyon manat və ya 2,4 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 264,1 milyon manat və ya 8,8 faiz azdır.

Artımın səbəbi 2020-ci ilə nisbətən qeyri-neft sektoru üzrə idxalın artımla proqnozlaşdırılmasının nəzərə alınması ilə bağlıdır.

**İdxal olunan mallarla bağlı aksizlər üzrə daxilolmalar** 170,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 30,0 milyon manat və ya 15,0 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 79,6 milyon manat və ya 31,9 faiz azdır. Azalmanın səbəbi makroiqtisadi proqnozlara əsasən bir sıra aksizli malların, o cümlədən siqaretin ölkə daxilində istehsal həcmlərinin növbəti ildə artması və xarici və daxili istehsal üzrə aksizlərin dərəcəsində yaranan fərq ilə əlaqədardır.

**Gömrük rüsumları üzrə daxilolmalar** 950,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 40,0 milyon manat və ya 4,4 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 159,5 milyon manat və ya 14,4 faiz azdır.



Artımın səbəb cari ilə nisbətən qeyri-neft sektoru üzrə idxalın artımla proqnozlaşdırılmasının nəzərə alınması ilə bağlıdır.

**Yol vergisi üzrə daxilolmalar** 40,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə 5,0 milyon manat və ya 11,1 faiz az, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 5,4 milyon manat və ya 11,9 faiz azdır.

Yol vergisi üzrə cari ilə nisbətən azalmanın əsas səbəbi koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkəyə daxil olan xarici avtonəqliyyat vasitələrinin sayının azalmasının nəzərə alınması olmuşdur.

**Azərbaycan Respublikasının Mərkəzi Bankının** mənfəətindən dövlət büdcəsinə 250,0 milyon manat vəsaitin daxilolması nəzərdə tutulur.

Azərbaycan Respublikası Mərkəzi Bankının 2017-ci ilin maliyyə nəticələrinə görə əldə etdiyi mənfəətin sərbəst qalığının dövlət büdcəsinə ödənilməmiş hissəsindən "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 2020-ci ildə **Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fonduna** köçürülmüş 1.000,0 milyon manat məbləğində vəsaitin 880,0 milyon manatının 2021-ci il dövlət büdcəsinə transfert edilərək büdcənin gəlirlərinə aid edilməsi nəzərdə tutulur.

**Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertlər** 12200,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə eyni səviyyədə, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 835,7 milyon manat və ya 7,4 faiz çoxdur.




Digər gəlirlər mənbələr hesabına aşağıdakı kimi nəzərdə tutulur:

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən dövlət büdcəsinə **dövlət mülkiyyətində olan əmlakın icarəyə verilməsindən** icarə haqqı 11,0 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin proqnozu ilə müqayisədə 3,0 milyon manat və ya 37,5 faiz çox, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 0,4 milyon manat və ya 3,5 faiz azdır.



**Büdcə təşkilatlarının ödənişli xidmətlərindən** dövlət büdcəsinə 700,0 milyon manat vəsaitin daxil olacağı nəzərdə tutulur ki, bu da cari ilin proqnozu ilə müqayisədə 104,0 milyon manat və ya 12,9 faiz az, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 121,1 milyon manat və ya 20,9 faiz çoxdur. Qeyd edək ki, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar cari illə müqayisədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti üzrə 50,4 milyon manat, rayon (şəhər) icra hakimiyyətləri üzrə 20,9 milyon manat, Daxili İşlər Nazirliyi üzrə 20,0 milyon manat, Azərcaycan Respublikasının Prezidenti Administrasiyası üzrə 20,4 milyon manat, Müdafiə Nazirliyi üzrə 11,5 milyon manat az nəzərdə tutulur. Bu isə qanunvericilikdə edilmiş müvafiq dəyişikliklər nəticəsində bir sıra büdcədənkənar mənbələrin ləğv edilməsi, koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar vergi qanunvericiliyinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyalarının, yol hərəkəti qaydalarının pozulmasına görə tətbiq edilən inzibati cərimələrin və bir sıra qurumlar tərəfindən göstərilən hüquqi hərəkətlərin sayının azalması ilə əlaqədardır.

**Sair daxilolmalar** üzrə dövlət büdcəsinə 236,0 milyon manat vəsait nəzərdə tutulur ki, bu da cari ilin proqnozu ilə müqayisədə 144,0 milyon manat və ya 2,6 dəfə, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 53,5 milyon manat və ya 29,3 faiz çoxdur. Sair daxilolmaların strukturu aşağıdakı kimidir:

**büdcədən verilmiş kreditlər üzrə daxilolmalar** 44,8 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin proqnozu ilə müqayisədə 39,8 milyon manat və ya 9,1 dəfə, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə 39,7 milyon manat və ya 8,8 dəfə çoxdur. Artıma səbəb “Azərbaycan Dəmir Yolları”

Qapalı Səhmdar Cəmiyyəti tərəfindən dövlət büdcəsindən alınmış büdcə vəsaitinə görə növbəti ildə nəzərdə tutulan ödənişlərin nəzərə alınması olmuşdur;




**səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər** üzrə daxilolmalar 168,1 milyon manat nəzərdə tutulur ki, bu da 2020-ci ilin təsdiq edilmiş proqnozu ilə müqayisədə 165,3 milyon manat çoxdur. Artım əsasən "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti üzrə 120,0 milyon manat, iri dövlət şirkətləri üzrə 46,0 milyon manat məbləğində dövlət büdcəsinə nəzərdə tutulan dividend ödənişi hesabınadır.

**Xarici dövlətlərə verilmiş kreditlər** 2,5 milyon manat, **sərbəst qalıq vəsaitlərinin idarə edilməsindən daxilolmalar** 5,7 milyon manat, **cərimələrdən daxilolmalar** 15,0 milyon manat nəzərdə tutulmuşdur.

## 10. Dövlət büdcəsinin xərcləri



2021-ci il və ortamüddətli dövrdə Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın başlıca sektorları üzrə irəli gələn vəzifələrin, dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsi, ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin daha da artırılması və işğaldan azad edilmiş ərazilər üzrə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi üçün maliyyə təminatının yaradılması büdcə xərclərinin əsas prioritetlərindən olacaqdır.

Dövlət maliyyəsinin idarə olunmasının təkmilləşdirilməsi istiqamətində büdcə xərclərinin daha səmərəli, qənaətli və məqsədyönlü istifadəsinin təmin edilməsi üçün nəticəəsaslı büdcənin tərtibinə başlanılmış və büdcə xərclərinin funksional təsnifatının üç pilot (Təhsil, Kənd Təsərrüfatı, Ətraf mühitin mühafizəsi) bölməsi üzrə xərclər ilk dəfə olaraq sektorların strateji planları ilə əlaqələndirilməklə proqram, sub-proqram və tədbirlər səviyyəsində proqnozlaşdırılmışdır. Həmin tədbirlərin açıqlanması 2021-ci ilin dövlət büdcəsinin layihəsinin aidiyyəti xərc bölməsində öz əksini tapmışdır.

Büdcənin ənənəvi olaraq sosialyönlüyü və müdafiə olunan xərclərinin maliyyə təminatı 2021-ci ildə də tam təmin ediləcəkdir. Bu əsasda, əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, dövlət borcuna xidmətlə bağlı xərclər üzrə maliyyə təminatının yaradılması prioritet xərc istiqamətlərindən olacaqdır.



Koronavirus (COVID-19) pandemiyası təhsil sektoruna da öz təsirlərini göstərmiş, distant təhsilin aktuallığını yenidən gündəmə gətirməklə dünya ölkələrinin bu sahədə praqmatik addımlar atmasına səbəb olmuşdur. Bu mənada ölkədə distant təhsil bazasının genişləndirilməsi üçün maliyyə və texnoloji resursların ayrılması, bu sahədə yüksəkixtisaslı kadrların hazırlanması 2021-ci ildə qarşıda duran mühüm vəzifələrdəndir. Sözügedən sistemin geniş tətbiqi insanların yaşadıqları ərazini tərk etmədən təhsil almalarına şərait yaratmaqla yanaşı, sosial durumu aşağı olan ailə və fərdlər üçün yeni imkanlar

yaradacaqdır.

Növbəti ildə təhsil islahatlarının davam etdirilməsi, məktəbəqədər və orta-peşə təhsilinin, habelə ali məktəblərə dövlət sifarişi əsasında tələbə qəbulunun daha da genişləndirilməsi məqsədilə müvafiq maliyyə təminatı ayrılacaqdır.



Xərc siyasətinin digər mühüm istiqaməti ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bununla əlaqədar aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi üçün müvafiq təşviq mexanizmləri formalaşdırmaqla, maliyyə dəstəyinin və subsidiyaların ayrılması təmin ediləcəkdir.

2021-ci ildə və ortamüddətli dövrdə nəqliyyat, kommunal, meliorasiya, sənaye və energetika, kənd təsərrüfatı kimi prioritet sahələrdə infrastruktur layihələrinin dəstəklənməsi, habelə, təhsil, səhiyyə, idman, mədəniyyət obyektlərinin tikintisi və yenidən qurulması, əlil və şəhid ailələri üçün evlərin tikintisi işləri davam etdirilməsi üçün maliyyə təminatı nəzərdə tutulmuşdur.

Dövlət adından yaradılan publik hüquqi şəxslər tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına dövlət sifarişi ilə təyinatlı tədbirlərin həyata keçirilməsi təmin ediləcəkdir.

**2021-ci il dövlət büdcəsinin xərcləri 28543,0 milyon manat (ÜDM-də xüsusi çəkisi 37,7 faiz) proqnozlaşdırılır ki, bu da 2020-ci ilə nisbətən 1050,8 milyon manat və ya 3,8 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 4117,1 milyon manat və ya 16,9 faiz çoxdur.**

| Göstəricilər | | 2020-ci il proqnoz | 2021-ci il proqnoz | 2021-ci il proqnozun 2020-ci ilin proqnozu ilə müqayisəsi | |
|---|---|---|---|---|---|
| | | məbləğ | məbləğ | Fərq | Faiz |
| | | | | | |
| | **X Ə R C L Ə R** | **27 492,2** | **28 543,0** | **1 050,8** | **3,8** |
| **1** | **Ümumi dövlət xidmətləri** | **3 839,7** | **4 159,8** | **320,0** | **8,3** |
| *o cümlədən:* | | | | | |
| ***1.1*** | *Elm* | *187,3* | *183,3* | *-4,0* | *-2,1* |
| ***1.2*** | *Dövlət borcu* | *1 726,2* | *2 198,8* | *472,6* | *27,4* |
| **1.2.1** | Xarici borc | 1 593,0 | 2 031,7 | 438,7 | 27,5 |
| **1.2.2** | Daxili borc | 133,1 | 167,1 | 33,9 | 25,5 |
| **2** | **Müdafiə və milli təhlükəsizlik** | 3 804,2 | 4 585,8 | 781,6 | 20,5 |
| **3** | **Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq** | 1 936,7 | 2 092,8 | 156,1 | 8,1 |
| **4** | **Təhsil** | 3 034,8 | 3 277,7 | 242,9 | 8,0 |
| **5** | **Səhiyyə** | 1 716,6 | 1 409,0 | -307,6 | -17,9 |
| **6** | **Sosial müdafiə və sosial təminat** | 3 237,0 | 3 692,7 | 455,7 | 14,1 |
| **7** | **Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət** | 426,1 | 418,2 | -7,9 | -1,9 |
| **8** | **Mənzil və kommunal təsərrüfatı** | 248,2 | 262,8 | 14,7 | 5,9 |
| **9** | **Kənd təsərrüfatı** | 897,7 | 943,0 | 45,4 | 5,1 |

| Göstəricilər | | 2020-ci il proqnoz | 2021-ci il proqnoz | 2021-ci il proqnozun 2020-ci ilin proqnozu ilə müqayisəsi | |
|---|---|---|---|---|---|
| | | məbləğ | məbləğ | Fərq | Faiz |
| **10** | **Ətraf mühitin mühafizəsi** | 273,3 | 275,5 | 2,2 | 0,8 |
| **11** | **İqtisadi fəaliyyət** | 5 832,8 | 5 947,5 | 114,6 | 2,0 |
| **12** | **Əsas bölmələrə aid edilməyən xidmətlər** | 2 245,1 | 1 478,1 | -767,0 | -34,2 |

Son 5 ildə (2016-2021-ci illər) dövlət büdcəsinin xərcləri 60,8 faiz və ya 10791,7 milyon manat artmışdır.

Növbəti ilin dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 63,1 faizi həcmində və ya 18014,0 milyon manat , əsaslı xərclərə 29,2 faizi həcmində və ya 8330,3 milyon manat, dövlət borcuna xidmətlə bağlı xərclərə 7,7 faizi həcmində və ya 2198,8 milyon manat vəsait yönəldiləcəkdir.




Regionların tarazlı və davamlı inkişafının təmin olunması, ölkə iqtisadiyyatının neft sektorundan asılılığının mərhələlərlə azaldılması, müasir tələblərə uyğun infrastrukturların yaradılması və mövcud olanların bir qisminin yenidən qurulması, əhalinin rifah halının, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, ölkədə sosial xidmətlərə olan tələblərin ödənilməsi və dövlətin digər funksiyalarının həyata keçirilməsi üzrə qəbul olunmuş dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi 2021-ci ildə də davam etdiriləcəkdir. Həmin məqsədlərə (əsaslı vəsait qoyuluşu xərcləri də nəzərə alınmaqla) dövlət büdcəsi xərclərinin 26,7 faizi həcmində və ya 7622,5 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə 1727,5 milyon manat və ya 29,3 faiz çoxdur.

İqtisadi təsnifata uyğun olaraq, 2021-ci il dövlət büdcəsində əməyin ödənişinə 6592,3 milyon manat və ya xərclərin 23,1 faizi həcmində, malların (işlərin və xidmətlərin) satın alınmasına 5608,4 milyon manat və ya xərclərin 19,6 faizi həcmində, faizlər üzrə ödənişlərə 625,8 milyon manat

(2020-ci illə müqayisədə 37,4 milyon manat və ya 6,4 faiz çox) və ya xərclərin 2,2 faizi həcmində (2020-ci illə müqayisədə 0,1 faiz-bənd çox), subsidiyaların ödənilməsinə 1630,1 milyon manat (2020-ci illə müqayisədə 476,2 milyon manat və ya 41,3 faiz çox) və ya xərclərin 5,7 faizi həcmində (2020-ci illə müqayisədə 1,5 faiz-bənd çox), qrantlar və digər ödənişlərə 425,4 milyon manat (2020-ci illə müqayisədə 23,2 milyon manat və ya 5,8 faiz çox) və ya xərclərin 1,5 faizi həcmində (2020-ci illə müqayisədə 0,1 faiz-bənd çox), sosial ödənişlərə 3752,2 milyon manat (2020-ci illə müqayisədə 591,0 milyon manat və ya 18,7 faiz çox) və ya xərclərin 13,1 faizi həcmində (2020-ci illə müqayisədə 1,6 faiz-bənd çox), qeyri-maliyyə aktivlərinin alınmasına 8330,4 milyon manat və ya xərclərin 29,2 faizi həcmində, maliyyə aktivləri üzrə əməliyyatlara 7,5 milyon manat, öhdəliklər üzrə əməliyyatlara 1570,7 milyon manat (2020-ci illə müqayisədə 434,8 milyon manat və ya 38,3 faiz çox) və ya xərclərin 5,5 faizi həcmində (2020-ci illə müqayisədə 1,4 faiz-bənd çox) vəsait nəzərdə tutulmuşdur.

"Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn tələblərə uyğun olaraq iqtisadi təsnifatın "Sair xərclər" maddəsində nəzərə tutulmuş bəzi xərclər istisna olmaqla, 2021-ci il üçün dövlət büdcəsində 2020-ci illə müqayisədə həmin xərc maddəsi üzrə 426,8 milyon manat və ya 26,9 faiz azalma olacaqdır.

## 10.1. Sosialyönlü xərclərin əsas istiqamətləri



2021-ci il üçün dövlət büdcəsinin sosialyönlü xərcləri (büdcə xərclərinin iqtisadi təsnifatına uyğun olaraq əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınması xərclərinin cəmi) 11111,9 milyon manat məbləğində proqnozlaşdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 563,8 milyon manat və ya 5,3 faiz çoxdur.



Sosialyönlü xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 38,9 faiz təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 0,6 faiz-bənd çoxdur.

Son 5 ildə (2016-2021-ci illər) bu xərclərin (büdcə xərclərinin iqtisadi təsnifatına uyğun olaraq əməyin ödənişi, pensiya və müavinətlər, dərman, sarğı ləvazimatları və materiallarının, ərzaq məhsullarının alınması xərclərinin cəmi) dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 3,8 faiz-bənd, natural ifadədə isə 4874,8 milyon manat və ya 78,2 faiz artmışdır.

## 10.2. Elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, bədən tərbiyəsi və idmanın təşkili xərcləri

2021-ci il dövlət büdcəsində **elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri** üçün cəm olaraq 8980,9 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2020-ci illə müqayisədə 379,1 milyon manat və ya 4,4 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 3189,4 milyon manat və ya 55,1 faiz çoxdur. Həmin sahələr üzrə nəzərdə tutulmuş xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 31,5 faiz təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 0,2 faiz-bənd çoxdur.

**2021-ci il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinin məbləği və xüsusi çəkisi** (mln. manatla, faizlə)




Növbəti ildə **elm xərclərinə** 183,3 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Elm xərcləri üzrə proqnozlaşdırılan vəsaitin 116,7 milyon manatı Azərbaycan Milli Elmlər Akademiyasının və onun tabeliyində olan 46 elmi tədqiqat müəssisələrinin və təşkilatlarının maliyyələşdirilməsinə yönəldiləcəkdir.

Elm sahəsində "nou-xau"ların tətbiqi, yeni nəsil elmin inkişafı, elm və texnikanın nailiyyətlərinin praktikada istifadə edilməsi, fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi tədqiqat proqramları və layihələrini qrant şəklində ünvanlı maliyyələşdirməsini həyata keçirən Azərbaycan Respublikası Prezidentinin yanında Elmin İnkişaf Fondunun maliyyələşdirilməsi üçün növbəti ilin dövlət büdcəsində 4,2 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 1,0 milyon manat və ya 31,9 faiz çoxdur.



2021-ci ilin dövlət büdcəsində "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin saxlanılması və Mərkəz tərəfindən Azərbaycan Milli Ensiklopediyasının hazırlanması və nəşr olunması üçün 2,6 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 223,1 min manat və ya 9,3 faiz çoxdur.

2021-ci ilin dövlət büdcəsində elm xərcləri köməkçi bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri 4,0 milyon manat təşkil edəcəkdir.



"Azərbaycan Respublikasında arxiv işinin inkişafına dair 2020-2025-ci illər üçün Dövlət Proqramı"nın maliyyə təminatı üçün 5,0 milyon manat nəzərdə tutulmuşdur.

Növbəti ilin dövlət büdcəsindən **təhsil xərclərinə** 3277,7 milyon manat vəsait ayrılacaqdır ki, bu da 2020-ci ilə nisbətən 242,9 milyon manat və ya 8,0 faiz, 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 1085,5 milyon manat və ya 49,5 faiz çoxdur.

2021-ci ildə təhsil xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 11,5 faiz təşkil edəcəkdir ki, bu da 2020-ci ilə nisbətən 0,5 faiz-bənd çoxdur. Təhsil xərclərinin növbəti il üçün proqnozlaşdırılan ÜDM-də xüsusi çəkisi 4,3 faiz olacaqdır ki, bu da 2019-cu ilin icra göstəriciləri ilə müqayisədə isə 1,6 faiz-bənd çoxdur.

Son 5 ildə (2016-2021-ci illər) bu xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,6 faiz-bənd, natural ifadədə isə 1523,3 milyon manat və ya 86,8 faiz artmışdır.



Təhsil xərcləri üçün ayrılmış vəsaitin 1764,7 milyon manatı və ya 53,8 faizi ümumi təhsil xərclərinin (2020-ci illə müqayisədə 62,3 milyon manat və ya 3,7 faiz çox), 1001,2 milyon manatı və ya 30,5 faizi (2020-ci illə müqayisədə 143,0 milyon manat və ya 16,7 faiz çox) təhsil sahəsində digər müəssisələrin və tədbirlərin (dövlət sifarişi ilə ali təhsilin maliyyələşdirilməsi ilə bağlı xərclər, bir sıra dövlət proqramlarının və tədbirlərin maliyyə təminatı), 319,3 milyon manatı və ya 9,7 faizi (2020-ci illə müqayisədə 31,5 milyon manat və ya 11,0 faiz çox) məktəbəqədər təhsil xərclərinin, 71,0 milyon manatı və ya 2,2 faizi orta ixtisas təhsili xərclərinin, 60,9 milyon manatı və ya 1,9 faizi ali təhsilin (2020-ci illə müqayisədə 11,8 milyon manat və ya 24,1 faiz çox), 51,1 milyon manatı və ya 1,6 faizi peşə təhsilinin, 9,4 milyon manatı və ya 0,3 faizi əlavə təhsilin və təhsil sahəsində tətbiqi tədqiqatların maliyyələşdirilməsinə yönəldiləcəkdir.








2021-ci ilin dövlət büdcəsində Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyasının, "ADA" Universitetinin, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının, Bakı Dövlət Universitetinin, Azərbaycan Tibb Universitetinin, İ.M.Seçenov adına Moskva Dövlət Tibb Universitetinin Bakı filialının, Milli Aviasiya Akademiyasının maliyyə təminatı üçün 54,7 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Əhalinin aztəminatlı təbəqəsinin ali təhsilə əlçatanlığını təmin etmək və ali təhsilin əhatə dairəsini genişləndirmək məqsədilə tələbə kreditinin verilməsi üçün növbəti ilin dövlət büdcəsindən 80,0 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

2021-ci ilin dövlət büdcəsinin təhsil xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri 25,9 milyon manat təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 3,7 milyon manat və ya 16,7 faiz çoxdur.

Nəticəəsaslı büdcə mexanizminə keçid çərçivəsində təhsil sektorunun ortamüddətli dövr üçün strateji planı hazırlanmış və büdcə xərclərinin funksional təsnifatının “Təhsil” bölməsində nəzərdə tutulan vəsait bu planda əks olunan strateji hədəflərə nail olmaq məqsədilə **24 subproqramı və 111 tədbiri** özündə birləşdirən **18 proqramın** maliyyələşdirilməsi üçün ayrılmışdır. Eyni zamanda, sözügedən sektorda nəzərdə tutulan proqramların illik icra vəziyyətini monitorinq etməyə və nəticələrini ölçməyə, eləcə də sərf olunmuş xərclərin səmərəliliyini, effektivliyini və nəticəliliyini qiymətləndirməyə imkan verən **121 monitorinq** göstəricisi müəyyən edilmişdir.

2021-ci ilin dövlət büdcəsində **səhiyyə xərcləri** üçün 1409,0 milyon manat vəsait ayrılmışdır. 2021-ci ilin səhiyyə xərclərinin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 4,9 faiz təşkil edəcəkdir.






Səhiyyə xərcləri üçün ayrılmış vəsaitin 1,5 milyon manatı və ya 0,1 faizi (2020-ci illə müqayisədə 0,3 milyon manat və ya 23,6 faiz çox) poliklinika və ambulatoriyaların saxlanılması xərclərinə, 153,7 milyon manatı və ya 10,9 faizi xəstəxanaların saxlanılması xərclərinə, 2,4 milyon manatı və ya 0,2 faizi səhiyyə sahəsində tətbiqi tədqiqatlar xərclərinə, 1251,4 milyon manatı və ya 88,8 faizi səhiyyə sahəsində digər xidmətlərin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

Son 5 ildə (2016-2021-ci illər) bu xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,0 faiz-bənd, natural ifadədə isə 706,5 milyon manat və ya 2,0 dəfə artmışdır.



Ölkədə koronavirus (COVID-19) infeksiyasının qarşısının alınması, əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi səhiyyə sahəsinə yönəldilmiş dövlət büdcəsi vəsaitlərinin həcminin artması, bu sahədə göstəricilərin əsaslı surətdə yaxşılaşdırılmasına və əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin yüksəldilməsinə şərait yaratmışdır.

Mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət tibb müəssisələrində, eləcə də özəl və təsərrüfathesablı tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşlarına müəyyən edilmiş (3–5 misli miqdarında) müddətli əlavələrin ödənilməsi üçün 2021-ci ilin dövlət büdcəsində müvafiq məbləğdə vəsait proqnozlaşdırılmışdır.

Növbəti ildə yoluxması ehtimal olunan şəxslərin karantin nəzarətinə götürülməsi, infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə ölkənin müvafiq bölgələrində quraşdırılmış modul tipli xəstəxanaların və stasionar müalicə tədbirlərinə özünümaliyyələşdirmə prinsipi ilə fəaliyyət göstərən tam təsərrüfathesablı tibb müəssisələrinin cəlb edilməsi işləri 2021-ci ildə də davam etdiriləcəkdir.

Bütün bunları nəzərə alaraq infeksiya ilə mübarizə üçün zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün növbəti ilin dövlət büdcəsində müvafiq məbləğdə vəsait nəzərdə tutulmuşdur.




2020-ci ilin yanvar ayından etibarən Naxçıvan Muxtar Respublikasında və ölkənin 23 şəhər və rayonunda icbari tibbi sığortanın tətbiqinə başlanılmış və 2021-ci ilin yanvar ayından etibarən mərhələlərlə ölkənin digər 36 şəhər və rayonunda (Gəncə, Naftalan və Şirvan şəhərləri, Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux, Göygöl, Goranboy, Xocalı, Beyləqan, Xocavənd, Ağcabədi, Laçın, Bərdə, Füzuli, Ağdam, Tərtər, Kəlbəcər, Astara, Lənkəran, Lerik, Yardımlı, Masallı, Cəlilabad, Neftçala, Biləsuvar, Cəbrayıl, Salyan, İmişli, Saatlı, Sabirabad və Hacıqabul rayonları), 2021-ci ilin aprel ayından isə qalan 7 şəhər və rayonunda (Bakı, Sumqayıt, Xankəndi şəhərləri, Abşeron, Qubadlı, Zəngilan və Şuşa rayonları), yəni ölkənin bütün ərazisində icbari tibbi sığortanın tətbiqi nəzərdə tutulur.

2021-ci ilin dövlət büdcəsində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə icbari tibbi sığortanın ölkənin inzibati ərazi vahidləri üzrə tətbiqi ardıcıllığına uyğun olaraq sığorta haqqının və icbari tibbi sığorta ilə əhatə olunmayan inzibati ərazi vahidlərinin səhiyyə xərclərinin maliyyələşdirilməsinə və əhalinin sağlamlığının qorunması sahəsində bir sıra tədbirlərin maliyyə təminatı üçün 1044,7 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə 60,9 milyon manat və ya 6,2 faiz çoxdur.

“Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun 16-4.4-cü maddəsinə əsasən 2021-ci il yanvarın 1-dən muzdla işləyənlər üzrə bütün işəgötürənlər tərəfindən, o cümlədən dövlət büdcəsindən maliyyələşən təşkilatlar tərəfindən işçilərin əməkhaqlarının 2 faizi (8000,0 manatdan yuxarı əməkhaqlarından 0,5 faizi) həcmində icbari tibbi sığorta haqqı ödənilməlidir.

Bununla əlaqədar olaraq, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanlar üzrə icbari tibbi sığorta haqlarının maliyyələşdirilməsi üçün 2021-ci ilin dövlət büdcəsində 105,9 milyon manat

(Naxçıvan Muxtar Respublikası büdcəsində nəzərdə tutulan 4,8 milyon manat vəsait də nəzərə alınmaqla) məbləğdə vəsait nəzərdə tutulmuşdur.



Pandemiya şəraitində əhalinin sağlamlığının qorunması, sanitar-epidemioloji vəziyyətə nəzarətin təmin edilməsi, infeksiyaya yoluxmuş və onlarla təmasda olan şəxslərin monitorinqinin aparılması üçün şəhər və rayon gigiyena və epidemiologiya mərkəzlərinin maddi-texniki vəziyyətinin gücləndirilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə sanitar-epidemioloji tədbirlər üçün 42,5 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 0,4 milyon manat və ya 0,8 faiz çoxdur.

Psixi pozuntu vəziyyətində olan şəxslərə tibbi və sosial yardım göstərilməsi, narkoloji xəstəliklərin və onların doğurduğu mənfi tibbi və sosial nəticələrin, habelə bu xəstəliklərə düçar olmuş və onların ətrafında olan şəxslərə ziyanın vurulması hallarının qarşısının alınması məqsədilə psixiatriya yardımı, narkoloji xidmət və nəzarət sahəsində həyata keçirilən tədbirlərin maliyyələşdirilməsi üçün növbəti ilin dövlət büdcəsində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə müvafiq məbləğdə vəsait nəzərdə tutulmuşdur.

Onkoloji xəstəliyə düçar olmuş şəxslərin sağlamlığının qorunması, dərman preparatlarına olan tələbatın ödənilməsi, müayinə, müalicə və reabilitasiyasının həyata keçirilməsi və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 2021-ci il dövlət büdcəsində Milli Onkologiya Mərkəzinə 45,6 milyon manat vəsait nəzərdə tutulmuşdur.



Ölkədə ixtisaslaşdırılmış oftalmoloji xidmətlə təmin edilmə, göz patologiyası ilə mübarizədə elmi-metodik cəhətdən əsaslandırılmış tədbirlərin işlənilməsi, tətbiqi və gücləndirilməsi, respublikada ixtisaslaşdırılmış oftalmoloji yardımın təşkili məqsədilə Akademik Zərifə Əliyeva adına Milli Oftolmologiya Mərkəzinə 2021-ci ilin dövlət büdcəsində 8,2 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə 0,1 milyon manat və ya 0,6 faiz çoxdur.

Növbəti ilin dövlət büdcəsindən Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində olan Bakı, Gəncə, Lənkəran, Sumqayıt, Şəki və Şirvan şəhər Tibbi bədən tərbiyəsi dispanserlərinin saxlanılması üçün 1,1 milyon manat, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Həkim-Sanitar Xidmətinin saxlanılması üçün 9,0 milyon manat məbləğində vəsait proqnozlaşdırılır.

2021-ci il üçün səhiyyə xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri 7,0 milyon manat təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 0,4 milyon manat və ya 6,0 faiz çoxdur.



2021-ci ilin dövlət büdcəsində səhiyyə sahəsində dövlət proqramlarının və həyata keçiriləcək tədbirlərin maliyyələşdirilməsi üçün 198,5 milyon manat vəsait proqnozlaşdırılmışdır. Həmin vəsaitin xəstələrə göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, xəstələrin dərman preparatları, özünənəzarət vasitələri və digər ləvazimatla tam təminatının yaxşılaşdırılmasına, kadr potensialının gücləndirilməsinə, xəstəliklərin profilaktikasına və müalicəsinə dair əhalinin maarifləndirilməsinə yönəldilməsi nəzərdə tutulmuşdur.

| Sıra №-si | Dövlət proqramının və tədbirlərin adı | 2021-ci il üçün proqnoz (milyon manatla) | Gözlənilən nəticə |
|---|---|---|---|
| 1.1. | Şəkərli diabet üzrə tədbirlərin maliyyə təminatı | 46,0 | şəkərli diabet xəstələri üçün şəkərsalıcı dərman preparatları və müvafiq aparatlarla təmin edilməsi |
| 1.2. | Azərbaycan Respublikasında onkoloji xəstəliklər üzrə tədbirlərin maliyyə təminatı | 44,3 | ölkədə onkoloji xəstəliyə düçar olmuş şəxslərin həyat tərzinin yaxşılaşdırılması və ömürlərinin uzadılması məqsədilə onların dispanserizasiyası aparılmaqla düçar olmuş şəxslərin registrinin yaradılması, onkoloji xəstəliyə düçar olmuş şəxslərin dərman preparatlarına olan tələbatın ödənilməsi, müayinə, müalicə və reabilitasiyasının həyata keçirilməsi |
| 1.3. | Xroniki böyrək çatışmazlığı üzrə tədbirlərin maliyyə təminatı | 37,0 | hemodializ xəstələrinin müalicəsi, hemodializ aparatının alınması və quraşdırılması, dövlət hesabına böyrəkköçürmə əməliyyatlarının aparılması |
| 1.4. | Talassemiya ilə mübarizə tədbirlərinin maliyyə təminatı | 21,6 | qeydiyyatda olan talassemiya xəstələrinə trombositlərin və eritrosit kütləsinin köçürülməsi, sümük iliyinin transplantasiyası əməliyyatlarının həyata keçirilməsi |
| 1.5. | Hemofiliya xəstəliyi ilə mübarizə tədbirlərinin maliyyə təminatı | 12,2 | hemofiliyalı uşaqda erkən əlilliyin qarşısının alınması məqsədilə birincili profilaktika, habelə hemofiliyalı xəstənin həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədilə ağırlaşma hallarında ikincili profilaktika tədbirlərinin tətbiq edilməsi |
| 1.6. | “2017-2021-ci illər üçün qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə Tədbirlər Proqramı”nın maliyyə təminatı | 6,6 | morfoloji, immunofenotipik, sitokimyəvi, sitogenetik, FISH və molekulyar-genetik diaqnostikası üçün lazım olan reaktivlər alınması, qanın bədxassəli xəstəliklərinə düçar olmuş xəstələr sitostatik və innovasion dərman preparatları ilə təmin edilməsi |

| | | | |
|---|---|---|---|
| 1.7. | Yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair tədbirlərin maliyyə təminatı | 6,5 | Profilaktik peyvənd təqviminə uyğun immunlaşdırma proqramının maliyyə stabilliyinin təmin edilməsi, profilaktik peyvəndlərlə əhatənin yüksək səviyyədə saxlanılması, qızılca və məxmərəyin eliminasiyası, poliomielitdən azad ərazi statusunun saxlanılması, hepatit B infeksiyası üzərində nəzarətin gücləndirilməsi |
| 1.8. | Azərbaycan Respublikasında İİV/QİÇS-lə mübarizə tədbirlərinin maliyyə təminatı | 5,7 | antiretrovirus dərman vasitələrinin alınması, seroloji müayinələrin aparılması, test-sistemlərin, reaktiv və reagentlərin, tibbi təyinatlı vasitələrin alınması |
| 1.9. | "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın maliyyə təminatı | 4,5 | uşaqlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi, uşaqların sağlamlıq vəziyyətinin yaxşılaşdırılması, dispanserizasiyanın nəticələrinin təhlili əsasında vaxtında müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi və uşaqların sağlam həyat tərzi sahəsində maarifləndirilməsi |
| 1.10. | "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın maliyyə təminatı | 3,5 | laboratoriya avadanlıqlarının, zəruri dərman preparatlarının, diaqnostik reaktivlərin və vasitələrin alınması, müvafiq simptomatik müalicə üçün nəzərdə tutulmuş dərmanlarla təmin edilməsi |
| 1.11. | Ana və uşaqların sağlamlığının yaxşılaşdırılması tədbirlərinin maliyyə təminatı | 3,0 | dərman vasitələrinin və sərfiyyat materialların alınması respublikanın şəhər və rayonlarında olan perinatal mərkəzlərə göndərilməsi |
| 1.12. | Vərəmlə mübarizə üzrə tədbirlərin maliyyə təminatı | 2,1 | illik peyvənd sifarişləri əsasında BCG vaksini alınaraq peyvənd təqviminə uyğun müvafiq tibb müəssisələrinə verilməsi |
| 1.13. | Koxlear implantasiya əməliyyatları tədbirlərinin maliyyə təminatı | 2,0 | anadangəlmə və ya sonradan qazanılmış eşitmə qüsuru olan şəxslər üzərində koxlear implantasiya əməliyyatının aparılması |
| 1.14. | Uşaqlarda anadangəlmə ürək qüsurlarının aradan qaldırılması tədbirlərinin maliyyə təminatına | 2,0 | yeni doğulmuşlarda və uşaqlarda anadangəlmə ürək qüsurlarının erkən diaqnostikasının və müalicəsinin həyata keçirilməsi |
| 1.15. | Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin | 1,4 | qan xidməti müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsi, müasir |

| | | | |
|---|---|---|---|
| | inkişafına dair tədbirlərin maliyyə təminatına | | avadanlıq və ləvazimatlarla təmin edilməsi, Bakı şəhəri və respublikanın digər şəhər və rayonlarında yerləşən idarə və təşkilatlarda könüllü donorluq aksiyalarının keçirilməsi, təbii fəlakət, qəza və digər fövqəladə hallar zamanı zərərçəkənlərin qan və qanın komponentləri ilə təminatı üçün ehtiyatlar yaradılması və yenilənməsi |

2021-ci ilin dövlət büdcəsində **sosial müdafiə və sosial təminat xərcləri** üçün 3692,7 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 455,7 milyon manat və ya 14,1 faiz çoxdur.

Sosial müdafiə və sosial təminat xərclərinin maliyyələşdirilməsi üçün nəzərdə tutulan xərclərin növbəti ilin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 12,9 faiz təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 1,1 faiz-bənd çoxdur. ÜDM-ə nisbətən həmin xərclər 4,9 faiz təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 0,4 faiz-bənd çoxdur.



Son 5 ildə (2016-2021-ci illər) bu xərclər 1047,4 milyon manat va ya 39,6 faiz artmışdır.

Dövlət Sosial Müdafiəsi Fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün yönəldiləcək vəsait 1631,5 milyon manat təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 442,6 milyon manat və ya 37,2 faiz çoxdur. Bu vəsait hesabına 1,3 milyon nəfərə yaxın əmək pensiyaçısının pensiyalarının bir hissəsinin maliyyələşdirilməsi həyata keçiriləcəkdir.

Dövlətin apardığı uğurlu sosial-iqtisadi siyasət nəticəsində əhalinin gəlir əldə etmək imkanlarının və rifahının yaxşılaşması, yoxsulluq səviyyəsinin azaldılması, aztəminatlı ailələrin, xüsusilə də sosial cəhətdən həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi və digər sosial tədbirlərin maliyyə təminatı üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2021-ci il dövlət büdcəsindən 1567,9 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur. Həmin mənbə hesabına ümumilikdə sosial müavinət və təqaüdlərin maliyyələşdirilməsi üçün 1065,8 milyon manat vəsait nəzərdə tutulur ki, bu da 2020-ci illə müqayisədə 72,8 milyon manat və ya 7,3 faiz çoxdur.



Növbəti ildən ölkədə ehtiyac meyarının həddinin orta hesabla 6,3 faiz artımı və ya 160 manatdan 170 manata çatdırılması nəzərdə tutulur.

2021-ci ildə ünvanlı dövlət sosial yardımının maliyyə təminatı üçün növbəti ilin dövlət büdcəsində 257,7 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə 13,6 milyon manat və ya 5,0 faiz çoxdur.

2021-ci il üçün yaşayış minimumu ölkə üzrə 196,0 manat, o cümlədən əmək qabiliyyətli əhali üçün 207,0 manat, pensiyaçılar üçün 162,0 manat, uşaqlar üçün 175,0 manat məbləğində proqnozlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə müvafiq olaraq orta hesabla 6,0 manat və ya 3,1 faiz çoxdur.

Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsinin təmin edilməsi məqsədilə növbəti ilin dövlət büdcəsində 364,4 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Məcburi köçkünlərə və onlara bərabər tutulan şəxslərə (500 min nəfərə yaxın) ayda 60 manat olmaqla vahid aylıq müavinətin verilməsi üçün 2021-ci ilin dövlət büdcəsində 340,0 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da hər bir məcburi köçkün ailəsinə orta hesabla ayda 270 manat məbləğində vəsaitin müavinət şəklində ödənilməsi deməkdir.

Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər tərəfindən istehlak edilən kommunal xidmətlərin haqqının dövlət büdcəsinin vəsaiti hesabına qarşılanması üçün 2021-ci ilin dövlət büdcəsində 15,5 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Növbəti ilin dövlət büdcəsində Azərbaycan Respublikasının keçmiş Prezidentinin və onun ailə üzvlərinin təminatı xərcləri üçün 343,4 min manat vəsait nəzərdə tutulur.



Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin maliyyə təminatı üçün 37,1 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2020-ci illə müqayisədə 6,3 milyon manat və ya 20,5 faiz çoxdur.

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyinə 2021-ci ilin dövlət büdcəsində 48,0 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2020-ci illə müqayisədə 11,0 milyon manat və ya 29,7 faiz çoxdur.

Ölkədə məşğulluq səviyyəsinin artırılması, işsiz şəxslərin işlə təmin olunması üçün tədbirlər davam etdiriləcəkdir. İri dövlət müəssisələri (Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti, “Azərsu” Açıq Səhmdar Cəmiyyəti, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti və s.) üzrə yaradılmış 30 minə yaxın iş yerinin 2021-ci ildən Dost İş Mərkəzində təşkili, bu iş yerləri üzrə əməkhaqqı xərclərinin dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

Məişət zorakılığına, insan alverinə, erkən nikaha məruz qalmış şəxslər, sağlamlıq imkanları məhdud olan uşaqlar və onların ailə üzvləri ilə sosial, psixoloji və psixo-pedaqoji işin təşkili və bu qəbildən olan digər tədbirlərin maliyyə təminatı, həmçinin Komitə aparatının saxlanılması xərcləri üçün 2021-ci ilin dövlət büdcəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə cəm olaraq 1,5 milyon manat vəsait nəzərdə tutulmuşdur. Həmin vəsait hesabına komitənin tabeliyində olan və 11 rayonda fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzləri tərəfindən qadınlara və uşaqlara yönəldilmiş psixoloji dəstəyin verilməsi, hüquqi məlumatlandırma və zəruri hallarda məsləhətlərin, sosial-psixoloji reabilitasiyanın təşkil edilməsi, fərdi, qrup və ailə terapiyasının həyata keçirilməsi, loqoped xidmətlərinin göstərilməsi, məişət zorakılığı hallarının qarşısının alınması, ailələrin psixo-sosial vəziyyətinin qiymətləndirilməsi, valideyn və uşaq bacarıqlarının inkişaf etdirilməsi, fərdi və qrup inkişafetdirici məşğələlərin, uşaqların asudə vaxtlarının təşkili və digər istiqamətlər üzrə tədbirlərin maliyyə təminatı öz həllini tapmış və həmin xidmətlərdən 6800 nəfərə yaxın aztəminatlı və həssas təbəqədən olan şəxslərin istifadəsi təmin olunur.

İnsan hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası ilə bağlı 2021-ci ilin dövlət büdcəsində 4,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

2021-ci ilin dövlət büdcəsində **sosial müdafiə və sosial təminat sahəsində** aşağıdakı dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsi üçün 160,2 milyon manat vəsait proqnozlaşdırılmışdır.

| Sıra №-si | Dövlət proqramının və tədbirlərin adı | 2021-ci il üçün proqnoz (milyon manatla) | Gözlənilən nəticə |
|---|---|---|---|
| 2.1. | “Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı”nın icrası olaraq işsiz şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə haqqı ödənilən ictimai işlərin əhatə dairəsinin genişləndirilməsi, təşkili mexanizminin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması ilə bağlı xərclər | 159,8 | ictimai iş yerinin yaradılması və işsiz vətəndaşları müvafiq işlərlə təmin edilməsi |
| 2.2. | Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının “Kurort” Səhmdar Cəmiyyəti tərəfindən məcburi köçkünlərə göstərilən xidmətlər üçün ödənilən vəsait | 0,4 | sanatoriyalarda məskunlaşmış məcburi köçkünlərə xidmətlərin göstərilməsi |

2021-ci il üçün **mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət sahələrinin** maliyyələşdirilməsi üçün nəzərdə tutulan xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,5 faiz olmaqla, mütləq ifadədə 418,2 milyon manat təşkil edəcəkdir.



Həmin vəsaitin 177,5 milyon manatı və ya 42,4 faizi (2020-ci illə müqayisədə 2,2 milyon manat və ya 1,3 faiz çox) mədəniyyət və incəsənət sahəsində fəaliyyət (kitabxanalar, muzeylər, qoruqlar, mədəniyyət sarayları, evləri, mərkəzləri, teatrlar, musiqi kollektivlərinin saxlanılmasının maliyyə təminatına) xərclərinə, 67,5 milyon manatı və ya 16,1 faizi (2020-ci illə müqayisədə 15,5 milyon manat və ya 29,9 faiz çox) televiziya, radio və nəşriyyat xərclərinə, 54,0 milyon manatı və ya 12,9 faizi (2020-ci illə müqayisədə 2,2 milyon manat və ya 4,2 faiz çox) bədən tərbiyəsi və gənclər siyasəti tədbirlərinin maliyyələşdirilməsinə, 119,2 milyon manatı və ya 28,5 faizi bu sahələrdə digər müəssisə və tədbirlərlə bağlı xərclərin maliyyələşdirilməsinə yönəldiləcəkdir.





Eyni zamanda qeyd olunmalıdır ki, 2021-ci il dövlət büdcəsində mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahələrinə aid olan digər müəssisə və tədbirlərə ayrılmış xərclərin tərkib hissəsi olmaqla, Azərbaycan kinosunun inkişafı ilə bağlı xərclərə 6,5 milyon manat, Azərbaycanın mədəniyyəti, tarixi, sosial-iqtisadi inkişafı, elmi-texniki və turizm potensialı barədə təbliğat işini genişləndirmək məqsədilə Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən mədəniyyət mərkəzlərinin saxlanılması ilə bağlı xərclərə 6,4 milyon manat vəsait yönəldiləcəkdir.

Xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, ölkənin tarixi və mədəni irsinin təbliği ilə bağlı tədbirlərin, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, digər xalqların diasporları ilə əlaqələr və lobbi quruculuğu ilə bağlı tədbirlərin maliyyələşdirilməsi üçün 7,3 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Kütləvi informasiya vasitələrinin, o cümlədən "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin, İctimai Televiziya və Radio Yayımları Şirkətinin, "Mir" Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyinin, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun fəaliyyətinin təmin olunması məqsədilə 2021-ci ilin dövlət büdcəsində üst-üstə 56,0 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2020-ci illə müqayisədə 6,3 milyon manat və ya 12,7 faiz çoxdur.



2021-ci ilin dövlət büdcəsində VI çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının təmsil olunduğu siyasi partiyaların fəaliyyətinin maliyyələşdirilməsi üçün 4,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Vətəndaş cəmiyyətinin möhkəmlənməsinə və davamlı inkişafına nail olunması, ictimai əhəmiyyətli problemlərin həlli ilə bağlı qeyri-hökumət təşkilarlarına maliyyə yardımının göstərilməsi üçün 2021-ci ilin dövlət büdcəsində Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına 6,3 milyon manat vəsait proqnozlaşmışdır.

Gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsi məqsədilə olimpiya idman komplekslərinin və idman

qurğularının xərclərinin bir hissəsinin qarşılanması üçün 2021-ci ilin dövlət büdcəsindən 8,9 milyon manat vəsait yönəldiləcəkdir.

Növbəti ildə respublika və beynəlxalq səviyyəli idman tədbirlərinin və yarışların keçirilməsi və onlara hazırlıq üçün təlim-məşq toplantılarının, habelə gənclərlə bağlı digər layihələrin və tədbirlərin həyata keçirilməsi üçün növbəti ilin dövlət büdcəsində 28,2 milyon manat vəsait ayrılması proqnozlaşdırılır.




Koronavirus (COVID-19) pandemiyasının dünyada yayılması ilə bağlı 2020-ci ildə təxirə salınmış və 2021-ci ildə Yaponiyanın paytaxtı Tokio şəhərində keçirilməsi gözlənilən XXXII Yay Olimpiya Oyunlarına hazırlıq və iştirakla bağlı növbəti ilin dövlət büdcəsində 8,7 milyon manat, XVI yay Paraolimpiya Oyunlarında iştirak xərcləri üçün 0,5 milyon manat vəsait nəzərdə tutulmuşdur.

2021-ci ilin dövlət büdcəsinin mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri 4,7 milyon manat təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 0,2 milyon manat və ya 4,3 faiz çoxdur.

2021-ci ilin dövlət büdcəsində mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən fəaliyyət sahəsi üzrə ölkə ərazisində yerləşən tarixi, mədəni irsə aid elementlərin, abidələrin elmi, tarixi və mədəni cəhətdən öyrənilməsinin, təbliğinin, məqsədyönlü istifadəsinin, qorunub saxlanmasının və inkişafının təmin edilməsi, nəşriyyat və kinematoqrafiya sahəsinin inkişaf etdirilməsi məqsədilə tədbirlərin maliyyələşdirilməsi üçün 17,4 milyon manat vəsait proqnozlaşdırılmışdır.



| Sıra №-si | Tədbirlərin adı | 2021-ci il üçün proqnoz (milyon manatla) | Gözlənilən nəticə |
|---|---|---|---|
| 3.1. | Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tərəfindən keçirilməsi nəzərdə tutulan tədbirlərin, layihələrin və Komitənin tabeliyində olan Azərbaycan Diasporuna Dəstək Fondunun maliyyələşdirilməsi | 7,3 | xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində tədbirlər, Azərbaycan xalqının tarixi və mədəni irsinin təbliği ilə bağlı tədbirlər, digər xalqların diasporları ilə əlaqələr və lobbi quruculuğu ilə bağlı tədbirlərin həyata keçirilməsi |
| 3.2. | Azərbaycan kinosunun inkişafının təmin edilməsi ilə bağlı tədbirlər | 6,5 | Dövlət sifarişi ilə bədii, sənədli və çizgi filmlərinin istehsalı |

| | | | |
|---|---|---|---|
| 3.3. | Dünyanın nüfuzlu televiziya kanallarında Azərbaycan mədəniyyətinin təbliği | 2,0 | Dünyanın nüfuzlu televiziya kanallarında, informasiya portalında Azərbaycan mədəniyyətinin təbliği üçün verilişlərin, reklam çarxlarının hazırlanması və yayımlanması bağlı |
| 3.4. | Azərbaycan teatrının inkişafının təmin edilməsi ilə bağlı tədbirlər və teatrlarda tamaşaların hazırlanması | 1,6 | Azərbaycan Respublikasında fəaliyyət göstərən teatr-tamaşa müəssisələrinin maddi-texniki təminatının yaxşılaşdırılması və dövlət sifarişi ilə tamaşaların hazırlanması |

## 10.3. Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması xərcləri



Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərcləri üçün 2021-ci ilin dövlət büdcəsi xərclərinin 23,4 faizi həcmində (2020-ci illə müqayisədə 2,5 faiz-bənd çox) və ya 6678,6 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2020-ci ilə nisbətən 937,7 milyon manat və ya 16,3 faiz çoxdur.

Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə orqanlarının və prokurorluğun saxlanılması xərcləri üzrə nəzərdə tutulmuş vəsaitin 4585,8 milyon manatı və ya 68,7 faizi (2020-ci ilə nisbətən 781,6 milyon manat və ya 20,5 faiz çox) müdafiə və milli təhlükəsizliyin maliyyələşdirilməsinə, 2092,8 milyon manatı və ya 31,3 faizi (2020-ci ilə nisbətən 156,1 milyon manat və ya 8,1 faiz çox) məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması xərclərinə yönəldiləcəkdir.



Kirayəyə götürülmüş yaşayış sahəsinə görə yaşayış yeri olmayan hərbi qulluqçulara (ehtiyatda və istefada olan hərbi qulluqçular nəzərə alınmaqla) ödənilən pul kompensasiyası üçün 2021-ci ilin dövlət büdcəsində 85,2 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Aztəminatlı əhaliyə dövlət hesabına həyata keçirilən hüquqi yardım üçün növbəti ilin dövlət büdcəsində 4,8 milyon manat vəsait proqnozlaşdırılmışdır.



2021-ci ilin dövlət büdcəsinin müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq xərcləri bölmələrindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri 294,7 milyon manat təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 17,5 milyon manat və ya 6,3 faiz çoxdur.

## 10.4. Əsaslı xərclərin istiqamətləri

2021-ci il dövlət büdcəsində əsaslı xərclərin maliyyələşdirilməsi üçün 8330,3 milyon manat və ya xərclərin 29,2 faizi həcmində vəsait nəzərdə tutulmuşdur ki, bu da 2020-ci illə müqayisədə 607,8 milyon manat və ya 7,9 faiz çoxdur.

### 10.4.1. İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidənqurulması



Beynəlxalq hüququn norma va prinsiplərinə zidd olaraq Azərbaycan torpaqlarını işğal altında saxlayan və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının işğal olunmuş bütün ərazilərimizdən qoşunlarının çıxarılmasını tələb edən qətnamələrinə məhəl qoymayan işğalçı Ermənistan qoşunlarının ölkəmizə davam edən təcavüzünün qarşısının alınması və əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsi uğrunda başlanan Vətən müharibəsində Azərbaycan Respublikasının müzəffər ordusu böyük şücaət və qəhrəmanlıq göstərərək tarixi ərazilərmizi işğaldan azad etmiş və bunun nəticəsi olaraq işğalçı Ermənistan dövlətini kapitulyasiya aktına imza atmağa məcbur etmişdir.

Ermənistanın hərbi işğalı nəticəsində ölkə iqtisadiyyatına ciddi ziyan vurulmuş, sosial-iqtisadi obyektlər məhv edilmiş və Azərbaycan xalqının bir çox tarixi, maddi-mədəniyyət abidələri dağıdılmışdır.



İşğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin bərpası və yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması (elektrik enerjisi, təbii qaz, su, rabitə, yol, təhsil, səhiyyə, mədəniyyət, mənzil-kommunal və digər zəruri infrastrukturların və mədəni-tarixi abidələrin bərpası və yenidənqurulması, yaşayış evlərinin tikintisi və s.) məqsədi ilə 2021-ci ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

### 10.4.2. Dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri

2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya) xərcləri üçün 2835,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.



Həmin vəsaitin 2225,0 milyon manatı sosial və infrastruktur təyinatlı layihələrin (sosial-mədəni və məişət, inzibati, istehsalat təyinatlı layihələrin, bina və qurğuların, yolların, meliorasiya və su təsərrüfatı obyektlərinin, içməli su təminatı və kanalizasiya sistemlərinin tikintisinə, yenidən qurulmasına, əsaslı təmirinə, qeyri-maliyyə aktivlərinin, o cümlədən əsas vəsaitlərin, tikililərin, yaşayış və qeyri-yaşayış binalarının və s. Alınmasına), 610,0 milyon manatı beynəlxalq kreditor qurumlarının təqdim etdiyi kreditlər hesabına həyata keçirilən sosial və infrastruktur təyinatlı layihələrdə ("Avtomobil və dəmir yolları şəbəkəsinin yenidən qurulması və təkmilləşdirilməsi", "Kənd Təsərrüfatının Rəqabətliyinin Gücləndirilməsi", "Kənd Yerlərinin Kompleks İnkişafı", "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu", "Özünəməşğulluq proqramının genişləndirilməsi" layihələri) Azərbaycan tərəfinin iştirak payının maliyyələşdirilməsinə yönəldiləcəkdir.

## 10.4.3 Xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər

Ölkənin müdafiə potensialının gücləndirilməsi və silahlı qüvvələrin maddi-texniki təminatının daha da yaxşılaşdırılması məqsədilə dövlət büdcəsinin əsaslı xərclərindən xüsusi müdafiə təyinatlı layihələr və tədbirlərin maliyyə təminatı üçün 2100,0 milyon manat, cari illə müqayisədə 500,0 milyon manat və ya 31,3 faiz çox vəsait nəzərdə tutulmuşdur.



## 10.4.4. Digər əsaslı xərclər

Büdcə və qeyri-büdcə təşkilatları tərəfindən tikinti, bərpa, yenidənqurma, əsaslı təmir və müxtəlif əsaslı alışların həyata keçirilməsi üçün 1195,3 milyon manat vəsait proqnozlaşdırılır.



Həmin vəsaitin 290,0 milyon manatı "Avtomobil Yolları" Məqsədli Büdcə Fondu vasitəsilə ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının və onlarla əlaqədar mühəndis qurğularının, təhkim zolaqlarının istifadəsi, saxlanılması və istismarına sərf ediləcəkdir.

Əhalinin mənzilə olan tələbatının ödənilməsi və məişət şəraitinin yaxşılaşdırılması məqsədilə güzəştli ipoteka kreditlərinin verilməsi üçün Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fonduna 87,5 milyon manat (güzəştli ipoteka kreditlərinin verilməsi üçün 81,0 milyon manat, sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi üçün 6,5 milyon manat), "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi" publik hüquqi şəxsə 73,1 milyon manat vəsait yönəldiləcəkdir.

Qalan 744,7 milyon manat vəsait isə (müdafiə, hüquq-mühafizə orqanları və büdcə təşkilatlarının büdcədənkənar vəsaitlər də nəzərə almaqla) digər büdcə və büdcədən maliyyə yardımı alan təşkilatlar tərəfindən həyata keçiriləcək tikinti, bərpa, yenidənqurma, əsaslı təmir işlərinə, həmçinin müxtəlif əsaslı alışların həyata keçirilməsinə sərf ediləcəkdir.

## 10.5. Kənd təsərrüfatı, mənzil və kommunal təsərrüfatı və ətraf mühitin mühafizəsi xərcləri

Kənd təsərrüfatı, mənzil və kommunal təsərrüfatı və ətraf mühitin mühafizəsi xərclərinə 2021-ci ilin dövlət büdcəsinin xərclərindən 1481,4 milyon manat vəsait ayrılacaqdır ki, bu da 2020-ci illə müqayisədə 62,3 milyon manat və ya 4,4 faiz çoxdur. Həmin xərclərin dövlət büdcəsinin xərclərinin tərkibində xüsusi çəkisi 5,2 faiz təşkil edəcəkdir.

2021-ci ilin dövlət büdcəsində kənd təsərrüfatı bolməsi üzrə 943,0 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2020-ci illə müqayisədə 45,4 milyon manat və ya 5,1 faiz çoxdur.



Həmin vəsait hesabına **kənd təsərrüfatı tədbirləri** üçün 496,3 milyon manat, **baytarlıq tədbirləri** üçün 30,0 milyon manat, **meliorasiya, irriqasiya və suvarma sistemlərinin maliyyə təminatı** üçün 405,8 milyon manat, **kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər** üçün 10,9 milyon manat vəsait proqnozlaşdırılmışdır.

Son 5 ildə (2016-2021-ci illər) bu xərclər 357,6 milyon manat va ya 61,1 faiz artmışdır.

Aqrar sahədə aparılan islahat tədbirlərinə uyğun olaraq işğaldan azad olunmuş ərazilərdən yeni torpaqların əkin dövrüyyəsinə cəlb edilməsi ilə bağlı tələb olunan əlavə xərclər də nəzərə alınmaqla Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün 475,7 milyon manat vəsait proqnozlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə 65,0 milyon manat və ya 15,8 faiz çoxdur.



Həmin vəsait hesabına yeni subsidiya mexanizminin tətbiqinə müvafiq olaraq fermerlərə kənd təsərrüfatı istehsal vasitələrinin alınmasına sərf olunan xərclərin bir hissəsini kompensasiya etmək məqsədilə bitki becərilən sahənin hər hektarına görə verilən əkin, tədarükçülərə təhvil verilən bitkiçilik məhsulunun hər tonuna görə əkin subsidiyasına əlavə olaraq verilən məhsul, sertifikatlı 1-ci və 2-ci reproduksiyalı toxum və tinglərin satışına görə verilən toxum, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması, yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər bir sağlam buzova görə verilən heyvan, hər arı ailəsinə (pətəyə) görə verilən arı, ölkədə istehsal edilib tədarükçülərə təhvil verilən yaş baramanın hər kiloqramına görə verilən barama subsidiyalarının, habelə lizinqə verilən və lizinq yolu ilə satılan texnikalara, suvarma sistemləri dəstinə və damazlıq heyvanlara dövlət büdcəsinin vəsaiti hesabına güzəştlərin tətbiqi, kənd təsərrüfatı sahəsində digər tədbirlərin maliyyələşdirilməsi proqnozlaşdırılır.

Kənd təsərrüfatı sahəsinin maddi-texniki təminatının möhkəmləndirilməsi, regional aqrokimya laboratoriyalarının saxlanılması, bitki mühafizəsi sahəsində xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinin, bitki sortlarının qeydiyyatı və toxum nəzarəti tədbirlərinin maliyyələşdirilməsi, kənd təsərrüfatı heyvanlarının və bitkilərinin sığortalanması xərclərinə üst-üstə 20,7 milyon manat məbləğində vəsait proqnozlaşdırılmışdır.



Ölkədə heyvan sağlamlığının təmin edilməsi və heyvandarlıqda məhsuldarlığın artırılması, vaksinlərin və baytarlıq ləvazimatlarının alınması sahəsində baytarlıq istiqamətində dövlət dəstəyi olaraq 2021-ci ilin dövlət büdcəsində **baytarlıq tədbirlərinə** 30,0 milyon manat vəsait proqnozlaşdırılmışdır.

Ölkə ərazisində mövcud olan su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi, su itkilərinin azaldılması, fermerlərin suvarma suyu ilə təchizatının yaxşılaşdırılması, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, kənd təsərrüfatının inkişafı ilə bağlı yeni torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarma sahələrinin genişləndirilməsi, suvarma subartezian quyularının saxlanılması və digər **meliorasiya tədbirlərinin maliyyə təminatı** üçün 2021-ci ilin dövlət büdcəsində Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə 405,8 milyon manat vəsait yönəldiləcəkdir.



2021-ci ilin dövlət büdcəsinin **kənd təsərrüfatı xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar** xərcləri 10,9 milyon manat təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 1,6 milyon manat və ya 17,3 faiz çoxdur.

Nəticəəsaslı büdcə mexanizminə keçid çərçivəsində kənd təsərrüfatı sektorunun ortamüddətli dövr üçün strateji planı hazırlanmış və büdcə xərclərinin funksional təsnifatının "Kənd təsərrüfatı" bölməsində nəzərdə tutulan vəsait bu planda əks olunan strateji hədəflərə nail olmaq məqsədilə **15 subproqram** və **35 tədbiri** özündə birləşdirən **6 proqramın** maliyyələşdirilməsi üçün ayrılmışdır. Eyni zamanda, sözügedən sektorda nəzərdə tutulan proqramların illik icra vəziyyətini monitorinq etməyə və nəticələrini ölçməyə, eləcə də sərf olunmuş xərclərin səmərəliliyini və nəticəliliyini qiymətləndirməyə imkan verən **260 monitorinq** göstəricisi müəyyən edilmişdir.

2021-ci il dövlət büdcəsində **mənzil və kommunal xərcləri** üzrə 262,8 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 14,7 milyon manat və ya 5,9 faiz çoxdur. Həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 0,9 faiz təşkil edəcəkdir.

Həmin mənbədən dövlət müəssisələrində satış tariflərinin məhsulun maya dəyərindən aşağı olması nəticəsində göstərilən xidmətlərə görə (su və istilik təchizatı, lift təsərrüfatı üzrə qiymət tarifləri) yaranmış zərərin örtülməsi üçün "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə 38,0 milyon manat, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinə 26,0 milyon manat, lift təsərrüfatına 5,0 milyon manat, cəm olaraq 69,0 milyon manat subsidiya proqnozlaşdırılmışdır.



Mənzil kommunal xərclərinin 84,0 milyon manatı və ya 32,0 faizi rayon və şəhər mərkəzlərində və qəsəbələrdə dövlətin balansında olan yaşayış binalarının əsaslı təmiri, abadlıq işlərinin həyata keçirilməsi, yaşıllıqların salınması, onlara xidmət və landşaft quruluşu, küçələrin işıqlandırılması və digər işlərin yerinə yetirilməsinə yönəldiləcəkdir.



Bununla yanaşı, mənzil və kommunal təsərrüfatı xərc bölməsindən 20 il və daha çox xidmət etmiş işləyən və ehtiyatda olan hərbi qulluqçuların mənzillə təmin olunması və onlara pul kompensasiyasının verilməsi ilə bağlı xərclər üçün 35,0 milyon manat vəsaitin ayrılması nəzərdə tutulmuşdur.

2021-ci il dövlət büdcəsində **ətraf mühitin və təbiətin mühafizəsi, bioloji zənginliyin qorunması, torpaq və yerquruluşu, hidrometeorologiya, meşə təsərrüfatı, balıqçılıq və ovçuluq, ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi, ətraf mühitin mühafizəsi üzrə tətbiqi tədqiqatlar və digər xidmətlər üzrə xərclər** üçün 275,5 milyon manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2020-ci illə müqayisədə 2,2 milyon manat və 0,8 faiz çoxdur. Həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 1,0 faiz təşkil edəcəkdir.



Növbəti ilin dövlət büdcəsində ətraf mühitin mühafizəsi xərcləri üçün ayrılan vəsaitin 232,8 milyon manatı ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi tədbirlərinə, 13,4 milyon manatı meşə təsərrüfatı tədbirlərinə, 10,8 milyon manatı hidrometeorologiya tədbirlərinə, 7,1 milyon manatı bioloji zənginliyin qorunması tədbirlərinə, 1,7 milyon manatı balıqçılıq və ovçuluq tədbirlərinə, 9,7 milyon manatı ətraf mühitin mühafizəsi üzrə tətbiqi tədqiqatlar və digər xidmətlər üçün nəzərdə tutulmuşdur.

Yaşayış məntəqələrinə aid olan kommunal təyinatlı infrastrukturların bərpası, yenidən qurması və abadlaşdırılması üçün 13,2 milyon manat, "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinə subsidiya formasında 33,0 milyon manat vəsait ayrılacaqdır.



Nəticəəsaslı büdcə mexanizminə keçid çərçivəsində ətraf mühitin mühafizəsi sektorunun ortamüddətli dövr üçün strateji planı hazırlanmış və büdcə xərclərinin funksional təsnifatının "Ətraf mühitin mühafizəsi" bölməsində nəzərdə tutulan vəsait bu planda əks olunan strateji hədəflərə nail olmaq məqsədilə **13 sub-proqram** və **40 tədbiri** özündə birləşdirən **5 proqramın** maliyyələşdirilməsi üçün ayrılmışdır. Eyni zamanda sözügedən sektorda nəzərdə tutulan proqramların illik icra vəziyyətini monitorinq etməyə və nəticələrini ölçməyə, eləcə də sərf olunmuş xərclərin

səmərəliliyini və nəticəliliyini qiymətləndirməyə imkan verən **131 monitorinq** göstəricisi müəyyən edilmişdir.

## 10.6. İqtisadi fəaliyyət və əsas bölmələrə aid edilməyən xərclər

2021-ci il dövlət büdcəsində **iqtisadi fəaliyyətlə bağlı xərclərə** (dövlət əsaslı vəsait qoyuluşu və işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclər istisna olmaqla) 912,5 milyon manat vəsait nəzərdə tutulmuşdur. Həmin xərclərin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 3,2 faiz təşkil edəcəkdir.

Növbəti ilin dövlət büdcəsinin iqtisadi fəaliyyətlə bağlı xərclər üzrə nəzərdə tutulan vəsaitin 208,7 milyon manatı nəqliyyat və rabitə xərclərinə, 55,4 milyon manatı iqtisadi və kommersiya fəaliyyətinə, 1,6 milyon manatı tikinti xərclərinə, 15,1 milyon manatı geodeziya və faydalı qazıntılar xərclərinə, 1,5 milyon manatı iqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar xərclərinə, 628,3 milyon manatı iqtisadi fəaliyyətlə bağlı digər xidmətlərin maliyyə təminatı üçün proqnozlaşdırılır.



2021-ci ilin dövlət büdcəsində yeni nəsil şəxsiyyət vəsiqələrinin, biometrik pasportların hazırlanması üçün 39,1 milyon manat məbləğində vəsait nəzərdə tutulur.

2021-ci ilin dövlət büdcəsində elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlərin maliyyə təminatı üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə 10,0 milyon manat vəsait proqnozlaşdırılmışdır.



Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyətinin mərhələlərlə beynəlxalq standartlara çatdırılması və turizmin rəqabət qabiliyyətinin artırılması məqsədilə 2021-ci ilin dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agetliyinə 55,4 milyon manat vəsait yönəldiləcəkdir.

2021-ci il dövlət büdcəsindən Azərbaycanın xarici ölkələrdə fəaliyyət göstərən ticarət nümayəndəliklərinin saxlanılması xərcləri üçün 3,9 milyon manat vəsait proqnozlaşdırılmışdır.



**Nəqliyyat və rabitə xərcləri** üçün 2021-ci il dövlət büdcəsindən 208,7 milyon manat vəsait proqnozlaşdırılmışdır.

Həmin məbləğdən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti üçün 10,0 milyon manat (Naxçıvan Muxtar Respublikasına edilən aviareyslərə görə yaranmış zərərin ödənilməsi), "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti üçün 39,2 milyon manat (sərnişindaşıma xidmətlərinə görə subsidiyanın verilməsi), "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti üçün 27,3 milyon manat vəsait nəzərdə tutulmuşdur.




Dövlət orqanları üçün lisenziyalı kompüter proqramlarının alınması, "Hökumət buludu"nun (G-cloud) yaradılması və bu sistemə qoşulmuş qurumlar üzrə müvafiq xidmət xərclərinin örtülməsi və digər

zəruri xərclərin maliyyələşdirilməsi üçün 2021-ci ilin dövlət büdcəsindən 19,0 milyon manat vəsait ayrılacaqdır.

2021-ci ilin dövlət büdcəsinin iqtisadi fəaliyyətlə bağlı xərcləri bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri 1,0 milyon manat təşkil edəcəkdir.

2021-ci il dövlət büdcəsinin **əsas bölmələrə aid edilməyən xərclərində** 1478,1 milyon manat vəsait nəzərdə tutulmuşdur ki, bu da 2020-ci illə müqayisədə 766,9 milyon manat və ya 34,2 faiz azdır.

Əvvəlcədən dövlət büdcəsində nəzərdə tutulmayan bir sıra zəruri xərclərin maliyyələşdirilməsi məqsədilə 2021-ci il dövlət büdcəsində Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu üçün 475,0 milyon manat, dövlət büdcəsinin Ehtiyat Fondu üçün 110,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Dövlətin adından yaradılan 29 publik hüquqi şəxslərə 2021-ci ilin dövlət büdcəsinin bir sıra xərc bölmələri üzrə dövlət sifarişi ilə dövlət büdcəsi hesabına təyinatlı tədbirlərin həyata keçirilməsi ilə bağlı göstərilən xidmətlərə görə yeni maliyyələşmə mexanizminə müvafiq olaraq məqsədli vəsaitlərin ödənilməsi üçün 324,2 milyon manat vəsait proqnozlaşdırılmışdır.

Ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin əmlakının, dövlətə məxsus əmlakın və dövlət büdcəsindən maliyyələşən təşkilatlara məxsus nəqliyyat vasitələrinin icbari sığortası xərcləri üçün növbəti ilin dövlət büdcəsində 23,0 milyon manat vəsait nəzərdə tutulmuşdur. Xərclərin ünvanlılığının və səmərəliliyinin artırılması məqsədilə növbəti ildən həmin xərclər ayrı-ayrı xərc bölmələrindən azaldılaraq aidiyyəti xərc bölməsində icmallaşdırılmışdır.




2021-ci ilin dövlət büdcəsində fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər üçün 20,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Ölkədə dövlət ehtiyatlarının (ərzaq, dərman, tibbi ləvazimatlar, avadanlıq və yanacaq ehtiyatı) yaradılması üçün 30,0 milyon manat vəsait nəzərdə tutulmuşdur.

2021-ci ilin dövlət büdcəsində “Avtomobil Yolları” Məqsədli Büdcə Fondunun gəlirləri və xərcləri bərabər olmaqla 290,0 milyon manat təşkil edəcəkdir.

2021-ci il dövlət büdcəsindən bələdiyyələrə 6,4 milyon manat maliyyə yardımı, o cümlədən 5,1 milyon manat dotasiya və 1,3 milyon manat subvensiyanın ayrılması nəzərdə tutulmuşdur.

2021-ci ilin dövlət büdcəsinin əsas bölmələrə aid edilməyən xidmətlər bölməsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri 31,0 milyon manat təşkil edəcəkdir.



2021-ci ilin dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə qaytarmaq şərtilə ssudaların verilməsi üçün vəsait nəzərdə tutulmamışdır.

## 10.7. Dövlət borcu, dövlət borcuna xidmət edilməsi ilə bağlı xərclər və dövlət borclanmalarının yuxarı hədləri (limitləri)

Ölkədə həyata keçirilən iqtisadi islahatların dəstəklənməsi və ayrı-ayrı prioritet layihələrin maliyyələşdirilməsi məqsədilə beynəlxalq maliyyə-bank qurumları və digər kredit təşkilatları ilə imzalanmış müqavilələr əsasında istifadə olunmuş kreditlər və həyata keçirilmiş əsas (ana) borc ödənişləri nəzərə alınmaqla, 2020-ci il 1 iyul tarixli vəziyyətinə Azərbaycan Respublikasının birbaşa xarici dövlət borcu 8213,2 milyon ABŞ dolları olmuşdur. 2020-ci ilin ilk 6 ayı ərzində birbaşa xarici dövlət borcunun cari ilin əvvəli ilə müqayisədə 106,8 milyon ABŞ dolları məbləğində endirilməsinə nail olunmuşdur.



Bununla belə, 2020-ci ilin əvvəlindən dünyada tüğyan edən koronavirus (COVID-19) pandemiyasının ölkə iqtisadiyyatına mənfi təsirləri, ölkəmizin neft hasilatının azaldılması ilə bağlı OPEC+ razılaşmasına qoşulması, habelə dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmalar nəticəsində 2020-ci il üzrə ÜDM 82,8 milyard manat həcmində və ya 2,4 faiz real artıma qarşı, hal-hazırda mənfi 4,0 faiz real artım tempi nümayiş etdirəcəyi, nominal ifadədə isə 71,8 milyard manat təşkil edəcəyi gözlənilir. Belə olan təqdirdə, birbaşa xarici dövlət borcunun məbləğinin 106,8 milyon ABŞ dolları azalmasına baxmayaraq, xarici dövlət borcunun ÜDM-a nisbəti 17,3 faizdən 19,5 faizədək artmışdır.

Xarici dövlət borc portfelinin 62,7 faizini sabit, 37,3 faizini isə dəyişkən faiz dərəcəsi ilə olan borclar təşkil etmişdir. İmzalanmış müqavilələrə uyğun olaraq xarici dövlət borcunun 42,5 faizi 10 ilə qədər olan müddətdə, 51,5 faizi 10 ildən 20 ilə qədər olan müddətdə, 6,0 faizi isə 20 ildən yuxarı olan müddətdə kreditorlara qaytarılmalıdır. Birbaşa xarici dövlət borcunun 82,0 faizi ABŞ dollarında, 8,3 faizi avroda, 4,6 faizi XBH-da (Beynəlxalq Valyuta Fondunun Xüsusi Borcalma Hüquqları), 3,9 faizi yapon yenində, 1,3 faizi isə digər valyutalarda cəlb olunmuşdur.

Dövlət müəssisələri tərəfindən cəlb edilmiş xarici borclara verilmiş dövlət zəmanətləri üzrə 745,0 milyon ABŞ dolları (ÜDM-in 1,8 faizi) məbləğində şərti öhdəliklər nəzərə alınmaqla Azərbaycan Respublikasının xarici dövlət borcu 8958,2 milyon ABŞ dolları və ya ÜDM-in 21,3 faizini təşkil etmişdir. Cari ilin əvvəli ilə müqayisədə şərti öhdəliklər daxil olmaqla xarici dövlət borcunun məbləği 132,8 milyon ABŞ dolları həcmində azalmış, ÜDM-ə nisbətdə isə 2,4 faiz artmışdır.

Hesabat dövrünə birbaşa daxili dövlət borcu 1320,1 milyon manat, dövlət zəmanəti ilə cəlb edilmiş daxili kreditlər üzrə 130,0 milyon manat məbləğində şərti öhdəliklər də nəzərə alınmaqla daxili dövlət borcunun ümumi məbləği 1450,1 milyon manat və ya ÜDM-in 2,0 faizini təşkil etmişdir.

2021-ci il dövlət büdcəsində dövlət borclarına xidmətlə bağlı xərclər (əsas borc və faizlər üzrə xərclər) üçün 2198,8 milyon manat məbləğində vəsait nəzərdə tutulur. Həmin xərclərin 2031,7 milyon manatını xarici dövlət borcuna xidmət xərcləri, 167,1 milyon manatını isə daxili dövlət borcuna xidmət xərcləri təşkil edir. Xarici dövlət borcuna xidmət xərclərinin 1753,0 milyon manat məbləğində hissəsinin birbaşa cəlb edilmiş kreditlər üzrə xərclərə, 278,7 milyon manat məbləğində hissəsi isə Azərbaycan Respublikası Hökumətinin müvafiq qərarları əsasında bir sıra dövlət müəssisələri tərəfindən dövlət zəmanəti ilə cəlb olunmuş öhdəliklərə xidmət xərclərinə istifadə olunması nəzərdə tutulur. Birbaşa xarici dövlət borcuna xidmət xərcləri hesabına 1322,5 milyon manat məbləğində əsas, 430,5 milyon manat məbləğində faiz ödənişləri, daxili dövlət borcu üzrə isə 6,9 milyon manat məbləğində əsas, 160,2 milyon manat məbləğində faiz ödənişləri təmin ediləcəkdir.

Cari il ilə müqayisədə 2021-ci ildə borca xidmət xərclərinin artmasının əsas səbəbləri aşağıdakılardır:

1. əvvəlki illərdə imzalanmış bir sıra kredit müqavilələri üzrə əsas borcun qaytarılmasına 2021-ci ildən etibarən başlanılması;

2. Azərbaycan Respublikası Hökumətinin müvafiq qərarları əsasında bir sıra dövlət müəssisələri tərəfindən dövlət zəmanəti ilə cəlb olunmuş və dövlət büdcəsinin vəsaitləri hesabına xidmət olunan öhdəliklər üzrə ödənişlərin 2020-ci ildə (426,7 milyon manat) "Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu"nun vəsaiti hesabına təmin edilməsi üzrə müvafiq qərar qəbul edilmişdir. Məhz bu səbəbdən 2020-ci il dövlət büdcəsində dövlət borcuna xidmət xərcləri bir qədər az olmuşdur.

Azərbaycan Respublikasının 2021-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddinin (limitin) 1300,0 milyon manat, xarici dövlət borclanmasının yuxarı həddinin (limitin) 1200,0 milyon manat və il ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddinin (limitin) 1000,0 milyon manat məbləğində olması təklif edilir.

## 10.8. Beynəlxalq münasibətlər, beynəlxalq təşkilatlara üzvlük haqları və digər beynəlxalq fəaliyyətlə bağlı xərclər



2021-ci ilin dövlət büdcəsinin layihəsində beynəlxalq münasibətlər xərcləri üçün 274,3 milyon manat vəsait proqnozlaşdırılmışdır. Bu xərclərin 18,5 milyon manatı beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq (üzvlük haqqı) xərclərinə (BMT-nin Katibliyi, İslam Əməkdaşlıq Təşkilatı və onun qurumları, Müstəqil Dövlətlər Birliyinə (MDB), Avropa Şurası və onun qurumları, Birləşmiş Nüvə Tədqiqatları İnstitutu və digər təşkilatlar), 7,5 milyon manatı beynəlxalq və regional maliyyə institutları ilə əməkdaşlıq üzrə xərclərinə, 135,3 milyon manatı Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının saxlanması xərclərinə, 7,0 milyon manatı digər beynəlxalq fəaliyyətlə bağlı xərclərə, 10,0 milyon manatı Azərbaycan Respublikasının xaricdəki diplomatik nümayəndəliklərinin və konsulluqlarının fəaliyyəti ilə bağlı digər xərclərə, 96,0 milyon manatı beynəlxalq, ölkə səviyyəli və bu qəbildən olan digər tədbirlərin keçirilməsi ilə bağlı xərclərə yönəldiləcəkdir.

Eyni zamanda 2021-ci ilin dövlət büdcəsinin layihəsində xarici yardımlar üzrə xərclərin maliyyələşdirilməsi üçün 36,8 milyon manat vəsait proqnozlaşdırılır.

## 10.9. Dövlət büdcəsinin yerli gəlir və xərcləri

2021-ci il dövlət büdcəsi gəlirlərinin tərkib hissəsi olan yerli gəlirləri 805,5 milyon manat məbləğində nəzərdə tutulur ki, bu da 2020-ci illə müqayisədə 40,9 milyon manat və ya 5,4 faiz çoxdur.

2021-ci ildə yerli xərcləri tənzimləmək üçün dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılan maliyyə yardımının (dotasiyanın) yerli xərclərin tərkibində xüsusi çəkisi 6,3 faiz təşkil edəcəkdir.



Respublikanın 40 rayon və şəhərləri (Bakı, Gəncə, Lənkəran, Mingəçevir, Naftalan, Sumqayıt, Şəki, Şirvan, Yevlax şəhərləri və Abşeron, Ağcabədi, Ağsu, Astara, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Daşkəsən, Göyçay, Göygöl, Hacıqabul, Xaçmaz, İmişli, İsmayıllı, Kürdəmir, Qazax, Qəbələ, Quba, Qubadlı, Qusar, Masallı, Neftçala, Saatlı, Sabirabad, Salyan, Siyəzən, Şabran, Şamaxı, Şəmkir və Tovuz rayonları) ilə yanaşı Xızı və Qobustan rayonları da 2021-ci ildən xərclərini öz gəlirləri hesabına təmin edəcəklər.

2021-ci ildə dövlət büdcəsinin yerli xərcləri 859,6 milyon manat məbləğində proqnozlaşdırılır ki, bu da 2020-ci illə müqayisədə 44,8 milyon manat və ya 5,5 faiz çoxdur.

Yerli xərclərin 322,5 milyon manatı və ya 37,5 faizi təhsil xərclərinə (məktəbəqədər uşaq müəssisələrinin maliyyələşdirilməsi xərcləri), 174,7 milyon manatı və ya 20,3 faizi ətraf mühitin mühafizəsi xərclərinə (abadlaşdırma xidmətləri haqqının ödənilməsi və təmir işləri ilə bağlı xərclər),



160,1 milyon manatı və ya 18,6 faizi icra hakimiyyəti orqanlarının saxlanılması xərclərinə, 116,5 milyon manatı və ya 13,6 faizi mənzil və kommunal təsərrüfatı xərclərinə, 43,6 milyon manatı və ya 5,1 faizi nəqliyyat və rabitə xərclərinə, 13,1 milyon manatı və ya 1,5 faizi mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərclərinə və 29,1 milyon manatı və ya 3,4 faizi digər xərclərə yönəldiləcəkdir.

İqtisadi təsnifata uyğun olaraq 2021-ci il dövlət büdcəsinin yerli xərclərin tərkibində əməyin ödənişi xərcləri 38,2 faiz olmaqla 328,5 milyon manat, iş və xidmətlərin alınması xərcləri 34,4 faiz olmaqla 295,6 milyon manat, malların satınalınması ilə bağlı xərclər 13,7 faiz olmaqla 118,0 milyon manat, qeyri-maliyyə aktivlərinə aid olan xərclər 9,7 faiz olmaqla 82,9 milyon manat, subsidiyalar 3,7 faiz olmaqla 32,0 milyon manat və sosial ödənişlər xərcləri 0,3 faiz olmaqla 2,6 milyon manat təşkil edəcəkdir.

Növbəti ildə Gəncə, Lənkəran, Sumqayıt və Şirvan şəhərlərində yerləşən onkoloji xəstəxanalar həmin şəhərlərin yerli xərclərdən çıxarılaraq "Səhiyyə" bölməsinin mərkəzləşdirilmiş xərclərində Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin büdcəsində proqnozlaşdırılmışdır.

## 11. Dövlət büdcəsi kəsirinin yuxarı həddi və onun maliyyələşdirilməsi

2021-ci ildə dövlət büdcəsi kəsirinin yuxarı həddi 3116,0 milyon manat məbləğində nəzərdə tutulur. 2021-ci ildə dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 4,1 faiz təşkil edəcəkdir ki, bu da 2020-ci illə müqayisədə 0,6 faiz-bənd azdır.




Kəsirin qarşılanmasının aşağıdakı mənbələr hesabına həyata keçirilməsi nəzərdə tutulur:

- imzalanmış kredit müqavilələrinə uyğun olaraq 610,0 milyon manat həcmində layihə maliyyələşdirilməsi əsasında cəlb edilən kreditlər,
- 1895,0 milyon manat həcmində yeni daxili və xarici borclanma,

- 500,0 milyon manat həcmində 2021-ci ilin 1 yanvar tarixinə olan dövlət büdcəsinin vahid xəzinə hesabının ehtimal olunan qalığı və
- 111,0 milyon manat məbləğində özəlləşmədən daxilolmalar.

Layihə

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin gəlirləri 25 427 000,0 min manat, xərcləri 28 543 000,0 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 24 621 550,0 min manat, yerli gəlirləri 805 450,0 min manat, mərkəzləşdirilmiş xərcləri 27 683 368,0 min manat, yerli xərcləri 859 632,0 min manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| | **Gəlirlərin mənbələri** | **Məbləğ (min manatla)** |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 150 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 144 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 45 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 211 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 4 710 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 2 740 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 295 000,0 |
| 2.7. | Aksizlər | 1 059 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 170 000,0 |
| 2.8. | Yol vergisi | 114 000,0 |
| 2.8.1. | Azərbaycan Respublikasının ərazisinə idxal olunan yanacağa görə və xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 40 000,0 |
| 2.9. | Mədən vergisi | 138 000,0 |
| 2.10. | Gömrük rüsumları | 950 000,0 |
| 2.11. | Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən yığımlar | 141 000,0 |
| 2.12. | Xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar | 2 481,0 |
| 2.13. | Səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər | 168 050,0 |
| 2.14. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar (transfertin yuxarı həddi) | 12 200 000,0 |

| | | |
|---|---|---|
| 2.15. | Dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar | 11 000,0 |
| 2.16. | Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar | 8 000,0 |
| 2.17. | Dövlət rüsumu | 170 000,0 |
| 2.18. | Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar | 15 000,0 |
| 2.19. | Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar | 700 000,0 |
| 2.20. | Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert | 880 000,0 |
| 2.21. | Mərkəzi Bankın mənfəətindən ayırmalar | 250 000,0 |
| 2.22. | Sair daxilolmalar | 65 469,0 |

**Maddə 3.** Müəyyən edilsin ki, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu dövlət büdcəsinin aşağıdakı mədaxil mənbələri hesabına formalaşır:

**(min manatla)**

| | | |
|---|---|---|
| 3.1. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu | 290 000,0 |
| 3.1.1. | yol vergisi | 114 000,0 |
| 3.1.2. | mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi | 6 000,0 |
| 3.1.3. | idxal olunan minik avtomobillərinə tətbiq edilən aksizlər | 46 000,0 |
| 3.1.4. | idxal olunan avtonəqliyyat vasitələrinə tətbiq edilən gömrük rüsumu | 91 000,0 |
| 3.1.5. | Azərbaycan Respublikasının ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün tutulan dövlət rüsumu | 15 500,0 |
| 3.1.6. | nəqliyyat vasitələrinin, o cümlədən motonəqliyyat vasitələrinin, qoşquların və yarımqoşquların texniki baxışdan keçirilməsi üçün tutulan dövlət rüsumu | 17 500,0 |

**Maddə 4.** Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixracla bağlı xərclər çıxılmaqla) ölkədaxili topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə 30 faiz həcmində yığım tutulur və bu yığımlar vergi ödəyicisinin vergilər, faizlər, maliyyə sanksiyaları və inzibati cərimələr üzrə digər borclarının ödənilməsinə aid edilmir.

**Maddə 5.** Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələr hesabına formalaşdırılır:

5.1. bu Qanunun 9-cu maddəsi ilə 2021-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olan hissəsi (müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid edilənlərdən başqa);

5.2. gömrük rüsumları, Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi və aksiz (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa), dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, xarici dövlətlərə verilmiş kreditlər üzrə daxilolmalar, səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividendlər, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) daxilolmalar, Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert, Mərkəzi Bankın mənfəətindən ayırmalar, sair daxilolmalar, dövlət büdcəsinin

mərkəzləşdirilmiş xərclərindən maliyyələşdirilən büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondunun gəlirləri tam həcmdə.

**Maddə 6**. Bu Qanunun 9-cu maddəsi ilə 2021-ci il üçün hər bir şəhər və rayon üzrə müəyyən edilmiş gəlirlərin müvafiq şəhər və rayonların yerli xərclərindən artıq olmayan hissəsi onların yerli gəlirlərinin formalaşdırılmasına yönəldilir.

**Maddə 7.** Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir:

| | **Xərclərin istiqamətləri** | **Məbləğ (manatla)** |
|---|---|---|
| 7.1. | Ümumi dövlət xidmətləri | 4 159 765 076,0 |
| 7.1.1. | qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti | 1 062 439 566,0 |
| 7.1.2. | beynəlxalq münasibətlər | 274 300 000,0 |
| 7.1.3. | xarici yardımlar | 36 800 000,0 |
| 7.1.4. | elm | 183 308 217,0 |
| 7.1.5. | seçkilərin keçirilməsi və statistika tədbirləri | 19 631 038,0 |
| 7.1.6. | büdcələrarası transfertlər | 384 531 000,0 |
| 7.1.6.1. | yerli (bələdiyyələr) büdcələrə verilən dotasiya | 5 100 000,0 |
| 7.1.6.2. | yerli (bələdiyyələr) büdcələrə verilən subvensiya | 1 300 000,0 |
| 7.1.6.3. | Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya | 378 131 000,0 |
| 7.1.7. | dövlət borcu | 2 198 755 255,0 |
| 7.2. | Müdafiə və milli təhlükəsizlik | 4 585 806 638,0 |
| 7.2.1. | müdafiə qüvvələri | 1 934 288 659,0 |
| 7.2.2. | milli təhlükəsizlik | 260 612 183,0 |
| 7.2.3. | sərhəd xidməti | 281 620 334,0 |
| 7.2.4. | müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar | 3 901 203,0 |
| 7.2.5. | müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər | 2 105 384 259,0 |
| 7.3. | Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq | 2 092 827 281,0 |
| 7.3.1. | məhkəmə hakimiyyəti | 109 960 320,0 |
| 7.3.2. | hüquq mühafizə | 1 589 597 336,0 |
| 7.3.3. | prokurorluq | 99 523 233,0 |
| 7.3.4. | hüquqi yardım | 4 539 200,0 |
| 7.3.5. | məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq sahələrinə aid edilən digər fəaliyyətlər | 289 207 192,0 |
| 7.4. | Təhsil | 3 277 655 549,0 |
| 7.4.1. | məktəbəqədər təhsil | 319 352 315,0 |
| 7.4.2. | ümumi təhsil | 1 764 680 611,0 |
| 7.4.3. | peşə təhsili | 51 143 908,0 |
| 7.4.4. | orta ixtisas təhsili | 71 043 059,0 |
| 7.4.5. | ali təhsil | 60 852 036,0 |
| 7.4.6. | əlavə təhsil | 3 415 815,0 |

| | | |
|---|---|---|
| 7.4.7. | təhsil sahəsində tətbiqi tədqiqatlar | 5 982 239,0 |
| 7.4.8. | təhsil sahəsində digər müəssisə və tədbirlər | 1 001 185 566,0 |
| 7.5. | Səhiyyə | 1 409 000 546,0 |
| 7.5.1. | poliklinikalar və ambulatoriyalar | 1 487 411,0 |
| 7.5.2. | xəstəxanalar | 153 678 877,0 |
| 7.5.3. | səhiyyə sahəsində tətbiqi tədqiqatlar | 2 421 115,0 |
| 7.5.4. | səhiyyə sahəsində proqramlar və digər xidmətlər | 1 251 413 143,0 |
| 7.6. | Sosial müdafiə və sosial təminat | 3 692 746 545,0 |
| 7.6.1. | sosial müdafiə | 289 724 358,0 |
| 7.6.2. | sosial təminat | 4 818 974,0 |
| 7.6.3. | sosial müdafiə və sosial təminat sahələri üzrə tətbiqi tədqiqatlar | 60 000,0 |
| 7.6.4. | sosial müdafiə və sosial təminat sahələri üzrə digər müəssisə və tədbirlər | 3 398 143 213,0 |
| 7.6.4.1. | dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün ayrılan vəsait | 1 631 530 950,0 |
| 7.7. | Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət | 418 169 237,0 |
| 7.7.1. | mədəniyyət və incəsənət sahəsində fəaliyyət | 177 486 278,0 |
| 7.7.2. | televiziya, radio və nəşriyyat | 67 482 949,0 |
| 7.7.3. | bədən tərbiyəsi və gənclər siyasəti | 53 958 941,0 |
| 7.7.4. | mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti sahəsinə aid olan digər müəssisə və tədbirlər | 119 241 069,0 |
| 7.8. | Mənzil və kommunal təsərrüfatı | 262 848 166,0 |
| 7.8.1. | mənzil | 32 907 008,0 |
| 7.8.2. | kommunal təsərrüfatı | 88 506 062,0 |
| 7.8.3. | su təsərrüfatı | 52 500 000,0 |
| 7.8.4. | mənzil və kommunal təsərrüfatı ilə bağlı digər xidmətlər | 88 935 096,0 |
| 7.9. | Kənd təsərrüfatı | 943 035 597,0 |
| 7.9.1. | kənd təsərrüfatı tədbirləri | 496 283 297,0 |
| 7.9.2. | baytarlıq | 30 000 000,0 |
| 7.9.3. | meliorasiya | 405 798 300,0 |
| 7.9.4. | kənd təsərrüfatı üzrə digər müəssisə və tədbirlər | 10 954 000,0 |
| 7.10. | Ətraf mühitin mühafizəsi | 275 542 039,0 |
| 7.10.1. | bioloji zənginliyin qorunması | 7 127 751,0 |
| 7.10.2. | hidrometeorologiya tədbirləri | 10 835 757,0 |
| 7.10.3. | meşə təsərrüfatı | 13 391 883,0 |
| 7.10.4. | balıqçılıq və ovçuluq | 1 696 408,0 |
| 7.10.5. | ərazilərin təmizlənməsi, çirkab suların yığılması və təmizlənməsi | 232 760 240,0 |
| 7.10.6. | ətraf mühitin mühafizəsi sahəsinə aid edilən digər xidmətlər | 9 730 000,0 |
| 7.11. | İqtisadi fəaliyyət | 5 947 474 995,0 |
| 7.11.1. | nəqliyyat və rabitə | 208 733 502,0 |
| 7.11.2. | iqtisadi və kommersiya fəaliyyəti | 55 363 782,0 |
| 7.11.3. | tikinti və şəhərsalma | 5 036 561 290,0 |

| | | |
|---|---|---|
| 7.11.3.1. | dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) | 2 835 000 000,0 |
| 7.11.3.2. | işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası | 2 200 000 000,0 |
| 7.11.4. | geodeziya və faydalı qazıntılar | 15 100 000,0 |
| 7.11.5. | yanacaq və enerji kompleksi | 1 900 000,0 |
| 7.11.6. | iqtisadi fəaliyyət sahələri üzrə tətbiqi tədqiqatlar | 1 500 000,0 |
| 7.11.7. | iqtisadi fəaliyyət ilə bağlı digər xidmətlər | 628 316 421,0 |
| 7.12. | Əsas bölmələrə aid edilməyən xərclər | 1 478 128 331,0 |
| 7.12.1. | ehtiyat fondları | 585 000 000,0 |
| 7.12.1.1. | Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondu | 475 000 000,0 |
| 7.12.1.2. | dövlət büdcəsinin ehtiyat fondu | 110 000 000,0 |
| 7.12.2. | məqsədli büdcə fondları | 290 000 000,0 |
| 7.12.2.1. | müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fondu | 290 000 000,0 |
| 7.12.3. | valyuta konvertasiyası | 4 000 000,0 |
| 7.12.4. | əsas bölmələrə aid edilməyən tədbirlər üzrə digər fəaliyyət | 599 128 331,0 |
| 7.12.4.1. | fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı xərclər | 20 000 000,0 |
| 7.12.4.2. | sosial-iqtisadi və digər tədbirlər üzrə xərclər | 579 128 331,0 |

**Maddə 8.** Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının şəhər və rayonları üzrə gəlirlər 7.250.000.000,0 manat, o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ 113.000.000,0 manat, yerli xərclər 859.632.000,0 manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 6.331.550.000,0 manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 54.182.000,0 manat məbləğində təsdiq edilsin.

**(manatla)**

| Sıra №-si | Şəhər və rayonların adı | Gəlirlər | | Yerli xərclər | Gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləş-dirilmiş gəlirlərə aid edilən hissəsinin aşağı həddi | Yerli gəlir və xərcləri tənzimlə-mək üçün mərkəzləş-dirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi |
|---|---|---|---|---|---|---|
| | | Cəmi | o cümlədən Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məqsədli büdcə fonduna aid olan məbləğ | | | |
| **1** | **2** | **3** | **4** | **5** | **6** | **7** |
| | **Şəhərlər** | | | | | |
| 1 | Bakı | 6 407 544 000 | 84 653 000 | 335 683 000 | 5 987 208 000 | 0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2 | Gəncə | 61 741 000 | 1 188 000 | 36 226 000 | 24 327 000 | 0 |
| 3 | Lənkəran | 23 099 000 | 1 540 000 | 13 889 000 | 7 670 000 | 0 |
| 4 | Mingəçevir | 26 979 000 | 65 000 | 19 567 000 | 7 347 000 | 0 |
| 5 | Naftalan | 5 081 000 | 2 000 | 3 361 000 | 1 718 000 | 0 |
| 6 | Sumqayıt | 127 104 000 | 1 610 000 | 46 811 000 | 78 683 000 | 0 |
| 7 | Şəki | 26 578 000 | 1 170 000 | 13 007 000 | 12 401 000 | 0 |
| 8 | Şirvan | 23 597 000 | 1 074 000 | 5 903 000 | 16 620 000 | 0 |
| 9 | Yevlax | 17 962 000 | 1 654 000 | 9 648 000 | 6 660 000 | 0 |
| 10 | Xankəndi | | | | | |
| | **Rayonlar:** | | | | | |
| 11 | Abşeron | 53 896 000 | 166 000 | 17 136 000 | 36 594 000 | 0 |
| 12 | Ağcabədi | 14 127 000 | 1 036 000 | 9 787 000 | 3 304 000 | 0 |
| 13 | Ağdam | 5 385 000 | 35 000 | 10 425 000 | 0 | 5 075 000 |
| 14 | Ağdaş | 6 237 000 | 12 000 | 7 644 000 | 0 | 1 419 000 |
| 15 | Ağstafa | 6 577 000 | 41 000 | 7 915 000 | 0 | 1 379 000 |
| 16 | Ağsu | 7 802 000 | 635 000 | 5 474 000 | 1 693 000 | 0 |
| 17 | Astara | 12 879 000 | 1 710 000 | 5 785 000 | 5 384 000 | 0 |
| 18 | Balakən | 5 795 000 | 1 103 000 | 6 406 000 | 0 | 1 714 000 |
| 19 | Beyləqan | 10 349 000 | 33 000 | 6 347 000 | 3 969 000 | 0 |
| 20 | Bərdə | 15 259 000 | 61 000 | 8 947 000 | 6 251 000 | 0 |
| 21 | Biləsuvar | 9 702 000 | 1 817 000 | 5 097 000 | 2 788 000 | 0 |
| 22 | Cəbrayıl | 998 000 | 16 000 | 3 669 000 | 0 | 2 687 000 |
| 23 | Cəlilabad | 8 710 000 | 35 000 | 8 225 000 | 450 000 | 0 |
| 24 | Daşkəsən | 3 831 000 | 1 000 | 3 830 000 | 0 | 0 |
| 25 | Füzuli | 7 966 000 | 17 000 | 10 351 000 | 0 | 2 402 000 |
| 26 | Gədəbəy | 5 909 000 | 41 000 | 7 040 000 | 0 | 1 172 000 |
| 27 | Goranboy | 5 851 000 | 20 000 | 9 013 000 | 0 | 3 182 000 |
| 28 | Göyçay | 11 183 000 | 16 000 | 8 045 000 | 3 122 000 | 0 |
| 29 | Göygöl | 12 988 000 | 9 000 | 6 811 000 | 6 168 000 | 0 |
| 30 | Hacıqabul | 6 678 000 | 12 000 | 3 533 000 | 3 133 000 | 0 |
| 31 | Xaçmaz | 32 121 000 | 4 060 000 | 9 089 000 | 18 972 000 | 0 |
| 32 | Xızı | 3 122 000 | 5 000 | 3 117 000 | 0 | 0 |
| 33 | Xocalı | 389 000 | 3 000 | 1 704 000 | 0 | 1 318 000 |
| 34 | Xocavənd | 784 000 | 25 000 | 2 313 000 | 0 | 1 554 000 |
| 35 | İmişli | 26 521 000 | 1 024 000 | 5 901 000 | 19 596 000 | 0 |
| 36 | İsmayıllı | 10 098 000 | 10 000 | 5 931 000 | 4 157 000 | 0 |
| 37 | Kəlbəcər | 1 300 000 | 4 000 | 4 989 000 | 0 | 3 693 000 |
| 38 | Kürdəmir | 9 434 000 | 18 000 | 5 297 000 | 4 119 000 | 0 |
| 39 | Qax | 4 343 000 | 15 000 | 9 374 000 | 0 | 5 046 000 |
| 40 | Qazax | 12 972 000 | 15 000 | 7 871 000 | 5 086 000 | 0 |
| 41 | Qəbələ | 18 115 000 | 22 000 | 7 693 000 | 10 400 000 | 0 |
| 42 | Qobustan | 4 178 000 | 5 000 | 4 173 000 | 0 | 0 |
| 43 | Quba | 20 977 000 | 64 000 | 7 457 000 | 13 456 000 | 0 |
| 44 | Qubadlı | 3 417 000 | 4 000 | 3 413 000 | 0 | 0 |
| 45 | Qusar | 11 052 000 | 28 000 | 5 726 000 | 5 298 000 | 0 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 46 | Laçın | 2 420 000 | 75 000 | 5 459 000 | 0 | 3 114 000 |
| 47 | Lerik | 2 791 000 | 5 000 | 5 251 000 | 0 | 2 465 000 |
| 48 | Masallı | 10 586 000 | 35 000 | 7 963 000 | 2 588 000 | 0 |
| 49 | Neftçala | 7 987 000 | 28 000 | 5 982 000 | 1 977 000 | 0 |
| 50 | Oğuz | 2 883 000 | 30 000 | 5 279 000 | 0 | 2 426 000 |
| 51 | Saatlı | 10 316 000 | 8 000 | 8 164 000 | 2 144 000 | 0 |
| 52 | Sabirabad | 12 351 000 | 17 000 | 6 499 000 | 5 835 000 | 0 |
| 53 | Salyan | 13 600 000 | 26 000 | 6 832 000 | 6 742 000 | 0 |
| 54 | Samux | 3 820 000 | 16 000 | 5 507 000 | 0 | 1 703 000 |
| 55 | Siyəzən | 4 930 000 | 17 000 | 3 699 000 | 1 214 000 | 0 |
| 56 | Şabran | 6 415 000 | 21 000 | 4 019 000 | 2 375 000 | 0 |
| 57 | Şamaxı | 12 526 000 | 14 000 | 8 290 000 | 4 222 000 | 0 |
| 58 | Şəmkir | 19 334 000 | 50 000 | 13 954 000 | 5 330 000 | 0 |
| 59 | Şuşa | 1 382 000 | 2 000 | 2 176 000 | 0 | 796 000 |
| 60 | Tərtər | 5 921 000 | 17 000 | 8 763 000 | 0 | 2 859 000 |
| 61 | Tovuz | 21 241 000 | 7 460 000 | 11 232 000 | 2 549 000 | 0 |
| 62 | Ucar | 4 836 000 | 21 000 | 5 922 000 | 0 | 1 107 000 |
| 63 | Yardımlı | 2 405 000 | 8 000 | 4 704 000 | 0 | 2 307 000 |
| 64 | Zaqatala | 8 698 000 | 62 000 | 10 993 000 | 0 | 2 357 000 |
| 65 | Zəngilan | 1 631 000 | 3 000 | 2 855 000 | 0 | 1 227 000 |
| 66 | Zərdab | 3 297 000 | 11 000 | 6 466 000 | 0 | 3 180 000 |
| | **Cəmi:** | **7 250 000 000** | **113 000 000** | **859 632 000** | **6 331 550 000** | **54 182 000** |

**Maddə 10.** Bu Qanunun 9-cu maddəsi ilə müəyyən edilmiş yerli xərclərin maliyyələşdirilməsi məqsədilə şəhər və rayonların gəlirləri, həmçinin yerli gəlir və xərcləri tənzimləmək üçün ayrılan vəsaitin yuxarı həddi yerli xərcləri təmin etmədikdə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) həmin şəhər və rayonlara, onların xərclərinin 10 faizindən çox olmayan hissəsi qədər dövlət büdcəsindən vəsait ayırır.

**Maddə 11.** Azərbaycan Respublikasının 2021-ci ildə dövlət daxili və xarici borclarına xidmətlərlə bağlı xərclərin yuxarı hədləri aşağıdakı kimi təsdiq edilsin:

**(manatla)**

| | | |
|---|---|---|
| 11.1. | Daxili dövlət borcu üzrə, o cümlədən: | **167.086.920,0** |
| | faiz ödənişləri | 160.176.016,0 |
| 11.2. | Xarici dövlət borcu üzrə, o cümlədən: | **2.031.668.335,0** |
| | faiz ödənişləri | 466.269.539,0 |

**Maddə 12.** Azərbaycan Respublikasının 2021-ci il üzrə daxili dövlət borclanmasının yuxarı həddi (limiti) 1 300 000,0 min manat, xarici dövlət borclanmasının yuxarı həddi (limiti) 1 200 000,0 min manat təsdiq edilsin. İl ərzində veriləcək dövlət zəmanətlərinin məbləğinin yuxarı həddi (limiti) 1 000 000,0 min manat məbləğində təsdiq edilsin.

**Maddə 13.** Dövlət büdcəsinin icrası prosesində "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə əsasən müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə

dövlət büdcəsinin gəlirləri və kəsirinin maliyyələşdirilməsi mənbələri üzrə daxilolmaların vəziyyətindən asılı olaraq maliyyələşdirilir.

**Maddə 14.** Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3 116 000,0 min manat məbləğində təsdiq edilsin. Onun maliyyələşdirilməsi özəlləşdirmədən, digər mənbələrdən daxilolmalar (daxili və xarici borclanma, 2021-ci ilin 1 yanvar tarixinə dövlət büdcəsinin vahid xəzinə hesabının qalığı) hesabına həyata keçirilsin.

**Maddə 15.** Azərbaycan Respublikasının 2021-ci il icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği 31 163 448,1 min manat müəyyən edilsin.

**Maddə 16.** Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) gəlirləri nəzərə alınmadan, Azərbaycan Respublikasının 2021-ci il icmal büdcəsi kəsirinin yuxarı həddinin məbləği 15 336 533,6 min manat məbləğində müəyyən edilsin.

**Maddə 17.** Bu Qanun 2021-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, "____" ___________ 2020-ci il

№ ________

# Nəticə

Son illər ölkəmizdə dövlət maliyyəsinin idarə edilməsində şəffaflığın və hesabatlılığın artırılması, ictimaiyyətin və vətəndaş cəmiyyəti institutlarının büdcə proseslərində iştirakının genişləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmaqdadır. Belə ki, bu il artıq ikinci dəfə Maliyyə Nazirliyi tərəfindən büdcə müzakirələrində ictimai iştirakçılığın təşviqi, büdcəöncəsi debatların və açıq müzakirələrin başlamasına imkanın yaradılması məqsədilə büdcə müzakirələrinin başlamamışdan qabaq “Dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair açıqlama” - “İlkin Büdcə Bəyanatı” yayımlanmışdır. Bunun davamı olaraq bu il də Maliyyə Nazirliyi tərəfindən büdcə prosesində ictimaiyyətin iştirakını təmin etmək və bununla da büdcə prosesinin şəffaflığına nail olmaq məqsədilə növbəti ilin büdcə layihəsi ilə birlikdə layihəyə dair izahat da nazirliyin rəsmi internet səhifəsində yerləşdirilmişdir.

Büdcə prosesində şəffaflığın artırılması istiqamətində atılmış bu addımlar həm vətəndaş cəmiyyəti və hökumət qurumları, həm də beynəlxalq təşkilatlar tərəfindən qiymətləndirilir. Büdcə prosesinə dair diaqnostik qiymətləndirmə aləti hesab olunan Açıq Büdcə Sorğusunda məhz büdcə layihəsinin əhatəliliyi və ictimaiyyət üçün əlçatanlığını əsas götürülür. Bu praktikanın 2021-ci il və növbəti illərdə də davam etdirilməsi büdcə məlumatlarının ictimaiyyətə və vətəndaşlara əlçatanlığının təmin edilməsi fonunda görülmüş işlərin məntiqi davamı kimi sözügedən indeksdə ölkə reytinqinin xeyli yaxşılaşması ilə nəticələnəcəkdir.

Bundan əlavə onu da qeyd etmək lazımdır ki, “İqtisadi Azadlıq İndeksi 2020” hesabatına əsasən Azərbaycan 16 pillə irəliləyərək 180 ölkə arasında 44-cü yerdə qərarlaşmışdır. Bu nəticəyə biznes azadlığı, investisiya azadlığı və fiskal sağlamlıq indikatorlarındakı inkişaf hesabına nail olunmuşdur.

# Anlayışlar və terminlər

Ümumi daxili məhsul — bir il ərzində iqtisadiyyatda (ölkə daxil də) istehsal olunan bütün mal və xidmətlərin məcmu bazar qiymətidir;

büdcə - Azərbaycan Respublikasının müvafiq dövlət hakimiyyəti və özünüidarəetmə orqanları vasitəsi ilə dövlətə və bələdiyyələrə məxsus vəzifə və funksiyaları yerinə yetirmək üçün lazım olan pul vəsaitinin yığılması və istifadə olunması üçün əsas maliyyə sənədi;

büdcə təsnifatı - dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin, yerli büdcələrin və büdcədənkənar dövlət fondlarının gəlirlərinin, xərclərinin və maliyyələşmə mənbələrinin funksional, iqtisadi, inzibati və digər prinsiplər əsasında qruplaşdırılması;

büdcə ili - yanvar ayının 1-dən dekabr ayının 31-dək olan bir illik dövr;

təsdiq olunan büdcə ayırmaları - qanunvericiliklə təsdiq olunan və dövlət büdcəsində, Naxçıvan Muxtar Respublikasının büdcəsində və yerli büdcələrdə maddələr üzrə xərclənə biləcək vəsaitin yuxarı həddi;

büdcədənkənar dövlət fondları - qanunvericiliyə uyğun olaraq dövlət tərəfindən hüquqi şəxs qismində təsis edilmiş və dövlət büdcəsindən kənar müstəqil büdcəyə malik olan məqsədli dövlət maliyyə fondları;

büdcədənkənar əməliyyatlar - müvafiq icra hakimiyyəti orqanlarının və büdcə təşkilatlarının qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət büdcəsindən və Naxçıvan Muxtar Respublikasının büdcəsindən kənarda əldə etdikləri gəlirləri və həyata keçirdikləri xərcləri üzrə maliyyə əməliyyatları;

icmal büdcə - dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikasının büdcəsinin (büdcədənkənar əməliyyatlar da daxil olmaqla) və büdcədənkənar dövlət fondlarının gəlir və xərclərini funksional və iqtisadi təsnifata uyğun paraqraflar səviyyəsində əks etdirən maliyyə sənədi;

büdcə kəsiri (defisit) - büdcə xərclərinin gəlirlərlə təmin olunmayan məbləği;

büdcə artıqlığı (profisit) - büdcə gəlirlərinin büdcə xərclərindən artıq olan məbləği;

dövlət büdcəsinin kassa icrası - büdcə gəlirlərinin büdcəyə daxilolmasını və xərclərinin büdcə təsnifatına uyğun olaraq xəzinədarlıq vasitəsi ilə ünvanlı istifadəsini təmin edən icra mexanizmi;

büdcə gəlirləri - Azərbaycan Respublikasının, Naxçıvan Muxtar Respublikasının və yerli özünüidarəetmə orqanlarının müvafiq qanunvericilik aktları ilə müəyyən olunmuş qaydada dövlət büdcəsinə, Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə daxil olan vergilər, rüsumlar, digər ödənişlər və daxilolmalar;

büdcə xərcləri - büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsindən, Naxçıvan Muxtar Respublikasının büdcəsindən və yerli büdcələrdən qanunvericiliklə nəzərdə tutulan tələbatı ödəmək üçün ayrılan vəsait;

mərkəzləşdirilmiş gəlir - dövlət büdcəsində müəyyən edilən normativlərə uyğun olaraq dövlət büdcəsi gəlirlərindən yerli gəlirlər çıxıldıqdan sonra formalaşan gəlir;

mərkəzləşdirilmiş xərc - büdcə təsnifatına uyğun olaraq dövlət büdcəsində nəzərdə tutulan müvafiq orqanların fəaliyyətinin və tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərclər;

yerli gəlir - dövlət büdcəsində müəyyən edilən normativlər əsasında formalaşan ayrı-ayrı şəhər və rayonlar üzrə gəlir;

yerli xərc - büdcə təsnifatına uyğun olaraq maliyyələşdirilməsi yerli gəlirlər və mərkəzləşdirilmiş gəlirlərdən ayrılan vəsait hesabına həyata keçirilən xərclər;

büdcə ssudaları - dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə, yerli büdcələrdən bələdiyyə təşkilatlarına verildiyi büdcə ili ərzində qaytarılmaq şərti ilə il ərzində müəyyən müddətə verilən maliyyə vəsaiti;

dotasiya - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə onların gəlir və xərclərini tənzimləmək məqsədi ilə əvəzsiz verilən maliyyə vəsaiti;

qrant - daxili və xarici mənbələr hesabına əvəzsiz verilən məqsədli maliyyə yardımı;

subvensiya - məqsədli maliyyələşdirmənin həyata keçirilməsi üçün dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə və yerli büdcələrə verilən, lakin həmin məqsəd üçün və ya müəyyən edilmiş müddətdə istifadə edilmədikdə geri qaytarılan maliyyə vəsaiti;

subsidiya - dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və hüquqi şəxslərə əvəzsiz verilən maliyyə vəsaiti;

məqsədli büdcə fondları - dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin tərkibində konkret tədbirlərin həyata keçirilməsi üçün formalaşan və istifadə edilən pul vəsaiti;

sekvestr - dövlət büdcəsi, Naxçıvan Muxtar Respublikasının büdcəsi və yerli büdcələrin , həmçinin dövlət büdcəsinin kəsirinin (defisitin) maliyyələşmə mənbələri üzrə daxilolmalar yerinə yetirilmədikdə, müdafiə olunmuş xərc maddələri istisna olmaqla, büdcə ilinin qalan ayları üzrə xərclərin müəyyən olunmuş qaydada ixtisarı;

müdafiə olunan xərc maddələri - büdcə ili ərzində maliyyələşdirilməsinə sekvestr tətbiq olunmayan, qanunvericiliklə müəyyən edilmiş büdcə xərcləri;

dövlət borcu - Azərbaycan Respublikasının adından bağlanılmış müqavilələrin öhdəlikləri üzrə ödənilməli olan borc;

toplu maliyyə balansı - konkret dövr üçün ölkədə maliyyə vəsaitlərinin yaranma mənbələri və istifadə istiqamətləri barədə məlumatları özündə əks etdirən maliyyə sənədi;

büdcə təşkilatı - maliyyələşdirilməsi bilavasitə Azərbaycan Respublikasının dövlət büdcəsi və Naxçıvan Muxtar Respublikasının büdcəsi hesabına həyata keçirilən idarə və təşkilatlar;

büdcənin tərtibi prosesində iştirak edən təşkilatlar - mərkəzi və yerli icra hakimiyyəti orqanları və onların struktur bölmələri, büdcə gəlirlərinin icrasını təmin edən orqanlar, dövlət büdcəsindən maliyyələşən və (və ya) maliyyə yardımı alan təşkilatlar, büdcədənkənar dövlət fondları və vergi ödəyiciləri, zərurət yarandıqda bələdiyyələr;

vahid xəzinə hesabı – dövlət xəzinədarlığının bank və maliyyə institutlarındakı hesablar sistemi;

vahid xəzinə hesabının qalığı – dövlət xəzinədarlığının bank və maliyyə institutlarındakı hesablar sistemində vəsait qalığı;

vahid xəzinə hesabının sərbəst qalığı – dövlət xəzinədarlığının bank və maliyyə institutlarındakı hesablar sistemində ötən illərin dövlət büdcələrinin icrası nəticəsində cari büdcə ilinin əvvəlinə qalan vəsaitin məbləği;

xalis maliyyə aktivləri – Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitinin qalığı, vahid xəzinə hesabının qalığı, vahid xəzinə hesabının idarəetməyə verilmiş vəsaitləri, Azərbaycan Respublikasının adından bağlanılmış müqavilələrin öhdəlikləri üzrə xarici dövlətlər tərəfindən ödənilməli olan borc və dövlət müəssisələrinin dövlət büdcəsi qarşısında öhdəliklərinə xidmət üzrə cari ilə düşən məbləğin cəmi ilə daxili və xarici dövlət borcunun ümumi məbləğinin fərqi;

büdcə qaydası – orta və uzunmüddətli makroiqtisadi dayanıqlılığı, maliyyə və borc intizamını təmin edən büdcə siyasətinin həyata keçirilməsi üçün makroiqtisadi və büdcə göstəricilərindən ibarət çərçivə;

dövlət müəssisəsi – paylarının (səhmlərinin) 51 və daha artıq faizi birbaşa və ya dolayısı ilə dövlətə məxsus olan səhmdar cəmiyyət, məhdud məsuliyyətli cəmiyyət, digər təşkilati formada fəaliyyət göstərən hüquqi şəxslər və publik hüquqi şəxslər;

qeyri-neft ümumi daxili məhsul – ümumi daxili məhsulun məcmu dəyəri ilə neft-qaz sektorunda formalaşan ümumi daxili məhsulun məcmu dəyərinin fərqi;

icmal büdcənin neft gəlirləri – Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri, Azərbaycan Respublikasının ərazisində xam neftin və təbii qazın hasilatı ilə məşğul olan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ödədiyi vergilər (fiziki şəxslərin gəlir vergisi istisna olmaqla) və həmin fəaliyyətlə məşğul olan digər şəxslərin ödədiyi mənfəət vergisi;

icmal büdcənin qeyri-neft gəlirləri – icmal büdcənin ümumi gəlirlərindən icmal büdcənin neft gəlirləri çıxıldıqdan sonra qalan məbləğ;

dövlət büdcəsinin neft gəlirləri – Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert, Azərbaycan Respublikasının ərazisində xam neftin və təbii qazın hasilatı ilə məşğul olan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) ödədiyi vergilər (fiziki şəxslərin gəlir vergisi istisna olmaqla) və həmin fəaliyyətlə məşğul olan digər şəxslərin ödədiyi mənfəət vergisi;

dövlət büdcəsinin qeyri-neft gəlirləri – dövlət büdcəsinin ümumi gəlirlərindən dövlət büdcəsinin neft gəlirləri çıxıldıqdan sonra qalan məbləğ;

xərclənə bilən neft gəlirləri – proqnozlaşdırılan büdcə ilinin əvvəlinə xalis maliyyə aktivlərinin 30 faizi ilə icmal büdcənin neft gəlirləri arasında yaranan fərqin 20 faizinin həmin göstəricilərin kiçiyinin üzərinə gəlinməklə formalaşan məbləği;

icmal büdcə xərclərinin proqnozlaşdırılan yuxarı həddi – büdcə ili üçün təsdiq olunan icmal büdcənin neft gəlirləri və Azərbaycan Respublikası Dövlət Neft Fondunun xərclərinin məcmusu ilə bu Qanunun 11-1.2.1 – 11-1.2.5-ci maddələrində qeyd olunmuş qeyri-neft gəlirləri və digər daxilolmaların proqnozunun cəmi;

icmal büdcənin baza xərcləri – dövlət borcu üzrə faiz ödənişləri istisna olmaqla, icmal büdcənin digər xərcləri;

icmal büdcənin qeyri-neft baza kəsiri – xərclənə bilən neft gəlirləri istisna olmaqla, icmal büdcənin digər gəlirləri ilə baza xərclərinin fərqi;

ortamüddətli dövr – 5 ilədək olan dövr.

# Əks əlaqə

Hörmətli oxucular!

Sizə təqdim olunmuş “Azərbaycan Respublikasının 2021-ci dövlət və icmal büdcələri üzrə Vətəndaşın büdcə bələdçisi” ilə bağlı rəylərinizi, təkliflərinizi aşağıdakı ünvana göndərə bilərsiniz.

Azərbaycan Respublikası Maliyyə Nazirliyi,
Bakı şəhəri, S.Vurğun küç, 135, AZ-1022

elshad.isgenderov@maliyye.gov.az
tel; 404-46-20

emin.aliyev@maliyye.gov.az
tel; 404-46-21